RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 95 (10115) 3 iyun 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Bizi hədələyən özlərindən xəbərsizlər

İkinci Qarabağ müharibəsində Ermənistana heç kim və heç nə kömək edə bilmədi!

"Məğlubedilməz xalq", "məğlubedilməz ordu" 44 gün ərzində yerlə yeksan edilərək biabırçı məğlubiyyətə uğradıldı!

Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğ"u ilə düşməni diz çökdürdü, ona kapitulyasiya aktını imzalatdırdı, Ağdam, Laçın və Kəlbəcər rayonlarını bir güllə atılmadan geri qaytardı, işğal altındakı torpaqlara azadlıq gətirdi!

Məğlubiyyətlə barışmaq istəməyən ermənilər müdafiəçilərinə arxalanaraq xam xəyallara düşdülər, üçtərəfli Bəyanatın bəzən mühüm bəndlərini yerinə yetirmək istəmədilər.

"Dəmir yumruq" yenidən işə düşdü!

Unikal əməliyyat keçirilərək Həkəri çayı üzərindəki post alındı, beləliklə, şər yoluna çevrilən Laçın qapısı əbədilik qapandı!

Daha sonra cəmi 23 saat çəkən antiterror tədbirləri nəticəsində Azərbaycanın dövlət suverenliyi və konstitusiya əsasları bərpa olundu!

Azərbaycan hərb meydanında qazandığı zəfəri diplomatiya və siyasət sahəsində atdığı qətiyyətli addımlarla davam etdirdi:

Qalib tərəf olsa da, özü sülh şərtlərini hazırlayaraq sülh təşəbbüsünü irəli sürdü;

Vasitəçilərdən imtina edərək ikitərəfli danışıqlara üstünlük verdi;

İşğalda qalmış bir neçə kəndi dinc yolla geriyə qaytararaq delimitasiya və demarkasiya prosesinə başladı;

8 avqust 2025-ci ildə ABŞ Prezidenti D.Trampın iştirakı ilə Vaşinqtonda keçirilən ikitərəfli görüşdə Azərbaycanla Ermənistan arasında sülh sazişinin layihəsi paraflandı.

TRIPP marşrutunun (Zəngəzur dəhlizinin) açılması barədə razılıq əldə olundu;

Qarabağ münaqişəsinin həllində buxova çevrilən ATƏT-in Minsk qrupu tarixin arxivinə verildi;

N.Paşinyan Ermənistan Konstitusiyasında tələb olunan dəyişikliyin referendum yolu ilə aradan qaldırılacağı barədə öz üzərinə öhdəlik götürdü.

Bütün bunlar Ermənistanın və onun havadarlarının ürəyincə olmasa da, cənab İlham Əliyev məcburən etdirdi!

Separatizmdən əziyyət çəkən dünyanın bir sıra siyasi liderlərinə həm də siyasət və diplomatiya dərsləri verdi.

5

# İtaliya Azərbaycanın yaxın dostu və etibarlı strateji tərəfdaşıdır



## İtaliya Respublikasının Prezidenti zati-aliləri cənab Sercio Mattarellaya

Hörmətli cənab Prezident!

Əlamətdar tarix -İtaliya Respublikasının yaranmasının 80-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda dost xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən məmnunluq duyuram.

İtaliya Azərbaycanın yaxın dostu və etibarlı strateji tərəfdaşıdır. Şadam ki, ölkələrimiz arasında münasibətlər qarşılıqlı hörmət və etimad ruhunda inkişaf edir, çoxölçülü strateji tərəfdaşlığımız gündən-günə genişlənir və yeni məzmunla zənginləşir. Biz İtaliya ilə münasibətlərimizin bütün sahələrdə inkişafına xüsusi əhəmiyyət veririk.

Keçən ilin oktyabrında Sizin Azərbaycana ikinci dəfə rəsmi səfər etməyiniz dövlətlərarası əlaqələrimizin və aramızdakı siyasi dialoqun yüksək səviyyəsindən xəbər verir. Səfər çərçivəsində İtaliya-Azərbaycan Universitetinin açılışında birgə iştirakımız ölkələrimiz arasında mədəni-humanitar əlaqələrin inkişafına ən ali səviyyədə göstərilən diqqətin təzahürüdür.

Siyasi əlaqələrimizin yüksək səviyyəsi Azərbaycan-İtaliya qarşılıqlı fəaliyyətinin inkişafında mühüm rol oynayır. Bu gün ikitərəfli gündəliyimizdə duran məsələlərin spektri çox genişdir. Uğurlu iqtisadi-ticari, enerji, sənaye istehsalı tərəfdaşlığından tutmuş təhsilə qədər uzanan və ildən-ilə yeni sahələri əhatə edən əməkdaşlığımız strateji xarakter daşıyır. İqtisadi əlaqələrimizin mövcud potensialının tam şəkildə reallaşdırılması, sərmayə, müdafiə, humanitar, o cümlədən yeni istiqamətlər üzrə əməkdaşlığın şaxələndirilməsi qarşımızda duran əsas məsələlərdəndir.

Əminəm ki, Azərbaycan-İtaliya dostluğunun və etibarlı tərəfdaşlığının möhkəmləndirilməsi, əməkdaşlığımızın hərtərəfli genişləndirilməsi naminə birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost İtaliya xalqına daim firavanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 may 2026-cı il*

# Milli həmrəylikdən böyük Zəfərə



Son 10 ildə dünya azərbaycanlılarının həmrəyliyinin daha da möhkəmlənməsi, diaspor təşkilatlarının fəaliyyətinin genişlənməsi və beynəlxalq müstəvidə Azərbaycanın mövqelərinin güclənməsi IV Qurultayda müəyyənləşdirilən strateji hədəflərin uğurla həyata keçirildiyini göstərir. Xüsusilə 2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi Zəfərlə Azərbaycanın ərazi bütövlüyünün bərpası dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın milli maraqlar ətrafında daha sıx birləşməsinə, informasiya və diplomatik mübarizədə fəal iştirakına səbəb oldu.

Bu gün Azərbaycan diasporu qarşısında duran əsas vəzifələrdən biri ölkəmizin qazandığı uğurların, həyata keçirilən quruculuq və bərpa işlərinin, eləcə də regionda formalaşan yeni reallıqların beynəlxalq ictimaiyyətə obyektiv şəkildə çatdırılmasıdır.

6

# Görüş yeri dəyişmədi

"Bakı-Ekspo" Mərkəzi qlobal enerji şirkətlərinin ənənəvi ünvanıdır




9

# TDT-nin təməl tarixi

1926-cı il qurultayından türk dünyasının bu gününə ötürülən ruh




6

# Qlobal liderlik, səmimi dostluq, yeni diplomatik səhifə



7

# WUF13 Azərbaycanın uğurlu iqtisadi inkişafını beynəlxalq aləmə təqdim etdi




9

# Kibertəhlükəsizlik sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və Fərmanının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, kibertəhlükəsizlik və fərdi məlumatların mühafizəsi sahələrində idarəetmə, tənzimləmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, bu sahələrdə həyata keçirilən fəaliyyətin optimallaşdırılması və dövlət nəzarətinin səmərəliliyinin artırılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin əsasında Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində "Milli Kibertəhlükəsizlik Agentliyi" publik hüquqi şəxs yaradılsın.

2. "Milli Kibertəhlükəsizlik Agentliyinin Nizamnaməsi" təsdiq edilsin *(əlavə olunur).*

3. Müəyyən edilsin ki:

3.1. Milli Kibertəhlükəsizlik Agentliyi (bundan sonra - Agentlik) ölkədə kibertəhlükəsizlik sahəsində tənzimləmənin və nəzarətin (kritik informasiya infrastrukturlarına, dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə yalnız məlumat mübadiləsinin) həyata keçirilməsini, həmçinin dayanıqlılığın artırılmasını, o cümlədən informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasını, informasiya infrastrukturlarının kibertəhlükəsizliyinin pozulmasına yönəldilmiş hərəkətləri aşkarlamaq, araşdırmaq və qarşısını almaq üçün preventiv tədbirlərin görülməsini (dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturları, eləcə də kritik informasiya infrastrukturları istisna olmaqla), mövcud və yarana biləcək kibertəhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanı, əhalinin, dövlət və qeyri-dövlət qurumlarının kibertəhlükəsizlik sahəsində maarifləndirilməsini və onlara metodiki dəstək göstərilməsini təmin edən (ali kateqoriya dövlət orqanlarına, mühafizə olunan şəxslərə, qorunan və strateji obyektlərə, habelə dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə aidiyyəti səlahiyyətli orqan vasitəsilə, kritik informasiya infrastrukturunun təhlükəsizliyinə münasibətdə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan vasitəsilə), habelə yayılması qadağan edilən informasiyanın internet informasiya ehtiyatlarında yerləşdirilməsinə qarşı tədbirlər görən və fərdi məlumatların mühafizəsi sahəsində fəaliyyət göstərən publik hüquqi şəxsdir;

3.2. Agentlik bu Fərmanın 1-ci hissəsində qeyd edilən dövlət orqanının hüquqi varisidir, onun bütün hüquq və öhdəlikləri, habelə əmlakı Agentliyə keçir;

3.3. Agentliyin nizamnamə fondu bu Fərmanın 1-ci hissəsində qeyd edilən dövlət orqanı üçün cari ilin dövlət büdcəsində nəzərdə tutulmuş və həmin dövlət orqanının öhdəliklərinin tam icra olunduğu tarixədək istifadə olunmamış vəsait hesabına formalaşdırılır;

3.4. Agentliyin fəaliyyətinin təşkili və təmin edilməsi xərcləri fəaliyyətindən, o cümlədən göstərdiyi xidmətlərdən əldə olunan vəsait və qanunla qadağan edilməyən digər mənbələr hesabına maliyyələşdirilir;

3.5. Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün4 (dörd) üzvdən - sədr və onun 3 (üç) müavinindən ibarət İdarə Heyəti yaradılır.

4. Agentliyintəsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Agentliyinnizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;

4.1.2. Agentliyinidarəetmə orqanlarının yaradılması;

4.1.3. Agentliyinyenidən təşkili və ləğvi;

4.2. Nazirliyə:

4.2.1. bu Fərmanın 4.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Agentlikdövlət qeydiyyatına alındığı gündən 1 (bir) ay müddətində bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan dövlət orqanının balansındakı əmlakın Agentliyinbalansına verilməsini təmin etsin və Agentliyinmaddi-texniki təminatının yaxşılaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Nazirlik:

6.1. Agentliyindövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

6.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

7. "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 sentyabr tarixli 708 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 860 (Cild I) 4-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

"4.Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ölkədə ümumi kibertəhlükəsizlik vəziyyətini mütəmadi təhlil etsin, əhalinin, dövlət və qeyri-dövlət qurumlarının rəqəmsal vasitələrdən istifadə zamanı mövcud və yarana biləcək kibertəhlükələr barədə məlumatlandırılmasını həyata keçirsin, onlara texniki və metodiki dəstək göstərsin (ali kateqoriya dövlət orqanlarına, mühafizə olunan şəxslərə, qorunan və strateji obyektlərə, habelə dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə aidiyyəti səlahiyyətli orqan vasitəsilə, kritik informasiya infrastrukturunun təhlükəsizliyinə münasibətdə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan vasitəsilə), ölkəyə daxil olan ümumi internet trafikində qlobal kiberhücumların qarşısını almaq məqsədilə telekommunikasiya operatoru, provayderi və aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə qabaqlayıcı tədbirlər görsün və mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.".

8. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763, № 9, maddə 820, № 10, maddə 898, № 11, maddələr 1018, 1036; 2026, № 1, maddə 36, № 2, maddə 123, № 3, maddə 226; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 aprel tarixli 643 nömrəli və 6 may tarixli 660 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 31-5.2-ci bəndində "yanında Elektron Təhlükəsizlik Xidmətinin rəisi, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri" sözləri "tabeliyində Milli Kibertəhlükəsizlik Agentliyinin İdarə Heyətinin sədri, onun müavinləri, departament direktoru, onun müavini, şöbə müdiri, baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis" sözləri ilə əvəz edilsin.

9. "Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41 (Cild I); 2024, № 2, maddə 155, № 6 (I kitab), maddə 654, № 8, maddə 948, № 12 (I kitab), maddə 1287; 2025, № 3, maddələr 224, 227, № 6, maddə 552, № 8, maddə 759;2026, № 3, maddə 227) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 5-ci hissədən ", Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin işçilərinin say həddi 30 ştat vahidi" sözləri çıxarılsın;

9.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3-cü hissəsi üzrə:

9.2.1. 3.0.36-cı və 3.0.36-1-ci yarımbəndlərə "sistemlərinin" sözündən sonra "(ali kateqoriya dövlət orqanlarının, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanlarının, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin və dövlət sirrinə aid edilən fərdi məlumatların informasiya ehtiyatları və sistemləri istisna olmaqla)" sözləri əlavə edilsin;

9.2.2. 3.0.67-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.0.67. ölkədə ümumi kibertəhlükəsizlik vəziyyətini mütəmadi təhlil etmək, əhalini, dövlət və qeyri-dövlət qurumlarını rəqəmsal vasitələrdən istifadə zamanı mövcud və yarana biləcək kibertəhlükələr barədə məlumatlandırmaq, onlara texniki və metodiki dəstək göstərmək (ali kateqoriya dövlət orqanlarının, mühafizə olunan şəxslərə, qorunan və strateji obyektlərə, habelə dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə aidiyyəti səlahiyyətli orqan vasitəsilə, kritik informasiya infrastrukturunun təhlükəsizliyinə münasibətdə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan vasitəsilə), ölkəyə daxil olan ümumi internet trafikində qlobal kiberhücumların qarşısını almaq məqsədilə telekommunikasiya operatoru, provayderi və aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə qabaqlayıcı tədbirlər görmək, kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasını (kritik informasiya infrastrukturları, dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə yalnız məlumat mübadiləsini) həyata keçirmək;";

9.2.3. 3.0.67-1-ci yarımbənddə "qurumlarına" sözü "orqanlarına (qurumlarına)" sözləri ilə əvəz edilsin;

9.2.4. 3.0.67-2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.0.67-2. ölkədə kibertəhlükəsizlik sahəsində koordinasiyanı (kritik informasiya infrastrukturları, dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə yalnız məlumat mübadiləsini) və preventiv tədbirlərin görülməsini, habelə kibertəhlükələr barədə məlumatların toplanılmasını və araşdırılmasını, eləcə də ölkə üzrə digər informasiya infrastrukturlarının kibertəhlükəsizliyinin pozulmasına yönəldilmiş hərəkətlərin aşkarlanmasını və araşdırılmasını, qarşısının alınmasını təmin edən milli kompüter insidentlərinə qarşı mübarizə mərkəzinin fəaliyyətini təşkil etmək, milli və sahəvi kompüter insidentlərinə qarşı mübarizə mərkəzləri arasında vahid məlumatlandırma mexanizmlərini müəyyən etmək;";

9.2.5. 3.0.69-cu yarımbəndə "sistemlərində" sözündən sonra "(ali kateqoriya dövlət orqanlarının, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanlarının, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin və dövlət sirrinə aid edilən fərdi məlumatların informasiya ehtiyatları və sistemləri istisna olmaqla)" sözləri əlavə edilsin;

9.2.6. 3.0.70-ci yarımbənddə "elektron təhlükələrin" sözləri "kibertəhlükələrin" sözü ilə əvəz edilsin;

9.2.7.3.0.83-1-ci yarımbənddə "Nazirliyin yanında Elektron Təhlükəsizlik Xidməti" sözləri "tabeliyindəki qurum" sözləri ilə əvəz edilsin;

9.3. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturu"nun 5-ci hissəsi ləğv edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1826 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 9, maddə 1004; 2025, № 8, maddə 759) ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın 7.1.11-ci yarımbəndində "elektron təhlükələr" sözləri "kibertəhlükələr" sözü ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 iyun tarixli 742 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1034 (Cild I); 2025, № 1, maddə 20) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"nın 1.6.2-ci yarımbəndində "elektron təhlükələrin" sözləri "kibertəhlükələrin" sözü ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1376 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 4 may tarixli 659 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Normativ hüquqi aktlar" informasiya sistemi haqqında Əsasnamə"nin 7.1.4-cü yarımbəndində "elektron təhlükələr" sözləri "kibertəhlükələr" sözü ilə əvəz edilsin.

13. "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 3851 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 571 (Cild I); 2025, № 5, maddə 477) 1-ci hissəsində "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin rəisi" sözləri "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Milli Kibertəhlükəsizlik Agentliyi" publik hüquqi şəxsin İdarə Heyətinin sədri" sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 953 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 2, maddə 162) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın "8. Fəaliyyət Planının həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın 8.4.1-ci yarımbəndinin "aralıq nəticələr" və "yekun nəticələr" sütunlarında ismin müvafiq hallarında "Elektron Təhlükəsizlik Xidməti" sözləri ismin müvafiq hallarında "Milli Kibertəhlükəsizlik Agentliyi" sözləri ilə əvəz edilsin.

15. "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 mart tarixli 833 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 3, maddə 235 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2026-cı il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

İranın və Azərbaycanın xalqları çoxsaylı tarix, sivilizasiya, mədəniyyət, din və dil ortaqlıqlarına malikdirlər. Bu ortaq bağlar ölkələrimizin xalqları arasındakı dostluğu möhkəmləndirmiş və sarsılmaz etmişdir. Şübhəsiz ki, bizim qırılmaz bağlarımız iki ölkə arasında münasibətlərin inkişafı üçün möhkəm zəmin olmuşdur.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra İran İslam Respublikası hər zaman iki ölkənin qarşılıqlı əlaqələrinin inkişafını dəstəkləmişdir. Biz şadıq ki, xalqlarımızın istək və arzularına uyğun olaraq bu gün ölkələrimiz arasındakı münasibətlərdə dinamik prosesin şahidiyik.

Ümidvaram ki, ikitərəfli, regional və beynəlxalq mövzuların geniş spektrini əhatə edən bu dinamik proses daha yüksək sürətlə davam edəcəkdir.

Uca Allahdan zati-alinizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, Azərbaycan Respublikasının xalqına isə rifah və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***Məsud PEZEŞKİAN,***
***İran İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə zati-alinizə və xalqınıza səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Uca Allahdan Sizə cansağlığı və rifah, Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq arzu edirəm.

İslam Əməkdaşlıq Təşkilatı Azərbaycan Respublikası ilə sıx əlaqələrini yüksək qiymətləndirir və islam fəaliyyətinin birgə təşviqi məqsədini daşıyan bu qurumun dəstəklənməsində ölkənizin rolunu təqdir edir. Təşkilatımız üzv dövlətlərin ümumi dəyərlərinin təbliği və bu dövlətlər arasında qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi işində səylərini bundan sonra da davam etdirəcək.

Üzv ölkələrin xalqları arasında həmrəyliyin gücləndirilməsində və birgə islam fəaliyyəti üçün yeni üfüqlərin açılmasında zati-alinizin dəstəyinə ümidvaram.

*Zati-aliləri cənab Prezident, Sizə olan ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

***Hissein Brahim TAHA,***
***İslam Əməkdaşlıq Təşkilatının baş katibi***

❖ ❖ ❖

Zati-aliləri!

Bosniya və Herseqovinanın Rəyasət Heyəti adından və şəxsən öz adımdan Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi və ölkənizin davamlı tərəqqisi ilə bağlı ən xoş arzularımı çatdırıram.

Fürsətdən istifadə edərək Bosniya və Herseqovina ilə Azərbaycan Respublikası arasında mövcud olan dostluq münasibətlərinin hər iki ölkənin qarşılıqlı mənafeləri naminə bundan sonra da inkişaf edəcəyinə səmimi olaraq əminliyimi bildirirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Denis BEÇİROVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə Banqladeş xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Bu əlamətdar gün Azərbaycan xalqının qətiyyətinin, mətanətinin və milli ruhunun qürurverici sübutudur. İllər ərzində Azərbaycan Sizin bacarıqlı rəhbərliyinizlə sosial-iqtisadi tərəqqiyə nail olmaq və beynəlxalq miqyasda mövqeyini möhkəmləndirmək istiqamətində mühüm nailiyyətlər qazanıb.

Banqladeş Azərbaycanla qarşılıqlı hörmətə və sülh, sabitlik, rifahla bağlı ortaq istəklərə əsaslanan dostluq münasibətlərini yüksək qiymətləndirir. Əminəm ki, ölkələrimiz arasında sıx dostluq və əməkdaşlıq əlaqələri qarşıdakı illərdə daha da möhkəmlənəcək və genişlənəcək.

Bu xoş fürsətdən istifadə edərək zati-alinizə cansağlığı və davamlı uğurlar, dost Azərbaycan xalqına bundan sonra da sülh, tərəqqi və firavanlıq arzulayıram.

*Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

***Məhəmməd ŞAHABUDDİN,***
***Banqladeş Xalq Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sudan xalqı adından və şəxsən öz adımdan zati-alinizə ən səmimi təbriklərimi və dost Azərbaycan xalqına davamlı tərəqqi, rifah və firavanlıq arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram. Həmçinin zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

Bu əlamətdar gün Sudan Respublikası ilə Azərbaycan Respublikasını birləşdirən qardaşlıq əlaqələrinin dərinliyini və möhkəmliyini bir daha təsdiqləmək üçün gözəl fürsət yaradır.

Bu xoş fürsətdən istifadə edərək ölkələrimizin qarşılıqlı maraqlarına və ortaq məqsədlərinə xidmət edən ikitərəfli əməkdaşlığımızın daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi istiqamətində qətiyyətimi ifadə edirəm.

*Zati-aliləri, ən yüksək ehtiramımı və dərin hörmətimi qəbul etməyinizi xahiş edirəm.*

***Abdel Fattah Al-Burhan***
***Abdelrahman AL-BURHAN,***
***Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Gününün 108-ci ildönümü münasibətilə zati-alinizə və xalqınıza Myanma İttifaqı Respublikasının xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimizi və xoş arzularımızı çatdırıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Min Aung HLAİNG,***
***Myanma İttifaqı Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə zati-alinizə, Hökumətinizə və xalqınıza öz adımdan, eləcə də Şri-Lanka Hökuməti və xalqı adından səmimi təbriklərimi, xoş arzularımı çatdırmaqdan dərin məmnunluğumu ifadə edirəm.

Şri-Lanka ilə Azərbaycan arasında mövcud dostluq münasibətlərinin və sıx əməkdaşlığın daha da genişlənməsi böyük məmnunluq doğurur. Əminəm ki, ölkələrimizin qarşılıqlı dostluq və əməkdaşlıq əlaqələri gələcək illərdə xalqlarımızın rifahı naminə daha da möhkəmlənəcək.

Fürsətdən istifadə edərək zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, böyük uğurlar, Azərbaycan xalqına isə davamlı sülh, tərəqqi və rifah arzulayıram.

*Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

***Anura Kumara DİSSANAYAKE,***
***Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti***

❖ ❖ ❖

Allahın salamı, rəhməti və bərəkəti üzərinizdə olsun!

28 May - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə və qardaş Azərbaycan xalqına Əfqanıstan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi və xoş arzularımı çadırıram.

Əfqanıstan İslam Əmirliyi ilə Azərbaycan Respublikası arasında münasibətlər qarşılıqlı hörmətə, xoş niyyətə və dostluq əlaqələrinə əsaslanır. Əfqanıstan İslam Əmirliyi bu münasibətlərin müxtəlif sahələrdə daha da möhkəmləndirilməsinə və genişləndirilməsinə böyük önəm verir. Şübhəsiz ki, sıx əməkdaşlıq regional sabitliyin və rifahın təmin olunmasında, həmçinin hər iki ölkənin iqtisadi inkişafında mühüm rol oynaya bilər.

Fürsətdən istifadə edərək Uca Allahdan zati-alinizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar, dost Azərbaycan xalqına isə davamlı sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Əl-Hac Molla Məhəmməd Həsən AXUND,***
***Əfqanıstan İslam Əmirliyinin Baş naziri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin rəhbərliyi adından və şəxsən öz adımdan Sizi dövlət bayramı - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Sizə ali dövləti vəzifənizdəki fəaliyyətinizdə uğurlar, möhkəm cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Fürsətdən istifadə edərək Rusiyanın və Azərbaycanın xüsusi xidmətlərinin ölkələrimizin təhlükəsizliyinin təmin edilməsinin və sabit inkişafının bundan sonra da etibarlı qarantı olacaq əməkdaşlığının inkişafına göstərdiyiniz diqqətə və davamlı dəstəyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

*Hörmətlə,*

***Sergey NARIŞKİN,***
***Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin direktoru***

# "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858 (Cild I); 2024, № 5 (I kitab), maddələr 515, 529, №7, maddə 797; 2025, № 8, maddə 771, № 11, maddə 1025) aşağıdakı dəyişikliklər edilsin:

1. 5.24.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.25-ci bənd əlavə edilsin:

"5.25. şəxsin dövlət narkoloji tibb müəssisələrində qeydiyyatda olmasına dair arayışın verilməsi.".

2. 6-cı hissənin birinci abzasına "Fövqəladə Hallar Nazirliyinə,"sözlərindən sonra "Səhiyyə Nazirliyinə," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2026-cı il*

# Baş nazir Əli Əsədov Ukrayna Baş nazirinin birinci müavini ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 2-də Ukrayna Baş nazirinin birinci müavini və energetika naziri Denis Şmıqal ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən tədbirlərin əhəmiyyəti vurğulanıb. Bakı şəhərinin yenidən qlobal enerji dialoqunun əsas mərkəzlərindən birinə çevrildiyi bildirilərək sözügedən platformanın enerji təhlükəsizliyi, "yaşıl keçid" və dayanıqlı inkişaf məsələləri üzrə beynəlxalq əməkdaşlığın inkişafına mühüm töhfə verdiyi diqqətə çatdırılıb.

Azərbaycan ilə Ukrayna arasında ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılaraq, iqtisadiyyat, ticarət, enerji, humanitar və qarşılıqlı maraq doğuran digər sahələrdə əlaqələrin genişləndirilməsi imkanları müzakirə olunub.

Söhbət zamanı Azərbaycan tərəfindən Ukraynaya göstərilən humanitar dəstəyin əhəmiyyəti vurğulanıb, ölkəmizin Ukrayna xalqına göndərdiyi humanitar yardımlara və mülki infrastrukturun bərpasına verdiyi töhfəyə görə minnətdarlıq ifadə olunub.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 iyul tarixli 367 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 162** **Bakı şəhəri, 2 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yerli icra hakimiyyəti orqanlarının strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 dekabr tarixli 546 nömrəli Fərmanının 2.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 iyul tarixli 367 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 928) ilə təsdiq edilmiş "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası"nın 6.4-cü bəndində "ictimai, siyasi və humanitar" sözləri "ərazi-təşkilat və ictimai-siyasi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 11 aprel tarixli 107 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aviasiya personalına şəhadətnamələrin, vəsiqələrin və ya sertifikatların verilməsi və digər dövlətdə verilmiş analoji sənədlərin tanınması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 164** **Bakı şəhəri, 2 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 11 aprel tarixli 107 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (I kitab), maddə 395) ilə təsdiq edilmiş "Aviasiya personalına şəhadətnamələrin, vəsiqələrin və ya sertifikatların verilməsi və digər dövlətdə verilmiş analoji sənədlərin tanınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 32.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"32.1. Ərizəçinin müraciəti əsasında Agentlik onun digər üzv dövlət tərəfindən verilmiş şəhadətnaməsini Konvensiya, Konvensiyaya 1 nömrəli Əlavə və "Doc 9379, dövlətin aviasiya personalının sertifikatlaşdırma sisteminin yaradılması və idarə olunması üzrə prosedurlara dair vəsait" sənədinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının aviasiya personalına məxsus şəhadətnaməyə konvertasiya etmək hüququna malikdir.".

2. 32.3-cü bəndin üçüncü cümləsi çıxarılsın.

3. Aşağıdakı məzmunda 32.4-cü bənd əlavə edilsin:

"32.4. Konvertasiya prosesində Agentlik ərizəçidən onun mövcud şəhadətnaməsinə uyğun olaraq əlavə təlim və ya imtahanlardan keçməyi tələb etmək hüququna malikdir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan nümayəndə heyəti Minskdə Qələbə abidəsini ziyarət edib



Belarus-Azərbaycan Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq üzrə Komissiyasının 16-cı iclasında iştirak etmək məqsədilə Belarus Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikası Baş nazirinin müavini Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti Minsk şəhərindəki Qələbə meydanına gələrək Qələbə abidəsini ziyarət edib.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, mərasim zamanı Baş nazirin müavini və nümayəndə heyətinin üzvləri İkinci Dünya müharibəsi illərində faşizm üzərində qələbə uğrunda canlarından keçmiş qəhrəmanların əziz xatirəsini dərin ehtiramla yad edib, abidənin önünə əklil qoyublar.

Daha sonra nümayəndə heyəti "Əbədi məşəl"in önünə tər çiçəklər düzərək, həlak olanların xatirəsinə sükutla hörmətini bildirib.

# Kanada Azərbaycanla münasibətlərin daha da inkişaf etdirilməsində maraqlıdır

İyunun 2-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Kanadanın xarici işlər naziri Anita Anand arasında telefon danışığı aparılıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı nazirlər Azərbaycan-Kanada münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri, habelə qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Anita Anand Azərbaycanın müstəqilliyinin 108-ci ildönümü münasibətilə təbriklərini çatdıraraq, Kanada tərəfinin Azərbaycan ilə münasibətlərin daha da inkişaf etdirilməsində maraqlı olduğunu vurğulayıb.

Nazir Ceyhun Bayramov təbrikə görə təşəkkürünü bildirərək, iki ölkə arasında siyasi dialoqun və müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsi üçün mövcud potensialı qeyd edib.

Telefon danışığı zamanı "yaşıl keçid", bərpaolunan enerji, informasiya-kommunikasiya texnologiyaları, enerji təhlükəsizliyi və digər qarşılıqlı maraq doğuran istiqamətlərdə əməkdaşlığın inkişaf etdirilməsi imkanlarının nəzərdən keçirilməsinin əhəmiyyəti vurğulanıb.

Bununla yanaşı, regionda mövcud vəziyyət, münaqişədən sonrakı dövrün reallıqları, eləcə də Azərbaycan-Ermənistan normallaşma və sülh prosesi müzakirə olunub. Nazir Ceyhun Bayramov keçmiş münaqişənin tarixi, Azərbaycanın üzləşdiyi işğal və onun nəticələri barədə məlumat verib, hazırda regionda davamlı sülh və sabitliyin təmin olunması istiqamətində həyata keçirilən səylərdən bəhs edib.

Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Sahibə Qafarova qlobal konfransda Azərbaycanın gender bərabərliyi sahəsində təcrübəsini təqdim edib

Milli Məclisin Sədri Sahibə Qafarova iyunun 2-də Serbiyanın paytaxtı Belqradda keçirilən Parlamentlərarası İttifaqın Qadın Parlamentarilərin Qlobal Konfransında çıxış edib.




Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, S.Qafarova "Paritetə doğru irəliləyiş: Gender stereotipləri və mənfi sosial normaların yaratdığı maneələrin aradan qaldırılması" mövzusunda çıxışında belə tədbirlərin beynəlxalq əməkdaşlığın vacibliyini - fikir mübadiləsinin və qabaqcıl təcrübələrin paylaşılmasının əhəmiyyətini aydın şəkildə nümayiş etdirdiyini vurğulayaraq, bu gün müzakirə olunan problemlərin yalnız bir ölkə və ya regionla məhdudlaşmadığını qeyd edib.

O, bu gün bir sıra mühüm nailiyyətlərin əldə edildiyini, lakin hələ də aradan qaldırılması vacib problemlərin mövcud olduğunu bildirib. Milli Məclisin Sədrinin sözlərinə görə, bu problemlərin ən çətini isə qadınların şəxsi inkişafını məhdudlaşdıran stereotiplər və sosial normalardır.

"Parlament üzvləri olaraq biz qanunvericiliyi ən mühüm alət kimi qəbul edirik. Çünki qanunvericilik zəruri normativ-hüquqi çərçivələri müəyyən edir. Lakin biz, eyni zamanda anlayırıq ki, təkcə qanunvericilik arzuolunan nəticələri təmin edə bilməz. Bunun üçün bütün cəmiyyəti əhatə edən yanaşmaya əsaslanan daha sistemli və hərtərəfli münasibətə ehtiyac var", - deyə S.Qafarova bildirib.

O, Azərbaycanda gender bərabərliyi və qadınların həyatın bütün sahələrində təmsilçiliyinin artırılması istiqamətində görülən işlər barədə məlumat verib. Onun sözlərinə görə, bu gün cəmiyyətimizdə gender bərabərliyi ilə bağlı mövcud təsəvvürlər, əslində, çox əvvəllər formalaşmış milli ənənələrimizi əks etdirir. Belə ki, Azərbaycan qadınları tarixən cəmiyyətin bərabərhüquqlu tərəfdaşları kimi qəbul olunub və onun inkişafına həlledici təsir göstəriblər.

Milli Məclisin Sədri vurğulayıb ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə məişət zorakılığı ilə mübarizə aparılması, ayrı-seçkiliyin aradan qaldırılması, qadınların təhsil və məşğulluq imkanlarının genişləndirilməsi, eləcə də onların səlahiyyətləndirilməsinin təşviq edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib. Prezidentin imzaladığı sərəncamlar, milli fəaliyyət planları və dövlət proqramları qadınların səlahiyyətləndirilməsi sahəsində irəliləyişlərə səbəb olan kompleks və hərtərəfli yanaşmanın formalaşdırılmasını təmin edib.

Milli Məclisin Sədri çıxışının sonunda bir daha qeyd edib ki, dünyadakı mövcud vəziyyət dərin kök salmış stereotiplərin və mənfi sosial normaların aradan qaldırılması istiqamətində ardıcıl tədbirlərin davam etdirilməsinin vacibliyini göstərir. Qanunvericilik bazasının və institusional mexanizmlərin daha da gücləndirilməsi, eyni zamanda cəmiyyətin maarifləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

# Türkiyəli deputatlar Milli Məclisdə olublar

İyunun 2-də Milli Məclisin İnsan hüquqları komitəsinin üzvləri Türkiyə Böyük Millət Məclisinin (TBMM) Müraciət komitəsinin sədri Sunay Karamıkın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüblər.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Türkiyə nümayəndə heyətini salamlayaraq, ölkələrimiz arasında dostluq, qardaşlıq əlaqələrinin uğurla inkişaf etdiyini, parlamentlərarası əməkdaşlığın daha da möhkəmləndiyini vurğulayıb. O, hər iki ölkədə vətəndaşların hüquq və azadlıqlarının qorunması istiqamətində qanunvericilik təcrübələri və birgə fəaliyyət imkanlarının mövcud olduğunu söyləyib. Komitə sədri vətəndaş müraciətlərinin idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, müraciətlərin qəbulu və cavablandırılması prosesində rəqəmsal texnologiyaların tətbiqinin əhəmiyyətini qeyd edib.

Azərbaycan parlamentində olmaqdan məmnunluğunu ifadə edən TBMM-in Müraciət komitəsinin sədri Sunay Karamık parlamentlər səviyyəsində əməkdaşlığın gücləndirilməsi, qanunverici orqanların aidiyyəti komitələri arasında əlaqələrin genişləndirilməsi ilə bağlı fikirlərini bölüşüb. O, Türkiyə parlamentində vətəndaşlardan daxil olan ərizə, şikayət və müraciətlərin araşdırılması istiqamətində görülən işlərdən, vətəndaş məmnuniyyətinin artırılması mexanizmlərindən söhbət açıb.

Görüşdə Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Arzuxan Əlizadə, üzvləri Vüqar Rəhimzadə, Bəhruz Məhərrəmov, TBMM-in Müraciət komitəsinin sədr müavini Ahmet Salih Dal, komitənin üzvləri Ahmet Baran Yazgan, Abdürrahim Dusak, Ahmet Ersagun Yücel, TBMM-in Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım çıxış edərək insan hüquqlarının müdafiəsi, vətəndaş müraciətlərinə baxılması sahəsində təcrübə mübadiləsi, habelə qanunvericilik fəaliyyətində qarşılıqlı əməkdaşlığın genişləndirilməsi məsələlərinə toxunublar. Söhbət zamanı komitələr arasında mütəmadi görüşlərin keçirilməsinin, birgə layihələrin icrasının vacibliyi vurğulanıb. Həmçinin TÜRKPA çərçivəsində əlaqələrin genişləndirilməsi, digər beynəlxalq platformalarda əməkdaşlığın möhkəmləndirilməsi və qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə TÜRKPA baş katibinin müavini Muhammet Alper Hayali, Türkiyə Respublikasının ölkəmizdəki səfiri Birol Akgün və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Etnik və dini icmaların hüquqlarının qorunması barədə fikir mübadiləsi aparılıb

İyunun 2-də Milli Məclisdə Beynəlxalq Siqh Federasiyasının nümayəndələri ilə görüş keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə deputat Tural Gəncəliyev bildirib ki, Azərbaycanın qanunverici orqanı bu kimi beynəlxalq platformalarla əməkdaşlığa və insan hüquqlarının qorunmasına yönəlmiş təşəbbüslərə böyük önəm verir.

Qeyd edilib ki, Azərbaycan tarix boyu işğal, etnik təmizləmə, soyqırımı və insan hüquqlarının pozulması kimi ağır sınaqlarla üzləşib. Bu səbəbdən ölkəmiz müxtəlif regionlarda hüquqları pozulan xalqların, etnik və dini icmaların problemlərinə həssas yanaşır, onların beynəlxalq hüquq çərçivəsində apardıqları dinc mübarizəyə mənəvi dəstək göstərir.

Kanada Siqh Federasiyasının sədri Moninder Singh onlara göstərilən dəstəyə görə təşəkkür edib. O bildirib ki, Beynəlxalq Siqh Federasiyası siqh icmasının hüquqlarının müdafiəsi və dünya üzrə siqh diasporunun maraqlarının təmsil olunması istiqamətində mühüm fəaliyyət həyata keçirir. O, xalqlarımızın tarixində oxşar faciələrin yaşandığını qeyd edərək, bu səbəbdən bir-birimizi daha yaxşı anladığımızı və qarşılıqlı dəstəyi yüksək qiymətləndirdiklərini vurğulayıb.

Görüşdə Milli Məclisin deputatları Razi Nurullayev, Azər Allahverənov, Bakı Təşəbbüs Qrupunun İcraçı direktoru Abbas Abbasov və Beynəlxalq Siqh Federasiyasının üzvləri çıxış ediblər. Söhbət zamanı sülh dialoqunun əhəmiyyəti, insan hüquqlarının müdafiəsi, dini azadlıqların təmin olunması, etnik və dini icmaların hüquqlarının beynəlxalq səviyyədə qorunması istiqamətində əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Akademik Musiqili Teatrda "Balaca şahzadə" əsəri əsasında hazırlanmış eyniadlı tamaşa nümayiş olunub

## Leyla Əliyeva və Alona Əliyeva tamaşanı izləyiblər





Uşaqların Beynəlxalq Müdafiəsi Günündə Azərbaycan Dövlət Akademik Musiqili Teatrında dünyaşöhrətli fransız yazıçısı Antuan de Sent-Ekzüperinin "Balaca şahzadə" əsəri əsasında hazırlanmış eyniadlı tamaşa nümayiş olunub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Alona Əliyeva tamaşanı izləyiblər.

Həm uşaqlar, həm də böyüklər üçün nəzərdə tutulan səhnə əsəri əyləncəli olmaqla yanaşı, dərin məna kəsb edir.

Tamaşanın quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova, səhnələşdirəni yazıçı-publisist İlqar Fəhmi, bəstəkarı Ruslan Ağababayev, rəssamı Məryəm Ələkbərli, xoreoqrafı Rusiyanın Əməkdar incəsənət xadimi Sergey Qritsay, baletmeysterləri Əməkdar artistlər Zakir və Yelena Ağayevlər, bərpaçı rejissoru Sevinc Məmmədova, bərpaçı xoreoqrafı Məhəmməd Abdullayev, rejissor assistenti isə Çimnaz Bağırovadır.

Səhnə əsərində teatrın aktyorları Faiq Mirzəyev (Kral), Əmrah Dadaşov (Pilot), Hüseyn Əlili (Aydın), Rauf Babayev (Kommersant), Ruslan Mürsəlov (Tülkü), Zaur Əliyev (Dərviş), Nuray Məmmədzadə (Qızılgül), Murad Əliyev (Şoumen), həmçinin balet artistləri iştirak ediblər. Balaca şahzadə obrazını isə 44 günlük Vətən müharibəsi şəhidi Telman Kəlbiyevin övladı Elcan Kəlbiyev canlandırıb.

Qeyd edək ki, əsər 2019-cu ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın dəstəyi ilə səhnəyə qoyulub.

# Beynəlxalq Prokurorlar Assosiasiyasının nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdədir



Baş prokuror Kamran Əliyevin dəvətilə dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) yeni fəaliyyətə başlamış baş müşaviri, Birləşmiş Krallığın Dövlət Prokurorluq Xidmətinin idarə rəisi xanım Tarika Jayaratnenin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.

Nümayəndə heyətini qəbul edən baş prokuror qeyd edib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq prokurorluq orqanları tərəfindən beynəlxalq tərəfdaşlarla əməkdaşlıq əlaqələrinin gücləndirilməsi xüsusi diqqətdə saxlanılır.

Bu kontekstdə assosiasiya ilə ölkəmizin prokurorluq orqanları arasında uzunmüddətli, geniş və faydalı əməkdaşlıq əlaqələri formalaşıb. Təsis edildiyi gündən Azərbaycan Respublikası Prokurorluğu qurumun fəaliyyətinə mühüm töhfələr verib. Azərbaycan 2002, 2018 və 2024-cü illərdə qurumun İcraiyyə Komitəsinin iclaslarına, 2024-cü ildə, həmçinin İllik iclas və ümumi qığıncağına evsahibliyi edib.

Görüş zamanı qlobal miqyasda cinayətkarlıqla mübarizədə müxtəlif hüquq sistemlərinin prokurorlarının səylərinin birləşdirilməsində assosiasiyanın mühüm rol oynaması qeyd edilərək, qonaqlara son dövrlərdə milli prokurorluq orqanlarında həyata keçirilmiş islahatlar, tətbiq edilən yeni hüquq institutları və yanaşmalar barədə məlumat verilib. Səmimi qəbula görə minnətdarlıq ifadə edən qonaqlar Azərbaycan Prokurorluğunun qurumun fəaliyyətində aktiv roluna və verdiyi töhfələrinə görə təşəkkürünü bildirmiş, uzun illərdir davam edən sıx və uğurlu əməkdaşlıqdan məmnuniyyət ifadə edilib.

Qonaqlar həmçinin Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub, onlara prokurorluğun fəaliyyəti ilə bağlı eksponatlar barədə ətraflı məlumat verilib.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

*"Azərbaycan"*

# 31-ci "Bakı Enerji Forumu" başa çatıb

31-ci "Bakı Enerji Həftəsi" çərçivəsində aparıcı və strateji enerji dialoqu məkanı hesab olunan "Bakı Enerji Forumu" öz işini tamamlayıb.




AZƏRTAC xəbər verir ki, forumun ikinci günündə "Liderlərin çıxışları: Enerji transformasiyası və gələcək strategiyaları mövzusunda liderlərin mövqeyi", potensialın artırılmasına dair sessiyalar, "Enerji səmərəliliyi və ESCO investisiya platforması: Qlobal ESCO təcrübəsinin Azərbaycanın iri enerji istehlakçıları ilə əlaqələndirilməsi", "Qaz sessiyası - bazarlar, nəqliyyat marşrutları və geopolitika", "Enerji körpüləri: "Yaşıl enerji"dən regional inteqrasiyaya" mövzuları müzakirə olunub.

Əsas məruzəçi qismində çıxış edən SOCAR-ın prezidenti Rövşən Nəcəf bildirib ki, Azərbaycan təbii qazı regionun ən etibarlı enerji mənbələrindən biri hesab edilir.

"Bizim əsas prioritetimiz region üzrə müştərilərimizi dayanıqlı və etibarlı şəkildə enerji ilə təmin etmək, eyni zamanda regional enerji təhlükəsizliyinə töhfə verməkdir. Bu, şirkət olaraq fəaliyyətimizin əsas fəlsəfəsidir, dəyişməyib və gələcəkdə də dəyişməyəcək. Əsas məsələ ondan ibarətdir ki, biz bu təchizatlara daha çox necə töhfə verə və regionun enerji təhlükəsizliyini daha da gücləndirə bilərik. Ötən illə müqayisədə bu il təchizat coğrafiyamız haqqında danışarkən artıq təkcə Avropa, Gürcüstan və Türkiyəni nəzərdə tutmuruq. Bu siyahıya Suriya da əlavə olunub. Bu isə o deməkdir ki, Azərbaycan artıq Suriya bazarına da qaz tədarük edir", - deyə o qeyd edib.

SOCAR-ın prezidenti bildirib ki, hazırkı şəraitdə tərəfdaşlarımız daha çox qaz həcmlərinə ehtiyac duyurlar, lakin bu təchizatın dayanıqlı və etibarlı şəkildə həyata keçirilməsi də eyni dərəcədə vacibdir. Mövcud şəraitdə Azərbaycan qazı regionun ən etibarlı enerji mənbələrindən biri hesab olunur. İndi bizim və tərəfdaşlarımızın qarşısında duran vəzifə istehsal planlarının nəzərdə tutulmuş proqramlara uyğun şəkildə irəliləməsini təmin etməkdir. Bu, regiondakı tərəfdaşlarımıza daha çox qaz həcmlərinin çatdırılmasına imkan verəcək.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli çıxışında bildirib ki, BP Azərbaycanda enerji ehtiyatlarının işlənilməsi və hasilatın artırılması məqsədilə investisiyalarını davam etdirir.

Cio Kristofoli qeyd edib ki, BP tam elektrikləşdiriləcək yeni qurğunun yaradılmasına 2,9 milyard dollar investisiya yatırır.

"Regionda bu səviyyədə mürəkkəbliyə malik ilk layihələrdən biridir. Mürəkkəb geoloji şəraitdə hasilatın təhlükəsiz və səmərəli həyata keçirilməsi üçün yeni texnologiyalar tətbiq olunur. Texnologiya, investisiya və peşəkar insan resurslarının birləşdirilməsi enerji layihələrinin uğurunun əsas şərtlərindəndir",- deyə o qeyd edib.

"GL Group"un baş icraçı direktoru və Məşvərət Şurasının sədri Asif Zeynalov diqqətə çatdırıb ki, Xəzər regionu olduqca perspektivli bir enerji məkanıdır: "Xüsusilə Azərbaycan dünya səviyyəli enerji aktivlərinə malik olmağa davam edir".

Asif Zeynalov qeyd edib ki, burada həm ənənəvi, həm qeyri-ənənəvi ehtiyatlar, həm neft, həm qaz, həm də yetkin və kəşfiyyat mərhələsində olan yataqlar mövcuddur. Hələ də qiymətləndirilməmiş çoxsaylı imkanlar qalır. Ölkənin Orta dəhlizin mərkəzində yerləşməsi logistika və təchizat zəncirləri baxımından mühüm üstünlüklər yaradır. Azərbaycan sabitliyi ilə özünü sübut etmiş bir ölkədir, bu amil investorlar və operatorlar üçün xüsusi cəlbedicilik yaradır. Digər mühüm üstünlük isə mövcud infrastrukturun inkişaf etmiş olmasıdır. Boru kəmərləri sistemi artıq fəaliyyət göstərir və yeni investorlar böyük həcmdə ilkin kapital yatırmadan bu imkanlardan yararlana bilirlər.

"Hesab edirik ki, xüsusilə yetkin yataqlarda hələ də böyük potensial mövcuddur. Müasir texnologiyaların tətbiqi, əməliyyat intizamının gücləndirilməsi, kapitalın səmərəli idarə olunması və təşkilati imkanların inkişaf etdirilməsi sayəsində bu potensialı reallaşdırmaq mümkündür. Bu gün Azərbaycana böyük optimizmlə baxırıq. İnanırıq ki, peşəkar idarəetmə və daha sıx əməkdaşlıq vasitəsilə enerji sektorunun növbəti inkişaf mərhələsinə keçmək və əlavə dəyər yaratmaq mümkündür. Mənə görə, əməkdaşlıq gələcək uğurun əsas açarlarından biridir və bu istiqamətdə görüləcək işlər hələ çoxdur", - deyə baş icraçı direktor əlavə edib.

INPEX-in Avropa və Yaxın Şərq layihələri üzrə icraçı direktoru və baş vitse-prezidenti Munehiro Hosono öz növbəsində bildirib ki, Azərbaycanla tərəfdaşlıq INPEX-in uzunmüddətli enerji strategiyasında mühüm yer tutur.

Onun sözlərinə görə, şirkət fəaliyyətində texnologiyaların tətbiqinə, yerli həllərin inkişafına və enerji sahəsində yeni təşəbbüslərin dəstəklənməsinə xüsusi önəm verir.

"Azərbaycanla tərəfdaşlığımız vasitəsilə həm enerji keçidinə töhfə verməyə, həm də uzunmüddətli dayanıqlı nəticələr əldə etməyə çalışırıq. Uzunmüddətli uğurun əsas şərtlərindən biri etibarlı tərəfdaşlıqların qurulmasıdır. Enerji keçidinin təşviqi və dayanıqlı inkişaf məqsədlərinə nail olunması üçün tərəfdaşlar arasında dialoqun davam etdirilməsi və birgə fəaliyyətin genişləndirilməsi vacibdir",- deyə Munehiro Hosono bildirib.

SLB-nin coğrafiyalar üzrə icraçı vitse-prezidenti Steve Gassen qeyd edib ki, SOCAR ilə əməkdaşlıq çərçivəsində rəqəmsal texnologiyaların tətbiqi enerji layihələrinin səmərəliliyinin artırılmasına imkan yaradır.

O bildirib ki, enerji sektorunda ən son rəqəmsal texnologiyaların tətbiqi yataqların daha səmərəli işlənilməsinə və hasilat proseslərinin optimallaşdırılmasına mühüm töhfə verir.

"SLB SOCAR ilə əməkdaşlıq çərçivəsində müxtəlif inkişaf layihələrini dəstəkləyir və bu istiqamətdə innovativ həllərin tətbiqinə xüsusi önəm verir. Tarixən tam işlənilməmiş yataqların inkişafında rəqəmsal texnologiyalar mühüm rol oynayır. Layihələrin yekun investisiya qərarına doğru irəliləməsi ilə yeni imkanlar yaranacaq",- deyə o bildirib.

"Boston Consulting Group"un (BCG) idarəedici direktoru və baş tərəfdaşı Pattabi Seşadri çıxışında bildirib ki, süni intellekt texnologiyaları enerji sektorunda səmərəliliyin artırılması və proseslərin təkmilləşdirilməsi üçün yeni imkanlar yaradır.

O bildirib ki, enerji sənayesi uzun illərdir qabaqcıl texnologiyalardan və yüksək hesablama imkanlarından istifadə edən sahələrdən biridir.

"Bununla yanaşı, süni intellektin inkişafı sektorda yeni transformasiya mərhələsinin başlanmasına şərait yaradır. Süni intellekt müxtəlif istiqamətlərdə tətbiq oluna bilər və xüsusilə proqnozlaşdırma, qərar qəbuletmə və əməliyyat proseslərinin optimallaşdırılmasında mühüm rol oynayır. Bu texnologiyaların tətbiqi enerji sektorunda innovasiyaların sürətlənməsinə və yeni inkişaf imkanlarının yaranmasına töhfə verəcək",- deyə o diqqətə çatdırıb.

Energetika nazirinin müavini Elnur Soltanov "Enerji səmərəliliyi və ESCO investisiya platforması: Qlobal ESCO təcrübəsinin Azərbaycanın iri enerji istehlakçıları ilə əlaqələndirilməsi" adlı sessiyada çıxışı zamanı bildirib ki, Azərbaycanda enerji səmərəliliyi tədbirlərinin genişləndirilməsi üçün dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi vacibdir.

O bildirib ki, enerji səmərəliliyi ilə bağlı proseslərin sürətləndirilməsi üçün dövlət korporasiyaları, özəl şirkətlər və digər qurumların fəal iştirakı mühüm əhəmiyyət daşıyır.

"Bu istiqamətdə aparılan müzakirələr və təcrübə mübadiləsi sənaye üzrə yeni yanaşmaların formalaşmasına kömək edə bilər. Əsas məqsəd enerji səmərəliliyi tədbirlərinin praktik tətbiqini genişləndirmək və əldə olunan nəticələri müxtəlif sektorlar üzrə paylaşmaqdır",- deyə o bildirib.

Elnur Soltanov əlavə edib ki, enerji keçidi prosesinin uğuru bütün maraqlı tərəflərin birgə fəaliyyəti və davamlı əməkdaşlığından asılıdır.

"ESCON Enerji A.Ş."nin baş icraçı direktoru və EYODER-in rəhbəri Onur Ünlü bildirib ki, Türkiyədə enerji səmərəliliyi sahəsində həyata keçirilən layihələrə yatırılan investisiyaların həcminin artırılması hədəflənir.

O bildirib ki, enerji səmərəliliyi Türkiyə üçün strateji əhəmiyyət daşıyır və bu istiqamətdə islahatlara 2000-ci illərin əvvəllərindən başlanılıb. Onun sözlərinə görə, 2007-ci ildə qəbul edilən Enerji Səmərəliliyi Qanunu bu sahədə fəaliyyətin genişlənməsinə və müəssisələrdə enerji idarəetmə mexanizmlərinin formalaşmasına təkan verib.

Onur Ünlü qeyd edib ki, hazırda Türkiyə bazarında Energetika Nazirliyi ilə əməkdaşlıq edən onlarca enerji səmərəliliyi xidmətləri göstərən şirkət fəaliyyət göstərir.

"Bu şirkətlər sənaye müəssisələrində enerji istifadəsinin optimallaşdırılması və səmərəliliyin artırılması istiqamətində mühüm rol oynayır. Hazırda enerji səmərəliliyi tətbiqlərinə təxminən 2 milyard dollar investisiya yatırılıb və qarşıdakı dövrdə bu göstəricinin əhəmiyyətli dərəcədə artırılması planlaşdırılır",- deyə o əlavə edib.

SOCAR-ın vitse-prezidenti Babək Hüseynov "Upstream - yeni perspektivlər" adlı sessiyada çıxışı zamanı diqqətə çatdırıb ki, "Azəri-Çıraq-Günəşli" (AÇG) artıq sadəcə neft layihəsi deyil, çoxşaxəli enerji platformasıdır.

"Kəşfiyyat fəaliyyətləri vacibdir və hasil olunan ehtiyatların əvəzlənməsi üçün zəruridir. Lakin sənayedə baş verən əsas dəyişiklik mövcud aktivlərdən maksimum səmərə əldə etmək istiqamətindədir. Bunun ən yaxşı nümunələrindən biri "Azəri-Çıraq-Günəşli" layihəsidir. Təkcə dünən AÇG-də qaz layihəsinin uğurla həyata keçirilməsini qeyd etdik. Maraqlıdır ki, AÇG son 30 il ərzində dünyanın ən böyük neft yataqlarından biri kimi tanınıb. Lakin artıq ona yalnız neft yatağı kimi baxmaq düzgün olmazdı. Bu gün AÇG-ni neft və qaz istehsalını özündə birləşdirən strateji enerji infrastrukturu kimi qiymətləndiririk", - deyə o qeyd edib.

Babək Hüseynov bildirib ki, AÇG kimi yetkin yataqlarda belə, bütün mövcud texnologiyaların artıq tətbiq olunduğunu düşünmək düzgün olmazdı: "Əksinə, hələ böyük potensial mövcuddur. SOCAR olaraq region operatorlarına ünvanladığımız əsas çağırışlardan biri üfüqi və çoxşaxəli quyuların daha geniş tətbiqi idi. Operator tərəfdaşlarımız bu çağırışı qəbul etdilər və ötən il hər iki texnologiya AÇG-də uğurla tətbiq olundu. Artıq AÇG-də üfüqi quyular qazılır və yataq tarixində ilk dəfə çoxşaxəli quyu texnologiyası tətbiq edilib. Bu texnologiyaların əhəmiyyətini nəzərə alsaq, onların yatağın gələcək inkişafı üçün yeni imkanlar açdığı aydın görünür. Daha əvvəl əlçatmaz hesab edilən ehtiyatlara çıxış əldə edilir, hasilat səmərəliliyi artır və yatağın inkişafı üçün tamamilə yeni perspektivlər formalaşır. Bu texnologiyalar AÇG kimi nəhəng yataqların növbəti inkişaf mərhələsinə keçidində mühüm rol oynayacaq".

"SOCAR Upstream Management International LLC" şirkətinin icraçı direktorunun müşaviri Ayaz Əmirov bildirib ki, yeni texnologiyalar və süni intellektdən istifadə müasir zamanın çağırışıdır və buna hazır olmaq lazımdır. Yeni texnologiyaların geniş sahələrdə tətbiqi üçün ilk növbədə data mərkəzlərin yaradılması lazımdır.

"TotalEnergies" şirkətinin Azərbaycan üzrə rəhbəri Emmanuel de Guillebon öz çıxışında bildirib ki, "Abşeron" qaz-kondensat yatağında 3 yeni quyu qazılacaq: "Abşeron" qaz-kondensat yatağının tammiqyaslı işlənməsinin növbəti mərhələsi icra olunur. Üç il əvvəl biz layihənin birinci mərhələsini - erkən hasilat mərhələsini işə saldıq. Bu mərhələnin əsas məqsədi hasilata başlamaq, yatağın davranışını müşahidə etmək və əldə olunan məlumatlar əsasında gələcək inkişaf planlarını formalaşdırmaq idi. Bu gün artıq əminliklə deyə bilərik ki, yatağın davranışı gözləntilərimizə tam uyğun olub".

# Ermənistan vətəndaşlarının Apellyasiya Məhkəməsində vəsatətlərə baxılıb






İyunun 2-də Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı başlayıb.

AZƏRTAC xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Təqsirləndirilən şəxslər tərcüməçilərə, məhkəmə kollegiyasına, müdafiəçilərə, dövlət ittihamını müdafiə edən prokurorlara, həmçinin nümayəndələrə etiraz etmədiklərini bildiriblər.

Təqsirləndirilən şəxslərə cinayət-prosessual qanunvericilikdə müəyyən edilən tutulmuş hüquq və vəzifələri təkrarən izah olunub. David Babayan özü tərəfindən, digər təqsirləndirilən şəxslər isə müdafiəçiləri tərəfindən verilən apellyasiya şikayətlərini müdafiə etdiklərini deyiblər.

Sədrlik edən şikayətlər üzrə təqsirləndirilən şəxslərin mövqelərini öyrəndikdən sonra qaldırılan vəsatətlərin qanunvericiliyin tələblərinə uyğun olaraq növbəti mərhələdə müzakirə ediləcəyini bildirib.

Təqsirləndirilən şəxslər apellyasiya şikayəti üzrə bəzi dəqiqləşdirmələrin aparılması, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatından nümayəndənin məhkəmə iclasında iştirak etməsi, şahidlərin dindirilməsi və digər məsələlər barədə müvafiq vəsatətlər veriblər.

Dövlət ittihamını müdafiə edən prokuror Sevinc Qasımova vəsatətlərə münasibət bildirərək qeyd edib ki, Ombudsman Aparatının nümayəndəsi hazırkı məhkəmə prosesində proses tərəfi deyil. Həmin qurumun nümayəndəsi ictimai əsaslarla açıq məhkəmə iclasında iştirak edə bilər. Qanunvericiliyə əsasən ombudsman və ya Ombudsman Aparatının nümayəndələri cəzaçəkmə müəssisəsində saxlanılan şəxslərin saxlanılma şəraiti, eyni zamanda digər hallarla bağlı yerində tanış ola və preventiv tədbirlər görə bilərlər.

Həmçinin qeyd olunub ki, ibtidai istintaq və məhkəmə baxışı zamanı kifayət qədər şahid dindirilib və onlar əvvəlki ifadələrini yenidən təsdiqləyiblər. Qanunvericiliyə əsasən, birinci instansiyada təqdim edilməmiş yeni sübutların apellyasiya mərhələsində qəbul olunması üçün əvvəllər təqdim edilə bilməmə səbəblərinin əsaslandırılmalı olduğu xatırladılıb.

Qeyd olunub ki, yeni şahidlərin dindirilməsi barədə vəsatət verilərkən həmin şəxslərin konkret anket məlumatları təqdim edilməli olduğu halda, müdafiə tərəfi bu məlumatları göstərə bilməyib.

Bundan başqa, ittiham tərəfi vurğulayıb ki, sübutların lüzumsuz toplanılması məhkəmə prosesinin uzadılmasına və süründürməçiliyə gətirib çıxarmamalıdır.

Bu səbəblərdən dövlət ittihamını müdafiə edən prokuror prosesin lüzumsuz yerə uzanmaması üçün verilən vəsatətlərin təmin olunmamasını məhkəmədən xahiş edib.

Zərərçəkmiş şəxslərin nümayəndələri də dövlət ittihamını müdafiə edən prokurorun mövqeyi ilə razı olduqlarını bildiriblər.

Məhkəmə iclasında həmçinin vurğulanıb ki, vəsatətlərdən biri də iclas protokolları və iş materialları ilə elektron qaydada tanış olmaqla bağlı idi. Burada heç bir məhdudiyyət yoxdur və istənilən proses iştirakçısı müraciət edərək sənədlərlə tanış ola bilər.

Daha sonra məhkəmə kollegiyası müşavirəyə gedib. Müşavirədən sonra qəbul edilmiş qərarlar elan olunub və müdafiə tərəfinin vəsatətlərinin qismən təmin edildiyi bildirilib.

Apellyasiya baxışı iyunun 9-da davam etdiriləcək.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 5 fevral 2026-cı il tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.

# Bizi hədələyən özlərindən xəbərsizlər



Güclülər də hədə-qorxu gələ bilirlər, zəiflər və qorxaqlar da!

Fərq burasındadır ki, güclü özünə arxayın olaraq asıb-kəsir, zəif isə özgəsinə!

Amma nəticə vuruşanda, döyüş meydanında bəlli olur!

**Başqasına "xox" gəlməyin digər bir məqsədi də var:**

**Özünü güclü göstərmək!**

Başqalarının gözündə özünü ucaltmağa çalışmaq!

*Öz adı ilə desək, gözə kül üfürmək!*

Ancaq bu, birinci dəfədə, bir dəfə baş tuta bilər!

**Uduzmuşun və məğlub olmuşun hapa-gopa basması isə yalnız ironik təbəssüm doğurar!**

*İstər adi adam olsun, istər hərbçi, istərsə də nə vaxtsa prezident işləmiş birisi...*

*Fərq eləməz!*

**Döyüş meydanında basılaraq döyülənin, qol-qabırğası qırılanın, yalvararaq aman diləyənin sonradan ağız-burnunun qanını silərək xoruzlanması təkcə təbəssüm yox, həm də ikrah yaradır!**

*Bəli, söhbət bir zamanlar Ermənistana başçılıq edənlərin, müharibədə məğlub edilərək kapitulyasiya aktına məcburən qol çəkdirilənlərin indi revanşizmdən dəm vurmalarından, təzədən xoruzlanmalarından gedir!*

Xoruzların xoruzlanması təbiidir...

Amma gərək iki məqamı unutmayasan:

*Birinci,* lap yaxın keçmişdə baş verənləri...

*İkinci,* "dəmir yumruğ"un mövcudluğunu!

**Çünki davanın nəticəsini söz yox, yumruq həll edir!**

❖ ❖ ❖

*Erməni cəsarətinin arxasında həmişə rus amili dayanıb.*

Çünki erməniləri Cənubi Qafqaza gətirən də, onları Azərbaycan torpaqlarında yerləşdirən də, Ermənistan adında dövlət yaradan da, bu dövləti bizdən qoparılan ərazilər hesabına daim genişləndirən də, İrəvanı bizdən alıb yeni erməni dövlətinə paytaxt edən də, ən nəhayət, Ermənistanı daim silahlandıraraq üstümüzə qısqırdan da məhz Rusiya olub.

**Çar Rusiyasının başladığı işi sovet Rusiyası mövcudluğu dövründə dayanmadan davam etdirib.**

Bir tərəfdən dədə-baba torpaqlarında yaşayan azərbaycanlıları müxtəlif adlarla deportasiya edib, digər tərəfdən heç bir əsas və ehtiyac olmadan Azərbaycan ərazisində muxtar qurum yaradaraq orada ermənilərin sayını daim artırmağa çalışıb.

NİYYƏT:

- Əlaltı dövlət yaratmaqla onun ərazisində Türkiyəyə qarşı hərbi bazalar yerləşdirmək;
- Türk dövlətlərinin quru yolla əlaqələrini kəsmək və onları bir-birindən ayrı salmaq;
- Azərbaycana qarşı daimi təzyiq vasitəsi yaratmaqla onun yeraltı və yerüstü sərvətlərini mənimsəmək olub!

*Tarixin ən sərt dönüşlərində - ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti yarananda və Azərbaycan xalqı ikinci dəfə dövlət müstəqilliyinə nail olanda isə yenidən erməniləri maliyyələşdirərək və silahlandıraraq Qarabağ münaqişəsini körükləyib, xalqımıza ərazi və insan itkisi yaşadıb.*

Əgər Rusiya və rus ordusu, rus silahı olmasaydı, Azərbaycandan hər sahədə - əhali sayına, iqtisadi imkanlara, strateji mövqelərə görə qat-qat geridə qalan Ermənistan bizdən torpaq qopara bilərdimi?!

Heç zaman!

Bunu II Qarabağ müharibəsi də açıq şəkildə göstərdi:

**Hərbi əməliyyatlar Azərbaycan ərazisində getdiyinə görə Rusiya aşkar olaraq - KTMT qismində müdaxilə edə bilmədiyindən Azərbaycan öz gücü ilə otuzillik işğala 44 gündə son qoydu!**

Hətta Rusiya sülhməramlıları açıq şəkildə erməni terrorçularına dəstək versələr də!

❖ ❖ ❖

**Hayların ikinci "silahı" "erməni soyqırımı" mifi və onun əsasında dünya miqyasında gördükləri işlərdir.**

Ermənilərin heç zaman özlərinin əraziləri, vətənləri, dövlətləri olmayıb.

Olsaydı, öz vətənlərində "soyqırım"larına uğrayardılar.

Qaraçı kimi bütün dünyaya səpələnmiş, müxtəlif dövlətlərin ərazisində kompakt halında yaşamış, varlanmış və sonra harınlayaraq həmin dövlətlərə ən çətin günlərdə xəyanət etmişlər.

Qardaş Türkiyə dediklərimizə misaldır!

**Türkiyə ərazisində rahat yaşayaraq şellənən haylar müharibə başlayan kimi fitnəyə uyaraq türklərə arxadan bıçaq sapladılar, xəyanət əməlləri törətdilər.**

*Türk dövləti də öz təhlükəsizliyini təmin etmək üçün onları həmin ərazilərdən kütləvi şəkildə köçürdü.*

*Ermənilər isə bunun adını "soyqırımı" qoydular!*

Amma ortada "soyqırımı"nı təsdiq edən bir sənəd, tarixi fakt yoxdur!

Türkiyə öz arxivlərini açaraq ermənilərdən də bunu, birgə araşdırmaları tələb edir.

**Arxivlərdə "soyqırımı"na dəlalət edən heç bir sənədin olmadığını yaxşı bilən haylar açıq araşdırmalardan daim boyun qaçırırlar.**

Dünya erməniliyi isə bu əfsanə üzərində "biznes" qurub.

*Bir çox dövlətdə yaradılan erməni diasporları müntəzəm şəkildə "soyqırımını tanıtmaq" adı ilə pul toplayırlar.*

**Həmin pullardan diaspor liderləri və Ermənistanın rəhbərləri bəhrələnməklə yanaşı, müxtəlif ölkələrin siyasi xadimlərinin, parlament üzvlərinin satın alınmasında, erməni diasporuna sərf edən qərar, qətnamə və digər saxta sənədlərin qəbul olunmasında istifadə edilir.**

**Digər tərəfdən isə haylar özlərini daim "məzlum", "fağır", "zavallı", "soyqırımına uğramış xalq" kimi təqdim etməklə yırtıcı simalarını bu pərdə altında gizlədirlər.**

**Bunu Xocalıda, Qaradağlıda, Ballıcada, Başlıbeldə törətdikləri soyqırımları da təsdiq edir.**

Otuzillik işğal dövründə Qarabağda erməni vandallığı və vəhşiliklərinə isə bütün dünya şahid oldu.

*"Məzlum" maskası cırılanda altındakı yırtıcı xislət və əməllər üzə çıxdı.*

❖ ❖ ❖

**İkinci Qarabağ müharibəsində Ermənistana heç kim və heç nə kömək edə bilmədi!**

*"Məğlubedilməz xalq", "məğlubedilməz ordu" 44 gün ərzində yerlə yeksan edilərək biabırçı məğlubiyyətə uğradıldı!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğ"u ilə düşməni diz çökdürdü, ona kapitulyasiya aktını imzalatdırdı, Ağdam, Laçın və Kəlbəcər rayonlarını bir güllə atılmadan geri qaytardı, işğal altındakı torpaqlara azadlıq gətirdi!**

*Məğlubiyyətlə barışmaq istəməyən ermənilər müdafiəçilərinə arxalanaraq xam xəyallara düşdülər, üçtərəfli Bəyanatın bəzən mühüm bəndlərini yerinə yetirmək istəmədilər.*

"Dəmir yumruq" yenidən işə düşdü!

**Unikal əməliyyat keçirilərək Həkəri çayı üzərindəki post alındı, beləliklə, şər yoluna çevrilən Laçın qapısı əbədilik qapandı!**

*Daha sonra cəmi 23 saat çəkən antiterror tədbirləri nəticəsində Azərbaycanın dövlət suverenliyi və konstitusiya əsasları bərpa olundu!*

**Azərbaycan hərb meydanında qazandığı zəfəri diplomatiya və siyasət sahəsində atdığı qətiyyətli addımlarla davam etdirdi:**

- Qalib tərəf olsa da, özü sülh şərtlərini hazırlayaraq sülh təşəbbüsünü irəli sürdü;
- Vasitəçilərdən imtina edərək ikitərəfli danışıqlara üstünlük verdi;
- İşğalda qalmış bir neçə kəndi dinc yolla geriyə qaytararaq delimitasiya və demarkasiya prosesinə başladı;
- 8 avqust 2025-ci ildə ABŞ Prezidenti D.Trampın iştirakı ilə Vaşinqtonda keçirilən ikitərəfli görüşdə Azərbaycanla Ermənistan arasında sülh sazişinin layihəsi paraflandı.
- TRIPP marşrutunun (Zəngəzur dəhlizinin) açılması barədə razılıq əldə olundu;
- Qarabağ münaqişəsinin həllində buxova çevrilən ATƏT-in Minsk qrupu tarixin arxivinə verildi;
- N.Paşinyan Ermənistan Konstitusiyasında tələb olunan dəyişikliyin referendum yolu ilə aradan qaldırılacağı barədə öz üzərinə öhdəlik götürdü.

**Bütün bunlar Ermənistanın və onun havadarlarının ürəyincə olmasa da, cənab İlham Əliyev məcburən etdirdi!**

Separatizmdən əziyyət çəkən dünyanın bir sıra siyasi liderlərinə həm də siyasət və diplomatiya dərsləri verdi.

❖ ❖ ❖

*"Qarabağ Ermənistandır və nöqtə" deyən Paşinyan bu gün sülh uğrunda ən fəal şəkildə çalışanlardan biridir!*

- Çünki "dəmir yumruğ"un qüdrətini gördü!
- Çünki təkcə hərb meydanında deyil, siyasət, diplomatiya və informasiya cəbhəsində də yerlə yeksan edildi!
- Çünki başa düşdü ki, mifik "böyük Ermənistan" uğrunda sərsəm mübarizələrindən əl çəkməsələr, real Ermənistanı da itirəcəklər.
- Çünki əyani şəkildə anladı ki, özündən güclü dövlətlərə qarşı ərazi iddiaları irəli sürməsi səfehlikdir.
- Çünki gördü ki, elə hayların özü üçün də blokadadan çıxaraq əməkdaşlığa başlamaq daha faydalıdır.

**Ancaq hələ də Ermənistanda ağıllanmayan siyasətçilər və vəzifələrini, çirkli pul qazanmaq imkanlarını itirmiş sərsəm düşüncə sahibləri var.**

*Onlar revanşizmdən dəm vurur, qisasçılıq niyyəti ilə seçkilərə qoşulur, Paşinyanı xəyanətdə ittiham edərək erməni xalqının gözünə kül üfürürlər.*

**Ordularının darmadağın edildiyini, özlərinin biabırçı şəkildə məğlubiyyətə uğradıldıqlarını, havadarlarının belə heç bir kömək göstərə bilmədiyini unudanlar, özlərindən xəbərsizlər hərdən hədlərini aşaraq bizi hədələyirlər də.**

*"Axmaq baş sahibinə qapaz yedizdirər" demişlər!*

*Deyəsən, "dəmir yumruğ"un "dəmir qapazları"nı unudanlar var!*

2020-ci ilin 8 noyabrından elə də çox vaxt keçməyib!

**Azərbaycan əsgərinin Şuşanı yalın əllə, yalnız əsgər xəncəri və lopatkası ilə aldığını haylar heç zaman yaddan çıxarmasınlar!**

**Çünki yaddaşsızlıq insanın başına yeni bəlalar gətirir.**

*Erməni xalqı isə özü varlanaraq erməni gənclərini qurbana çevirən, "miatsum" ideyası ilə otuz ildə xalqa məşəqqətlər yaşadan, sonda hər şeydən məhrum edən başabəla liderlərinin, sabiq prezidentlərinin əməllərini unutmamalıdır.*

Seçkiyə gedənlər səsvermə qutusuna yaxınlaşanda geriyə boylansınlar, eşitdiklərinə yox, gördüklərinə inansınlar, başlarına gələnlərdən bu dəfə doğru və ağıllı nəticə çıxarsınlar!

❖ ❖ ❖

*Ermənistanın hazırkı rəhbəri də bir zamanlar hakimiyyətə təzə gələndə lovğalıqla "Qarabağ Ermənistandır və nöqtə" deyərək artıq məsələnin tamamilə həll olunduğunu güman edirdi.*

Elə bilirdi ki, aldıqları torpaqlar daha əbədilik onlarındır.

**Lakin Azərbaycan Prezidenti cənab İlham Əliyev onun cavabını verdi!**

**Əvvəlcə sözlə!**

Beynəlxalq konfransların tribunasından açıq şəkildə bəyan etdi:

**"Qarabağ Azərbaycandır və nida işarəsi".**

*Sonra Paşinyanla debatda Qarabağın kimlər tərəfindən, nə vaxt və necə yaradıldığını tarixi faktlarla söylədi!*

**Ən nəhayət, müharibədə, döyüş meydanında kimin kim olduğunu əyani şəkildə sübuta yetirdi!**

*Nəticədə Paşinyan hər şeyi dərindən və olduğu kimi başa düşdü.*

- Başa düşdü ki, Qarabağ əzəli və əbədi Azərbaycan torpağıdır!
- Başa düşdü ki, artıq kimlərəsə güvənməyin vaxtı keçib!
- Başa düşdü ki, Azərbaycan Ermənistandan dəfələrlə və bütün parametrlər üzrə güclüdür!
- Başa düşdü ki, Azərbaycana hərb meydanında qalib gəlmələri daha mümkün deyil!

**Ən əsası, başa düşdü ki, əgər mifik "böyük Ermənistan"ın xəyalını etsələr, real Ermənistanı da itirə bilərlər!**

*Odur ki, tamamilə ağıllandı, illüziyalardan tam uzaqlaşdı.*

- Bu gün Paşinyan Azərbaycanın sülh şərtlərini, ABŞ-də D.Trampın iştirakı ilə paraflanmış sülh sazişini qəbul və icra edir.

Odur ki, Paşinyan Ermənistanı otuz ildən çox davam edən blokadadan çıxarır.

- Bu gün Paşinyan Azərbaycandan benzin, yanacaq alır.
- Bu gün Rusiyadan və Ukraynadan Ermənistana göndərilən taxıl və digər mallar Azərbaycan ərazisindən daşınır.

**Paşinyan həm də Trampın adını daşıyan və Orta dəhlizin əsas elementlərindən biri sayılan Zəngəzur dəhlizinin (TRIPP) işə salınmasına çalışır.**

*Paşinyan həm də Yerablurun genişlənməsini istəmir.*

**Əgər 7 iyun seçkilərində Paşinyan deyil, özgə birisi qalib gəlsə, hər şey təzədən başlaya bilər.**

MƏSƏLƏN:

- Ermənistan yenidən blokadaya salınar;
- Əhali yenidən yoxsullaşaraq ölkəni tərk edər;
- Revanşistlər hakimiyyətə gələcəkləri halda yenidən xalqı soyaraq çox varlanarlar;
- Yenidən müharibəyə başlasalar, Yerablur qat-qat genişlənər;
- Erməni anaları oğulsuz, gözü yaşlı qalar;
- Ən nəhayət, real Ermənistan dövləti də yox ola bilər!

**Seçim erməni xalqınındır...**

*Bir neçə dəfə səhv edərək, ter-petrosyanlara, koçaryanlara, sarkisyanlara, ohanyanlara etibar edərək başı daşdan-daşa dəyən erməni xalqının.*

**"Dəmir yumruq" hazır vəziyyətdədir!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev isə daim dediklərinə bütün dəqiqliyi ilə əməl edəndir!**

Kiməsə, nəyəsə arxayın olmağın zamanı keçib.

Bir dəfə batdığınız palçığa yenidən girməkdən çəkinin.

Nağıllara inananların aqibəti heç də yaxşı olmur.

**Bəxtiyar SADIQOV**




# Milli həmrəylikdən böyük Zəfərə

2016-cı il 3-4 iyun tarixi dünya azərbaycanlıları üçün əlamətdardır. Həmin günlər Dünya Azərbaycanlılarının IV Qurultayı keçirilib. İki gün davam edən qurultaya 49 ölkədən 500-dən çox diaspor nümayəndəsi və qonaq qatılıb.

Xarici ölkələrin Azərbaycana dost münasibəti ilə tanınan nüfuzlu siyasətçiləri, ictimai xadimləri, elm adamları, eləcə də yüksəkvəzifəli şəxsləri və parlament üzvləri də qonaqlar arasında olub. Həmçinin respublikamızın müxtəlif dövlət və hakimiyyət strukturları, qeyri-hökumət təşkilatları, elm, təhsil, mədəniyyət və digər yaradıcı qurumların, siyasi partiyaların təmsilçilərindən ibarət 360 nəfərlik nümayəndə heyətinin qatıldığı qurultayda Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində qarşıda duran vəzifələr, təbliğat işində müasir informasiya texnologiyalarının tətbiqi, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması istiqamətində mövcud olan problemlər, onların həlli yolları və digər prioritet məsələlər diqqət mərkəzində saxlanılıb.

Xatırladaq ki, Dünya Azərbaycanlılarının I Qurultayı 2001-ci il noyabrın 9-10-da Prezident Heydər Əliyevin təşəbbüsü ilə Bakıda keçirilib. Dünya Azərbaycanlılarının II Qurultayı 5 il sonra Prezident İlham Əliyevin 8 fevral 2006-cı il tarixli sərəncamına əsasən, həmin il martın 16-da baş tutub. Xaricdə yaşayan soydaşlarımız III Qurultaya isə 2011-ci il iyulun 5-6-da toplaşıblar.

Dünya Azərbaycanlılarının IV Qurultayının iyunun 3-də Heydər Əliyev Mərkəzində keçirilən rəsmi açılış mərasimində çıxış edən Prezident İlham Əliyev demişdir: "Bildiyiniz kimi, I Qurultay Ulu Öndər, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə keçirilmişdir. O vaxtdan bu günə qədər Azərbaycanda böyük işlər görülmüşdür, Azərbaycan daha da güclənmişdir, bizim imkanlarımız artmışdır". Dövlətimizin başçısı 2001-ci ilin Azərbaycan diaspor təşkilatlarının formalaşdırılması işində çox önəmli il olduğunu, məhz həmin ildə keçirilən I Qurultaydan sonra 2002-ci ildə Heydər Əliyevin sərəncamı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldığını xatırladıb: "Hazırda onun adı Diasporla İş üzrə Dövlət Komitəsidir. Diaspor təşkilatlarının təşkilatlanma, formalaşma prosesi daha da geniş vüsət almışdır". Prezident İlham Əliyev bildirib ki, Azərbaycan diaspor təşkilatları həm kəmiyyət, həm keyfiyyət baxımından böyük yol keçmiş, güclənmişlər. Bu gün dünya miqyasında azərbaycanlılar və onların təmsil etdikləri təşkilatlar önəmli rol oynayırlar.

Dövlətimizin başçısı bir məqamı da vurğulayıb. Qeyd edib ki, diaspor təşkilatlarının fəaliyyəti daim diqqət mərkəzindədir: "İlk növbədə əlbəttə, biz istəyirik ki, dünyada yaşayan azərbaycanlılar öz tarixi vətənləri ilə əlaqələri heç vaxt kəsməsinlər. Daim əlaqədə olsunlar, Azərbaycan ilə bağlı olsunlar. Beləliklə, onlar özlərini daha da rahat hiss edəcəklər. Belə olan halda Azərbaycan dövləti onlara daha da böyük dəstək verə biləcək".

Xatırladaq ki, Dünya Azərbaycanlılarının IV Qurultayı keçiriləndə Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur əraziləri hələ də Ermənistanın işğalı altında idi. Belə bir zamanda yalnız dövlətimizin, Azərbaycan vətəndaşlarının deyil, eyni zamanda dünyanın müxtəlif ölkələrində yaşayan həmyerlilərimizin üzərinə ölkəmizin həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq kimi böyük və məsuliyyətli vəzifə düşürdü. Dövlətimizin başçısı İlham Əliyevin bildirdiyi kimi: "Azərbaycan həqiqətləri haqqında əlbəttə ki, dünya ictimaiyyətinə geniş informasiya verilməlidir. Biz dövlət olaraq bunu etməyə çalışırıq. Ancaq diaspor təşkilatlarından da çox şey asılıdır. Xüsusilə biz bunu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı informasiya təminatında görürük. Müstəqilliyimizin ilk illərində zəif olmağımızdan istifadə edən erməni diasporu uzun illərdir ki, dünyada bizə qarşı çox çirkin kampaniya aparır. Bu kampaniyanın tərkib hissəsi o idi ki, Azərbaycanı qaralasınlar, Azərbaycanı antidemokratik, Ermənistanı isə yazıq, "blokada" şəraitində olan ölkə kimi təqdim etsinlər, Dağlıq Qarabağın tarixi ilə bağlı yalan, uydurma məlumatları sızdırsınlar və onlar buna müəyyən dərəcədə nail ola biliblər".

Diqqəti tarixi faktlara çəkən Prezident əsl həqiqətlər barədə Azərbaycanda kifayət qədər materialların, xəritələrin, kitabların, tarixi sənədlərin olduğunu qeyd etmiş, diaspor təşkilatları qarşısında əhəmiyyətli vəzifələr qoymuşdur: "Bizim alimlərimiz çox böyük işlər görürlər. "İrəvan xanlığı" adlı böyük bir elmi əsər yaradılıbdır. Çünki dünyada bir çoxları bilmir ki, bu, bizim tarixi torpağımızdır. Ancaq biz bunu sənədlər əsasında sübut edirik, xarici dillərə tərcümə edirik". Dövlətimizin başçısı demişdir ki, ona görə bu istiqamət diaspor təşkilatları üçün əsas olmalıdır.

Rəsmi açılışdan sonra qurultay öz işini "Müasir dövrdə informasiya müharibəsi - müdafiədən hücuma: şərtlər, siyasi reallıqlar və yeni fəaliyyət mexanizmləri", "Keçmişin təcrübəsi və müasir düşüncə - Azərbaycan diaspor hərəkatında gənclər: yeni baxış və yeni strategiya", "Lobbi quruculuğu: dəyişən geosiyasi reallıqlar yeni qlobal iqtisadi tendensiyalar kontekstində", "Cəmiyyətə inteqrasiya və siyasi həyatda iştirak" mövzularında panel iclaslarla davam etdirib. Diaspor rəhbərləri iclaslarda müasir dövrdə informasiya müharibəsi, bu sahədə yeni fəaliyyət mexanizmlərinin tətbiqi, Azərbaycan diaspor hərəkatında gənclərlə bağlı yeni strategiyanın hazırlanması, yeni qlobal iqtisadi tendensiyalar fonunda lobbi quruculuğu, cəmiyyətə inteqrasiya, siyasi həyatda iştirak və başqa mühüm mövzularda fikir mübadiləsi aparıb, rəy və təkliflərini irəli sürüblər.

İştirakçılar qurultayın qətnaməsini, qurultay nümayəndələri adından Prezident İlham Əliyevə, dünya azərbaycanlılarına, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin hökumət başçılarına və parlamentlərinə Ermənistanda yerləşən "Metsamor" Atom Elektrik Stansiyasının fəaliyyəti ilə bağlı BMT-nin Beynəlxalq Atom Enerjisi Agentliyinə, Avropa İttifaqına və dünya ictimaiyyətinə müraciətlərini yekdilliklə qəbul ediblər.

Qurultayın yekununda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının yeni tərkibi təsdiqlənib. Qurultay iştirakçıları növbəti dəfə Prezident İlham Əliyevi yekdilliklə Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasına Sədr seçiblər.

Son 10 ildə dünya azərbaycanlılarının həmrəyliyinin daha da möhkəmlənməsi, diaspor təşkilatlarının fəaliyyətinin genişlənməsi və beynəlxalq müstəvidə Azərbaycanın mövqelərinin güclənməsi IV Qurultayda müəyyənləşdirilən strateji hədəflərin uğurla həyata keçirildiyini göstərir. Xüsusilə 2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi Zəfərlə Azərbaycanın ərazi bütövlüyünün bərpası dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın milli maraqlar ətrafında daha sıx birləşməsinə, informasiya və diplomatik mübarizədə fəal iştirakına səbəb oldu.

Bu gün Azərbaycan diasporu qarşısında duran əsas vəzifələrdən biri ölkəmizin qazandığı uğurların, həyata keçirilən quruculuq və bərpa işlərinin, eləcə də regionda formalaşan yeni reallıqların beynəlxalq ictimaiyyətə obyektiv şəkildə çatdırılmasıdır. Dünya Azərbaycanlılarının IV Qurultayında səsləndirilən çağırışlar və müəyyən edilən prioritetlər xaricdə yaşayan soydaşlarımızın Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərimizin təbliği və xalqımızın maraqlarının müdafiəsi istiqamətində fəaliyyətinə bu gün də istiqamət verir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

**I Türkoloji Qurultay - 100**

# TDT-nin təməl tarixi

## 1926-cı il qurultayından türk dünyasının bu gününə ötürülən ruh

Tarix, sadəcə, təqvimlərin dəyişməsi deyil, həm də böyük ideyaların zaman pərdəsini yıxaraq yenidən doğulması prosesidir. Düz bir əsr əvvəl - 1926-cı ildə Bakının tarixi mərkəzində, imperiya təzyiqlərinin və qanlı repressiya rüzgarlarının əsməyə başladığı bir dövrdə türk dünyasının mütəfəkkirləri I Türkoloji Qurultay üçün bir araya gəldilər.



O zaman atılan addımlar, sadəcə, elmi axtarış deyildi, parçalanmış bir coğrafiyanın ruhunu, dilini və əlifbasını qorumaq üçün ucalan cəsarətli bir çağırış idi. Sovet totalitarizmi o dövrdə bu intellektual alovu söndürməyə, qurultay fədailərini zindanlarda məhv etməyə çalışsa da, tarixin yaddaşını silə bilmədi.

Bu gün həmin tarixi hadisədən 100 il keçir və zamanın qırılan zənciri artıq bərpa olunur. 1926-cı ildə Bakıda qoyulan o məfkurə toxumları bu gün Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli siyasi iradəsi və geostrateji baxışı sayəsində qlobal arenada söz sahibi olan Türk Dövlətləri Təşkilatına (TDT) çevrilmişdir. Dünən repressiya qorxusu ilə pıçıldayan türk dünyası bu gün Qarabağ Zəfərinin yaratdığı yeni reallıq fonunda liderinin dili ilə beynəlxalq kürsülərdən gələcəyini diktə edir: "Bizim ailəmiz türk dünyasıdır".

Bu mənada I Türkoloji Qurultaya müasir Türk Dövlətləri Təşkilatının hazırda reallaşdırdığı strateji layihələrin əsas ideoloji bünövrəsi kimi baxmaq lazımdır. Çünki tam bir əsr əvvəl əsası qoyulan ümumtürk idealları bu gün TDT-nin qərarları və konkret əməlləri ilə özünün ən parlaq dövrünü yaşayır.

### Hədəflərdən biri - 34 hərfli ortaq reallıq

I Türkoloji Qurultayın ən böyük tarixi qələbəsi türk xalqlarının ərəb qrafikasından latın əlifbasına keçidini elmi əsaslarla qəbul etməsi idi. Əlifba islahatları məsələsi qurultayda 3 gün müzakirəyə çıxarılmış, uzun və ziddiyyətli mübahisələrdən sonra 1926-cı il martın 4-də səsverməyə qoyulmuşdur. Mövzu ətrafında müəyyən fikir ayrılıqlarına rəğmən, əksəriyyət latın qrafikasına keçidi dəstəkləmiş, bununla da keçmiş ittifaq daxilindəki türk xalqlarının əlifba siyasətinin gələcək istiqaməti müəyyənləşmişdir. Qurultayda yeni əlifbanın fonetik uyğunluğu, maarifçilik funksiyası və ümumtürk yaxınlaşmasına xidmət etməsi əsas arqumentlər kimi irəli sürülmüşdü.

Əlifba ilə yanaşı, imla və orfoqrafiya, terminologiya, tədris metodikası, ədəbi dil, qohum dillərin qarşılıqlı əlaqəsi və türk dillərinin tarixi problemləri də müzakirə olunmuşdur. Qəbul edilən qərarlar türkoloji elmin institusional inkişafına, elmi şəbəkələşmənin güclənməsinə və ortaq tədqiqat gündəliyinin formalaşmasına ciddi töhfə vermişdir.

Sonrakı illərdə qurultayın qərarları əsasında yeni türk əlifbası üzrə komitələr yaradılmış və 1929-cu ildə SSRİ-də ərəb qrafikalı dillərin latın qrafikasına keçidi tam rəsmiləşdirilmişdir. Bu proses müəyyən mərhələlərdə siyasi konyunkturaya tabe olsa da, ümumilikdə əlifba islahatının türk xalqlarının mədəni inkişafında texniki dəyişiklikdən daha artıq məna daşıdığını göstərmişdir. I Türkoloji Qurultay sübut etmişdir ki, əlifba yalnız yazı vasitəsi yox, düşüncə tərzini, elmi ünsiyyəti və cəmiyyətin inkişaf istiqamətini müəyyən edən əsas faktorlardan biridir. Bu mənada mötəbər tədbir elmi hadisə ilə bərabər, həm də türk xalqları arasında gələcək birlik və yaxınlaşmanın intellektual əsaslarını formalaşdıran mühüm mərhələ olmuşdur. O, uzunmüddətli perspektivdə ortaq düşüncə, ortaq dil siyasəti və ortaq elmi baxışların təşəkkülünə ciddi təsir göstərmişdir.

Tədqiqatçıların araşdırmalarında göstərilir ki, qurultayda ilk dəfə olaraq türk dilləri ayrı-ayrı lokal problemlər kimi deyil, bir-biri ilə əlaqəli vahid sistem kimi qiymətləndirilmişdir. Bu müxtəlif türk xalqları arasında yazı fərqlərini azaltmış, elmi və mədəni ünsiyyəti asanlaşdırmışdır. Qurultay həm də türkologiya elminin institusionallaşmasına təkan vermişdir. Bir çox regiondan olan alimlərin Bakıda bir araya gəlməsi elmi şəbəkələşməni gücləndirmiş, ortaq tədqiqat mövzuları və metodoloji yanaşmalar formalaşdırmışdır. Bu proses türk xalqlarının tarixinin, mədəniyyətinin və dilinin paralel şəkildə öyrənilməsinə şərait yaratmışdır. Hazırda TDT məhz elmi bünövrəsini belə bir siyasi müstəvidə tamamlayır.

1926-cı ildə irəli sürülən ortaq imla və vahid əlifba hədəfi sovet repressiyaları ilə yarımçıq qalır. Lakin TDT nəzdində fəaliyyət göstərən Ortaq Əlifba Komissiyası Bakıda keçirilən iclasında 34 hərfdən ibarət Ortaq Türk Əlifbası layihəsi üzərində tam razılıq əldə edir. Bununla da 100 il əvvəl alimlərin başladığı mədəni unifikasiya dövlət başçılarının siyasi iradəsi ilə rəsmi sənədə çevrilir.

### Tarixi yaddaşın bərpası: "Ortaq tarix" və "Ortaq ədəbiyyat"

O zaman qurultayda türk xalqlarının dil, etnoqrafiya və tarix dərsliklərinin vahid sistemə salınması tələbi də irəli sürülmüşdür. İndi TDT bu vəzifəni özünün əsas institutları vasitəsilə icra edir. TDT nəzdində fəaliyyət göstərən Beynəlxalq Türk Akademiyası qurultayın qoyduğu elmi prinsipləri rəhbər tutur. Məktəblər üçün hazırlanan "Ortaq türk tarixi", "Ortaq türk ədəbiyyatı" və "Türk dünyası coğrafiyası" dərslikləri bir əsr öncə Bakı tribunasından səslənən arzuların birbaşa təzahürüdür.

Komissiyanın 2024-cü ildə keçirilən iclasında xüsusi qeyd olunmuşdur ki, hazırda türk dünyasının ortaq əlifbasının yaradılması türk dövlətlərinin inkişafı və sıx əməkdaşlığı kontekstində atılan zəruri addımdır. Azərbaycanda latın qrafikasına keçidin Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd edən iştirakçılar diqqətə çatdırıblar ki, 2001-ci ildə "Azərbaycan əlifbasının yaradılması və Azərbaycan Dili Günü haqqında" sərəncam imzalanıb. Bununla Ümummilli Lider ölkədə iki əlifbanın istifadəsinə son qoyub və latın qrafikasına keçidi təmin edib.

Ortaq türk əlifbasının yaradılması sahəsində görülən işlər isə zamanın çağırışıdır. Türk dünyasında gedən sürətli inteqrasiya prosesləri bir sıra məsələləri, o cümlədən ortaq əlifbanın yaradılmasını da gündəmə gətirdi. 100 il əvvəl Bakıda arzulanan, lakin qadağan edilən ortaq əlifba və vahid mədəniyyət hədəfi bu gün müstəqil türk dövlətlərinin sarsılmaz birliyi ilə XXI əsrin geosiyasi reallığına çevrilir. Tarix sübut etdi ki, ideyaları güllələmək olmaz, Bakı qurultayının məşəli bu gün TDT-nin bayrağı altında bütün türk dünyasının gələcək yolunu işıqlandırır.

Tarixi qurultayın 100 illik yubileyi çərçivəsində TDT və ona bağlı qurumlar tərəfindən Bakıda və Almatıda genişmiqyaslı simpoziumlar keçirilir. Bu tədbirlər çərçivəsində ölkəmizdə nəzərdə tutulan türk dünyası həftəsi böyük maraq doğurur ki, bu da 100 il formalaşan "dildə, fikirdə, işdə birlik" fəlsəfəsinin TDT-nin timsalında artıq reallığa çevrildiyini bütün dünyaya nümayiş etdirir.

### Fikir şəhidlərinin irsi

Türkoloji Qurultayın Azərbaycan türkoloqları ilə birgə 1926-cı ildən 1930-cu illərə qədər yol gələn vahiməli bir arxa planı var. Bolşevik quruluşu üçün təhlükəli hesab edilən böyük Turan düşüncəli ziyalıların həbsi 1937-ci ilin yanvar ayından kütləvi hal almağa başladı. O dövrün ideoloqları çox yaxşı başa düşürdülər ki, 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultay türk xalqlarının elmi və mədəni birliyi yolunda atılmış ən cəsarətli addım idi. Lakin bu möhtəşəm hadisədən sonra amansız sovet repressiyaları dalğasında qurultayın 100-dən çox təşkilatçısı və iştirakçısı pantürkizm, əks-inqilabçı və millətçilik ittihamları ilə güllələndi və ya sürgünə göndərildi. Sovet totalitarizmi alimləri məhv etsə də, onların formalaşdırdığı elmi-mədəni irsi sıradan çıxara bilmədi.

Qurultayda ortaq əlifba, vahid terminologiya və ortaq tarix konsepsiyasını müdafiə edən türkologiyanın sütunları bir-bir hədəfə alındı. Qurultayın əsas təşkilatçılarından olan görkəmli professor Bəkir Çobanzadə türk dillərinin metodologiyasını hazırladığı üçün 1937-ci ildə güllələndi. Bu gün onun dilçilik nəzəriyyəsi ortaq türk terminologiyasının əsasını təşkil edir. Azərbaycan klassik ədəbi irsinin nadir nüsxələrini toplayan görkəmli alim Salman Mümtaz "milli təəssübkeşlik" ittihamı ilə həbs olundu və məhv edildi. Onun xilas etdiyi əlyazmalar bu gün TDT-nin ortaq ədəbiyyat layihələrinin bünövrəsidir. Qazax və kumık xalqlarının böyük ziyalıları Əhməd Baytursunov və Cəlaləddin Qorxmazov türk xalqlarının latın qrafikasına keçməsini elmi şəkildə əsaslandırdıqları üçün repressiya bumeranqının qurbanı oldular. Əhməd Baydursunov 1937-ci ildə "Alaş Orda" milli hərəkatının rəhbərlərindən biri kimi repressiyaya uğradı. Cəlaləddin Qorxmazov Moskvada həbs olunaraq edam edildi. Hənəfi Zeynallı və Ruhulla Axundov - Azərbaycan dilçiliyinin və tənqidinin əsasını qoyan bu simalar da eyni siyasi terrorun hədəfi oldular.

Tədqiqatçılar yazırlar ki, I Türkoloji Qurultayın keçirildiyi 1926-cı ildə Azərbaycan Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin birinci katibi Levon Mirzoyan, "ÇK" sədri, yəni fövqəladə komissar Mircəfər Bağırov idi. Ruhulla Axundov qurultaya nümayəndə seçilmişdi - "Bakinskiy raboçiy" qəzetinin baş redaktoru və jurnalist kimi... 1926-cı ildə, yəni Türkoloji Qurultay ərəfəsində Mirzoyanın özünə rəqib görüb MK-nın ikinci katibliyindən uzaqlaşdırdığı Ruhulla Axundov Azərbaycana Bağırovun rəhbərlik etdiyi 1937-ci ildə NKVD zindanlarında işgəncələrə məruz qalaraq, gözləri çıxarılaraq, qabırğası sındırılaraq öldürülüb. SSRİ Elmlər Akademiyası Azərbaycan filialının özbəkəsilli elmi işçisi Xalid Səid Xocayev də, Bakı Darülfünunu Şərq fakültəsinin Kazan tatarı əsilli professoru Əziz Qubaydullin də 1937-ci ildə güllələnib. Həmin ildə Pepinovun da, Həbib Cəbiyevin də həyatlarına son qoyublar.

Leninin dostu, milliyyətcə eston olan Artur Zifeld Ədəbiyyat İnstitutunun ilk direktoru idi. Mahmud Kaşğari Divanının tərcüməsinə imkan verdiyi üçün 8 il müddətinə sürgünə göndərilib. Milliyyətcə çex olan Nikolay Roqdayev Leninin məsləhəti ilə Tiflisdə Qafqaz İcraiyyə Komitəsində elmi katib işləyirdi. Hansı səbəbdənsə o da Daşkəndə sürgün edilib. Artur Zifeld Kolımada sürgündə və 50 yaşında "qocalığı" və ürək çatışmazlığı səbəbilə həlak olub. Roqdayev isə 1934-cü ildə sürgündə 54 yaşında beyninə qansızma nəticəsində dünyasını dəyişib.

Sovet rejimi repressiyalar vasitəsilə türk dünyasının mədəni bağlarını qoparmağa və onları Kiril əlifbası daxilində parçalamağa çalışırdı. Lakin alimlərin qoyduğu irs bu gün TDT-nin strateji xəttində tamamilə bərpa olunur. 1926-cı ildə alimlərin ortaq türk dili və tarixi istəyi ittiham aktı sayılırdısa, bu gün TDT nəzdindəki Beynəlxalq Türk Akademiyası məhz həmin alimlərin yarımçıq qalmış tədqiqatlarını dövlət statusunda davam etdirir.

### Tarixi miras və sistemli dövlət siyasəti

1926-cı ilin şəhid ziyalılarının qanları bahasına qorunan türkoloji irs bu gün, sadəcə, arxiv materialı deyil, TDT-nin rəhbərliyi ilə gələcəyə doğru addımlayan böyük bir coğrafiyanın ortaq şüurudur. Prezident İlham Əliyevin bu sahədəki fəaliyyəti repressiya qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, 1926-cı il qurultayının irsinin qorunması və TDT-nin gücləndirilməsi istiqamətində strateji və sistemli dövlət siyasətinə əsaslanır. Dövlətimizin başçısı türkologiyanın tarixi mirasını həm milli, həm də qlobal səviyyədə müasir türk dünyası inteqrasiyasının əsas hərəkətverici qüvvəsinə çevirmişdir. Prezidentin bu sahədə ortaya qoyduğu siyasi xətt və konkret fəaliyyət mühüm istiqamətləri əhatə edir. Əvvəla tarixin mirası və yubileylərin dövlət səviyyəsində qeyd olunması ilə bağlı imzaladığı sərəncamlar. Bununla İlham Əliyev I Türkoloji Qurultayın və orada iştirak edən, sonradan repressiyaya uğrayan ziyalıların irsinin dövlət yaddaşına köçürülməsini təmin etmişdir. Prezidentin müvafiq sərəncamları ilə I Türkoloji Qurultayın 90 illik, ardınca 100 illik yubileyləri respublika və türk dünyası səviyyəsində qeyd olunması ilə əlaqədar sərəncamlar imzalanmışdır. Bəkir Çobanzadə, Salman Mümtaz, Hənəfi Zeynallı, Ruhulla Axundov kimi repressiya qurbanlarının elmi irsinin yenidən çapı, adlarının əbədiləşdirilməsi şəxsən dövlətimizin başçısının diqqətində olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev TDT-ni ölkəmizin xarici siyasətinin əsas prioriteti elan etmişdir. Dövlətimizin başçısı TDT çərçivəsində 34 hərfli ortaq türk əlifbasının hazırlanması və tətbiqi prosesini siyasi cəhətdən ən çox dəstəkləyən ölkə liderlərindən biridir. Prezidentin yürütdüyü bu siyasət 1926-ci ilin şəhid ziyalılarının qanı bahasına qorunan türkoloji irsi üzə çıxararaq onu türk dünyasının XXI əsrdəki geosiyasi və mədəni birliyinin əsas rəsmi sütununa çevirmişdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

**Son illərdə ABŞ-Azərbaycan münasibətləri özünün ən yüksək tarixi mərhələsinə qədəm qoyub. 30 ildən artıq davam edən tərəfdaşlıq tarixi, xüsusilə Prezident Donald Trampın Ağ Evə rəhbərlik etdiyi dövrlərdə keyfiyyətcə yeni müstəviyə yüksələrək, strateji xarakter almağa başlayıb. Bu dinamik inkişafın mərkəzində isə iki dövlət lideri - İlham Əliyev və Donald Tramp arasında formalaşan səmimi dostluq münasibətləri və yüksək qarşılıqlı etimad dayanır.**



# Qlobal liderlik, səmimi dostluq, yeni diplomatik səhifə

### Enerji tərəfdaşlığının strateji əhəmiyyəti

Azərbaycanın qlobal enerji xəritəsindəki rolu ABŞ rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir. Bunun bariz nümunəsini Prezident Donald Trampın "Bakı Enerji Həftəsi"nə ünvanladığı rəsmi məktubdan da əyani şəkildə görürük. ABŞ lideri bu müraciətində Azərbaycanın regional enerji sabitliyindəki həlledici rolunu və iki ölkə arasında tərəfdaşlığın strateji əhəmiyyətini xüsusilə vurğulayıb. Bu yanaşma eyni zamanda qlobal enerji siyasətində uzun illər davam edən yanlış trendlərin dəyişməsi ilə müşayiət olunub.

İyunun 1-də Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forumu"nun rəsmi açılış mərasimindəki çıxışında bu xüsusda deyib: "Enerji məsələsini yenidən normal məcraya qaytardığına görə Prezident Trampa daha bir təşəkkür düşür. Hamımız bilirik ki, uzun illər neft və qaz hasilatı ilə məşğul olan ölkələr və şirkətlərə damğa vururdu, bəzən qarayaxma obyektinə çevrilirdilər, planetin dağıdılmasında ittiham olunurdular. Hər hansı əsas olmadan, ictimai rəylə küncə sıxışdırılırdılar".

Dövlətimizin başçısı vurğulayıb ki, Prezident Tramp bu trendi dəyişdi və bu, həqiqətən, əla hadisə oldu: "Dünya faydalı qazıntı olmadan yaşaya bilməz... ...hesab edirəm ki, hazırda qlobal enerji səhnəsində baş verən hallar ABŞ Prezidentinin çox müdrik və praqmatik siyasəti sayəsində ərsəyə gəlmişdir. Hamımız ona bir daha minnətdarıq".

Liderlər səviyyəsində səmimi dialoq, müntəzəm telefon danışıqları və məktublaşmalar ABŞ-Azərbaycan ikitərəfli münasibətlərinin möhkəmlənməsinə xidmət edən əsas vasitələrdir. Prezident İlham Əliyevin 2025-ci ilin iyulunda ABŞ-nin Müstəqillik Günü münasibətilə Donald Trampa ünvanladığı təbrik məktubu bu qarşılıqlı münasibəti mükəmməl əks etdirir: "Biz Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq münasibətlərinə və tərəfdaşlığa xüsusi əhəmiyyət veririk. Beynəlxalq sülh və təhlükəsizliyin gücləndirilməsi, terrorizmə və onun müxtəlif təzahürlərinə qarşı mübarizə, enerji təhlükəsizliyi və bir sıra digər mühüm sahələr üzrə fəal və səmərəli əməkdaşlığımız sıx tərəfdaşlığımızın səciyyəvi cəhətlərindəndir".

Ölkəmizin rəhbəri əlavə edib ki, bu gün Azərbaycan-Birləşmiş Ştatlar dostluq əlaqələrini və tərəfdaşlığını keyfiyyətcə yeni səviyyəyə yüksəltmək üçün yaxşı imkanlar vardır: "İnanıram ki, qəti siyasi iradəmiz və birgə səylərimiz sayəsində dost və tərəfdaş ölkələrimiz arasında əlaqələr və əməkdaşlıq xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da hərtərəfli genişlənməyə davam edəcəkdir".

Donald Trampın ABŞ-yə rəhbərlik etdiyi hər iki dövrdə Vaşinqtonun dünyada gedən proseslərə obyektiv yanaşmasının, beynəlxalq hüquqa hörmətin, sülhə və sabitliyə böyük dəstək və töhfələr verdiyinin şahidi olmuşuq. ABŞ Azərbaycanı regional güc kimi qəbul etdiyini və ölkəmizlə münasibətlərin inkişafında maraqlı olduğunu atdığı addımlarla əyani şəkildə nümayiş etdirir.

Bu il 28 May - Müstəqillik Günü ilə bağlı Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda ABŞ rəhbəri qeyd edib: "2025-ci ilin avqust ayında Vaşinqtonda keçirilmiş tarixi sülh sammitindən bəri biz münasibətlərimizi yenidən canlandırmaq üçün birlikdə çalışmışıq və bunun nəticəsi olaraq Vitse-prezident Vens 2026-cı il fevralın 10-da Bakıda Sizinlə Strateji Tərəfdaşlıq Xartiyamızı imzalamışdır. Biz regional əlaqələr, iqtisadi münasibətlər və təhlükəsizlik sahəsində əməkdaşlıq üzrə tərəfdaşlığımızı daha da dərinləşdiririk və bu istiqamətlərdə, həmçinin digər sahələrdə əməkdaşlığımızı davam etdirməyi səbirsizliklə gözləyirik... ...Biz strateji tərəfdaşlığımızı gələcək illərdə və onilliklərdə daha da möhkəmləndirməyi səbirsizliklə gözləyirik".

Bakının sülh səylərini dəstəkləyən Donald Trampın bölgədə normallaşmaya nail olunmasında, iki ölkə arasında sülh müqaviləsinin imzalanması istiqamətində oynadığı rol da əhəmiyyətlidir.

Hələ ötən il iyulun 19-da Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı Donald Trampın müharibələrə başlamamış yeganə ABŞ Prezidenti olduğuna diqqət çəkən ölkəmizin rəhbəri İlham Əliyev vurğulamışdı ki, o, beynəlxalq təhlükəsizik üzrə daha qlobal məsələlərlə məşğul olmasına baxmayaraq, Cənubi Qafqazdakı şəraiti də diqqət mərkəzində saxlayır.

Həmin zaman ABŞ lideri Donald Tramp özünün "Truth" sosial şəbəkə səhifəsində Prezident İlham Əliyevin sözügedən görüşdə onunla bağlı söylədiyi fikirlərdən ibarət çıxışını paylaşmışdı. Ağ Ev rəhbərinin Azərbaycanın regional sülh səylərini yaxından dəstəkləməsi ümumilikdə Cənubi Qafqazda normallaşmaya nail olunacağı baxımından böyük ümidlər yaratdı. Bu mənada ötən il avqustun əvvəlində Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın rəsmi dəvəti ilə Vaşinqtona səfəri də yalnız ölkələrimiz arasındakı münasibətlərin dərinləşməsi baxımından deyil, həm də regionda əldə olunacaq dayanıqlı sülh üçün xüsusi əhəmiyyəti ilə seçildi.

Prezident Donald Trampın Azərbaycanın regional sülh səylərini dəstəkləməsi, həmçinin Prezident İlham Əliyevin şəxsiyyətinə olan yüksək ehtiramı münasibətlərin dərinliyini nümayiş etdirir. Xüsusilə ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan-Ermənistan sülh sazişi mətninin paraflanması zamanı ABŞ liderinin Prezident İlham Əliyevə xitabən dediyi "Siz güclü və ağıllı insansınız" sözləri təkcə şəxsi rəğbətin deyil, həm də Azərbaycanın qlobal nüfuzunun təsdiqidir.

### Yüksək etimadın təzahürü

Prezident İlham Əliyevin ötən il Vaşinqtona tarixi səfəri ikitərəfli münasibətlərdə tamamilə yeni səhifə açdı. Səfər çərçivəsində imzalanan "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" və ədalətsizliyə son qoyaraq "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəlişin tətbiqinin müvəqqəti dayandırılması ABŞ-nin Azərbaycana olan strateji baxışını kökündən dəyişdiyini sübut etdi.

Vaşinqtondakı görüşləri şərh edən Prezident İlham Əliyev münasibətlərin mahiyyətini belə ifadə edib: "Mən səfərin nəticələrini çox yüksək qiymətləndirirəm. İlk növbədə Prezident Trampın dəvəti ilə Amerikada işgüzar səfərdə olmaq, əlbəttə ki, Azərbaycan-Amerika münasibətləri üçün çox önəmli bir məsələdir. Deyə bilərəm ki, bu gün Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açılır: əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi".

ABŞ-nin Cənubi Qafqazda normallaşma prosesinə birbaşa dəstəyi sülhün əldə olunmasında həlledici amil olub. Donald Trampın vasitəçiliyi və şahidliyi ilə imzalanan sənədlər, o cümlədən Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə bağlı razılaşmalar bölgədə dayanıqlı sülhün təməlini qoyub. Bu prosesdə göstərdiyi tarixi rola görə Prezident İlham Əliyevin Donald Trampın Nobel Sülh Mükafatına namizədliyini irəli sürməsi həm də liderlərin bir-birinə olan yüksək etimadının təzahürüdür.

Trampın buna cavab olaraq ötən il dekabrın 6-da göndərdiyi təşəkkür məktubu isə tərəfdaşlığın inkişafına dair verilən ən böyük mesajdır: "Bizi vacib missiyamızı davam etdirməyə ruhlandıran bu yüksək qiymətə görə dərin minnətdarlığımı bildirirəm. Amerika Birləşmiş Ştatlarının Prezidenti olaraq, dünyada münaqişələrə son qoymağa, bütün insanlar üçün sülh və rifahın təmin edilməsinə sadiq qalıram. Sizin davamlı tərəfdaşlığınızla qeyri-mümkün nə varsa, ona nail olacağıq. Davamlı dəstəyinizə görə Sizə bir daha təşəkkür edirəm".

Bu gün Azərbaycan-ABŞ münasibətləri təkcə enerji deyil, həm də iqtisadi sərmayə, müdafiə, süni intellekt və təhlükəsizlik sahələrini əhatə edən çoxşaxəli strateji tərəfdaşlıq modelinə çevrilib. Bu modelin uğuru isə hər iki liderin praqmatik və uzaqgörən siyasətinə əsaslanır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Dünyanın enerji strategiyası bu dəfə də Bakıda formalaşır

## Prezident İlham ƏLİYEV: "Belə bir şəraitdə Azərbaycanın qlobal enerji dialoqunda rolu daha da güclənir"

Bu gün "Bakı Enerji Həftəsi" öz işini yekunlaşdırır. Üç onillik ərzində ənənəyə çevrilən bu tədbir yenə də regionun aparıcı beynəlxalq enerji platformalarından birinə çevrildi. Hər il olduğu kimi, bu il də Prezident İlham Əliyevin "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"unun rəsmi açılış mərasimində iştirak etməsi sözügedən tədbirlərin önəminə diqqət çəkir.



*Foto İlham BABAYEVİNDİR*

Həftənin özəyini təşkil edən neft və qaz sərgisini haqlı olaraq "Əsrin müqaviləsi"nin müjdəçisi adlandırırlar. Çünki tədbirin ilk dəfə keçirildiyi vaxt Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi üçün sazişin imzalanmasına cəmi bir neçə ay qalırdı. Amma bu barədə qəti bir söz demək mümkün deyildi. Hələ danışıqlar gedirdi. Məhz bu zaman Ulu Öndər Heydər Əliyevin təşəbbüsü, səyi və təşkilatçılığı ilə Bakıda ilk dəfə neft-qaz sərgisi baş tutdu.

Prezident İlham Əliyev budəfəki 31-ci sərgini açarkən belə dedi: "Xəzər Neft və Qaz Sərgisi müasir Azərbaycanın enerji inkişafının bünövrəsini qoydu. Vaxt ötdükcə o dəyişdi, daha böyük vüsət aldı və hazırda çoxsaylı tədbirlər və xeyli faydalı mərasimlərlə yadda qalan "Bakı Enerji Həftəsi" adlanır. Haqlı olaraq bildirildi ki, dünyanın ən iri qaz yataqlarına aid "Şahdəniz" müqaviləsi dəqiqliklə 30 il əvvəl, 1996-cı ilin iyununda imzalanıb. Beləliklə, sayı artan ölkələrin enerji təhlükəsizliyinə töhfə verən Azərbaycanın müasir qaz hasilatında yeni səhifə açıldı. Bu tədbirin əhəmiyyəti həmçinin ABŞ Prezidenti Donald Trampın nəzakətli məktubunda əks olunub. Bu bir daha göstərir ki, "Bakı Enerji Həftəsi" qlobal enerji səhnəsində həqiqətən aparıcı tədbirlərdən biridir. Mən nəzakətli məktubuna görə Prezident Trampa çox minnətdaram və həmçinin tədbirə məktub göndərmiş Türkiyə Prezidenti Ərdoğana və Birləşmiş Krallığın Baş naziri Starmerə təşəkkürümü bildirirəm".

Birinci sərginin ölkəmizin nəinki neft-qaz sənayesində, ümumi inkişafında böyük rolu oldu. Çünki o vaxt Azərbaycan gənc müstəqil dövlət idi. Dünyaya hələ özünü tanıtdıra bilməmişdi. Onun zəngin neft-qaz yataqları haqqında, əlbəttə ki, mütəxəssis dairələrində bilgilər var idi. Ancaq geniş biznes dairələri bundan xəbərsiz idi. Məhz sərginin 1994-cü ildə keçirilməsi ilə Azərbaycanın imkanları, xüsusilə neft sektorundakı imkanları dünyaya təqdim edildi. Ölkəmizə böyük maraq göstərilməyə başlandı. Təsadüfi deyil ki, sərgidən bir neçə ay sonra "Əsrin müqaviləsi" imzalandı. Bu gün xalqımız həmin müqavilənin bəhrəsini görür.

Builki tədbirdə 44 ölkədən 274 şirkət iştirak edir. İlk dəfə cəmi 20 ölkənin şirkətlərinin təmsil olunduğu bir sərginin bu cür geniş şaxələnməsinin, böyük beynəlxalq tədbirə çevrilməsinin və 32 ildir öz məkanını dəyişməməsinin bəs səbəbi nədir? Əlbəttə, Ümummilli Liderin başladığı bütün işlər kimi, bu tədbirin də bünövrəsi möhkəm qoyulmuşdur. Prezident İlham Əliyevin düşünülmüş, uzaqgörən enerji siyasətinin uğurları, yaratdığı beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması, ümumiyyətlə, dövlətimizin başçısının dünyadakı nüfuzu və ölkəmizin imici sayəsində "Bakı Enerji Həftəsi" sözügedən sahənin ən ümdə məsələlərinin müzakirə olunduğu məkana çevrilib. Burada baş tutan tanışlıqlar, nümayiş olunan nailiyyətlər yeni əməkdaşlıqlar üçün körpü yaradır. Nəticədə neçə-neçə müqaviləyə imza atılır, neçə layihənin bünövrəsi qoyulur.

Təkcə ötən iki sərgini xatırlasaq, orada neçə "yaşıl enerji" layihəsinə, neçə yeni neft-qaz yatağının işlənməsinə imza atıldığı yada düşər. Bu dəfə də "Bakı Enerji Həftəsi" bir sıra mühüm hadisə və görüşlərlə yadda qaldı. İyunun 1-də eyni zamanda "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda ilk təbii qaz hasilatına başlanması münasibətilə tədbir keçirildi. Bu, sıradan bir hadisə deyil. Çünki sərbəst qazın hasilatına başlanması AÇG-nin tarixində tamamilə yeni bir səhifə açır. 30 ilə yaxındır neft verən bu blokun qaz ehtiyatlarını da üzə çıxarır. BP şirkətinin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel bu barədə danışarkən qarşıdakı işlər haqqında da məlumat verdi: "Gələcəyə baxaq. Bizim çox sabit bir boru kəmərlərimiz var və onlar Xəzər dənizindən resurslar daşıyır. Həmçinin "Şahdəniz" kompressiya layihəmiz var. Hazırda yerli istehsal müəssisələri platformanı inşa edir. AÇG-nin ilk sualtı birləşdiricisi olan "Qarabağ" yatağı var. Həmçinin bu, Xəzərdə ilk dəfə boru kəmərləri və kabelləri vahid dəstə halında çatdıracaq. Həmçinin Cəbrayılda Günəş elektrik enerjisi layihəmiz var ki, bu, Səngəçal terminalının elektrikləşdirilməsinə və ixrac üçün qaza qənaətə kömək edəcək. Biz həmçinin universitetlərlə, müxtəlif qurumlarla enerjidən başqa, ətraf mühit sahəsində də layihələr reallaşdırırıq. Bu da gələcəyimiz üçün çox vacibdir. Eyni zamanda Azərbaycan uzun müddətdir ki, Xəzərin aparıcı istehsalçısıdır. İnanıram ki, bu rol Mərkəzi Asiyadakı istehsalı Avropa və ondan kənardakı bazarlara çatdırmaq üçün daha da artacaq. Bu yaxınlarda Özbəkistanda SOCAR tərəfindən idarə olunan altı blok üzrə ilk Pay Bölgüsü Sazişini imzalamışıq. BP həmçinin Qazaxıstanda qiymətləndirmə və prosessual olaraq inkişaf etdirmə barədə razılıq əldə edib. Eyni zamanda biz güclü, uzunmüddətli tərəfdaşlıqların yaradılmasını bilirik və birlikdə daha çox məsələlərə nail ola bilərik".

Deməli, əməkdaşlıq telləri getdikcə daha da şaxələnir və möhkəmlənir. Elə bu dəfə "Bakı Enerji Həftəsi" çərçivəsində SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) ilə bir sıra beynəlxalq şirkətlər arasında yeni layihələrin icrasına aid sənədlər imzalandı.

Yeri gəlmişkən, bu gün SOCAR Yaxın Şərq, Afrika və Mərkəzi Asiyaya investisiya yatırır və bu coğrafiya daha da genişlənəcək. Hazırda SOCAR-ın neft emalı gücü 30 milyon tondan artıqdır. Biz yalnız neft və qaz deyil, həm də neft məhsullarını təchiz edirik. Bununla yanaşı, elektrik enerjisi, neft-kimya məhsulları və bərpaolunan enerji sahəsində də ixrac imkanlarımız mövcuddur. Onu da vurğulayaq ki, düzgün enerji siyasəti ölkəmiz üçün xaricə sərmayə yatırmağa da imkan yaratdı. Otuz il bundan əvvəl biz investorları cəlb edirdik, indi isə öz sərmayələrimizlə dost və tərəfdaşlarımız üçün mühüm tranzit imkanları təqdim edirik.

"Bakı Enerji Həftəsi" eyni zamanda ölkəmizin nailiyyətlərinin bir nümayişinə, nüfuzunun, şöhrətinin artmasına səbəb olur. Prezidentimizin dediyi kimi: "Artıq uzun illərdir ki, "Bakı Enerji Həftəsi" qlobal enerji gündəliyinin formalaşdırıldığı, yeni yanaşma və əməkdaşlıq formatlarının təşəkkül tapdığı nüfuzlu platformaya çevrilib. Bu tədbirin əhəmiyyəti hər il daha da artır. Çünki dünya ənənəvi enerji modelindən dayanıqlı, aşağı karbonlu inkişaf strategiyasına və texnoloji yeniliklərə əsaslanan yeni enerji sisteminə keçid mərhələsini yaşayır. Belə bir şəraitdə Azərbaycanın qlobal enerji dialoqunda rolu daha da güclənir".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# 907-ci düzəlişin ləğvi zərurətdir

## Bakı-Vaşinqton münasibətləri və mövcud regional reallıqlar bu ədalətsiz düzəlişin birdəfəlik aradan qaldırılmasını qaçılmaz edir

Azərbaycan öz prinsipial mövqeyi, qətiyyətli xarici siyasət kursu və regional liderliyi ilə mövcud qeyri-obyektiv şərtləri dəyişdirməyə müvəffəq olur. Uzun illər boyu Bakı-Vaşinqton arasında ikitərəfli əlaqələrə kölgə salan, erməni lobbisinin təzyiq rıçağı kimi istifadə etdiyi ədalətsiz sənədlərin siyasi kəsərini itirməsi də məhz bu reallığın nümunəsidir. ABŞ-də Donald Trampın yenidən prezident seçilməsindən sonra Ağ Evin regiona daha praqmatik, reallıqlara əsaslanan yanaşma sərgiləməsi iki ölkə arasında strateji tərəfdaşlığın gələcəyinə tamamilə yeni üfüqlər açır.

Vaşinqtonun mesajları və şəxsən Prezident Donald Trampın atdığı addımlar Bakının regiondakı həlledici çəkisinin və liderlərarası yüksək etimadın ali təzahürü kimi diqqət çəkir. Bu baxımdan ABŞ Prezidentinin Azərbaycanla münasibətlərdə konstruktiv mövqeyi dövlətimizin başçısı tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycan Prezidenti İlham Əliyev "Azadlığa Dəstək Aktı"nın 907-ci maddəsinin ləğv müddətinin uzadılması haqqında memorandumla bağlı sosial şəbəkə hesablarında paylaşım edib və ABŞ Prezidentinə təşəkkürünü bildirib: "Möhtərəm Prezident Donald Tramp, "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması barədə memorandumu şəxsi qeydiniz və xoş sözlərinizlə birlikdə mənə xatirə hədiyyəsi olaraq göndərdiyiniz üçün Sizə səmimi təşəkkürümü bildirmək istəyirəm. Bu diqqətəlayiq jesti yüksək qiymətləndirir və ona böyük ehtiram bəsləyirəm".

İlk növbədə qeyd etmək lazımdır ki, ABŞ Prezidentinin şəxsi qeydlərlə və xoş sözlərlə dövlətimizin başçısına xatirə hədiyyəsi göndərməsi Donald Trampın Azərbaycana və şəxsən Prezident İlham Əliyevə xüsusi rəğbətinin və iki lider arasında formalaşan şəxsi etimadın göstəricisidir. Bu, liderlər səviyyəsində birbaşa və səmimi dialoqun mövcudluğunu nümayiş etdirir.

Ötən illərdə, xüsusilə Bayden administrasiyası dövründə Azərbaycana qarşı tətbiq edilən qeyri-konstruktiv yanaşmalar iki dövlət arasında münasibətlərdə müəyyən soyuqluq yaratmışdı. Lakin Prezident Donald Trampın Azərbaycanla münasibətlərdə konstruktiv addımları, 907-ci düzəlişi dayandırması ABŞ-nin Cənubi



Qafqazda regional reallıqları qəbul etdiyini və ölkəmizin geosiyasi çəkisini düzgün dəyərləndirdiyini göstərir. 907-ci düzəlişin dayandırılması və bunun yüksəksəviyyəli təqdimatı isə regional təhlükəsizlik, terrorizmlə mübarizə və enerji layihələrində Bakı ilə Vaşinqtonun maraqlarının üst-üstə düşdüyünü təsdiqləyir.

Xatırladaq ki, "Azadlığa Dəstək Aktı"na 907-ci düzəliş 1992-ci ildə daxil edilib. Bu, ABŞ tərəfindən Azərbaycana birbaşa yardım göstərilməsini uzun illər məhdudlaşdırıb. Sözügedən düzəliş Azərbaycana qarşı böyük ədalətsizlik idi. Məntiqlə təcavüzə məruz qalmış, torpaqlarının 20 faizi işğal edilmiş, soyqırımı və qətliamlarla üzləşmiş Azərbaycan yox, həqiqi təcavüzkar Ermənistan cəzalandırılmalı idi. Bunun nəticəsində Azərbaycan ABŞ-nin qərəzli yanaşması ilə üzləşmişdi.

Lakin bu gün reallıq tamam fərqlidir və Bakı ilə İrəvan arasında sülh prosesi yekun mərhələdədir. Tərəflər sülh prosesində kifayət qədər uğurlu məsafə qət ediblər. Azərbaycan ərazisindən Ermənistana müxtəlif yüklərin daşındığı, yolların açıldığı, neft məhsullarımızın Ermənistana ixrac edildiyi şəraitdə blokada anlayışından söhbət gedə bilməz. Bu baxımdan 907-ci düzəlişin ləğvinə nail olmaq ilk növbədə ABŞ-nin əvvəlki hökumətlərinin yanlışlarının, qeyri-obyektiv münasibətlərinin də aradan qaldırılması anlamına gəlir.

Mənfur düzəlişin tamamilə ləğv olunma prosesi siyasi müzakirə mərhələsindədir. ABŞ Administrasiyası və Konqresdə bu məsələ artıq gündəmdədir. 2025-ci ilin avqust ayında ABŞ Prezidenti Donald Tramp tərəfindən 907-ci düzəlişin tətbiqinin müvəqqəti olaraq dayandırılması ilə bağlı sərəncam imzalanıb. Həmin il dekabrın 10-da ABŞ Nümayəndələr Palatasının üzvü Anna Paulina Luna 907-ci düzəlişi tam ləğv etməyə yönəlmiş qanun layihəsini təqdim edib. ABŞ və Azərbaycan arasında ikitərəfli siyasi, iqtisadi və hərbi əlaqələrin inkişafı üçün "907-ci düzəliş" adlı maneə mütləq aradan qaldırılmalı, münasibətlərdə siyasi və hüquqi əngəllər olmamalıdır. Bugünkü regional və qlobal geosiyasi reallıqlar bu ədalətsiz qərarın ləğvini zərurət halına gətirir. ABŞ Konqresi bu düzəlişi ləğv etməklə təkcə gecikmiş ədaləti bərpa etməyəcək, həm də Cənubi Qafqazda uzunmüddətli sabitliyə mühüm töhfə verəcək.

Ümumiyyətlə isə, dövlətimizə qarşı ədalətsiz və qərəzli yanaşmanın göstəricisi olan 907-ci düzəlişin ləğv edilməsi proseduruna start verilməsi regionda güc balansının dəyişdiyinin, Azərbaycanın diplomatik, hərbi və geosiyasi baxımdan daha güclü aktora çevrildiyinin bariz nəticəsidir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*



# Prezident İlham Əliyevin təşəbbüsü: "Türk Dövlətləri Təşkilatı qlobal geosiyasi gücə çevrilməlidir"

**Türk Dövlətləri Təşkilatının (TDT) qlobal geosiyasi gücə çevrilməsi məsələsini Azərbaycan Prezidenti İlham Əliyev gündəmə gətirmişdir. Prezident İlham Əliyevin "Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir" fikri türk dövlətlərinin koordinasiyalı fəaliyyətə olan ehtiyacını ortaya qoyur. Bu tezis Azərbaycan liderinin TDT ilə bağlı siyasətində əsas yeri tutur. Onu reallaşdırmaq istiqamətində də praktiki olaraq Prezident İlham Əliyev böyük töhfələr verməkdədir.**

Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi TDT-nin gücləndirilməsini müəyyən edən dövlət başçısı məsələnin bu şəkildə aktuallaşdırılmasının etnomədəni, regional və qlobal şərtlərini də dəqiq ifadə etmişdir. Azərbaycan lideri çıxışlarında dəfələrlə vurğulamışdır ki, ortaq tarixə, mədəniyyətə, eyni soy-kökə, dilə və dinə malik olan türk dövlətlərinin çağdaş tarixi mərhələdə vahid siyasi təşkilatda birləşməsi seçim deyildir, tarixi-siyasi zərurətdir.

Bunun üçün lazım olan potensial mövcuddur. Həmin potensialdan səmərəli yararlanmaq isə artıq liderlərin siyasi-diplomatik məharətinə bağlıdır. Təcrübə göstərir ki, türk dövlətlərinin liderləri bu tarixi vəzifənin öhdəsindən uğurla və bacarıqla gəlirlər. Bu prosesdə Azərbaycan Prezidentinin aparıcı rolu aydın görünür.

## İnteqrasiyanın əsaslandırılması: regional və qlobal kontekst

Prezident İlham Əliyev tərəfindən məsələnin regional və qlobal miqyaslarda aktuallığının ifadəsi də olduqca maraqlıdır. Dövlət başçısı 2024-cü ildə "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusunda beynəlxalq konfransın iştirakçılarına ünvanladığı müraciətdə ifadə etmişdir: "Müasir dövrdə qlobal kataklizmlər beynəlxalq münasibətlər sisteminin geosiyasi reallıqlarından birinə çevrilmişdir. Xarici güc mərkəzlərinin təsiri və müdaxiləsi ilə dünyanın müxtəlif regionlarında çoxsaylı qarşıdurmaların - etnik və dini zəmində münaqişələrin, siyasi konfrontasiyaların baş verməsi, xaos və anarxiya mühitinin yaranması ayrı-ayrı dövlətlərə və bütövlükdə beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaratmaqdadır. Beynəlxalq hüquq normalarının kobudcasına pozulduğu və ikili standartlara əsaslanan selektiv yanaşmaların baş qaldırdığı belə bir şəraitdə milli maraqların qorunmasına hədəflənmiş və mövcud çağırışlara cavab verən siyasətin həyata keçirilməsi müstəqil dövlətlərin qarşısında duran başlıca vəzifələrdəndir".

Bu fikirlərdən aydın olur ki, birincisi, müasir mərhələdə "qlobal kataklizmlər beynəlxalq münasibətlər sisteminin geosiyasi reallıqlarından" biridir, ikincisi, "xaos və anarxiya mühitinin yaranması ayrı-ayrı dövlətlərə və bütövlükdə beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər" yaratmaqdadır, üçüncüsü, "beynəlxalq hüquq normaları kobudcasına pozulmaqda və ikili standartlara əsaslanan selektiv yanaşmalar baş qaldırmaqdadır", dördüncüsü, "belə bir şəraitdə milli maraqların qorunmasına hədəflənmiş və mövcud çağırışlara cavab verən siyasətin həyata keçirilməsi müstəqil dövlətlərin qarşısında duran başlıca vəzifələrdəndir".

Deməli, türk dövlətlərinin siyasi, geosiyasi-iqtisadi, sosial, mədəni, humanitar, enerji, nəqliyyat, logistika, ticarət, investisiyalar və rəqəmsal bağlantılar baxımından inteqrasiyası onların inkişafı ilə yanaşı, sülh və təhlükəsizliyin ciddi surətdə birgə təmin edilməsi ilə də bağlıdır. Bu əsasda ekspertlərin irəli sürdüyü aşağıdakı tezis reallığı əks etdirir: "Türk dünyasının birləşməsində, Türkiyədən Qafqaza və Mərkəzi Asiyaya qədər siyasi, iqtisadi və mədəni əməkdaşlığın dərinləşməsində təşkilat aparıcı rol oynayır". Bu kontekstdə analitiklər xüsusi vurğulayırlar ki, TDT-nin "institusional inkişafı" sürətlə gedir və o, artıq "regional aktordur".

Bir çox ekspert isə türk coğrafiyasının inteqrasiyasına identiklik, millət və sivilizasiyaların qarşılıqlı əlaqəsi fonunda baxaraq "yeni tarixi mərhələnin başladığını" yazır və bu aspektdə "TDT-nin perspektivinin yüksək olduğunu" vurğulayırlar.

Nəhayət, araşdırmalarda TDT-nin inkişafına regional və qlobal geosiyasi dinamikanın fonunda nəzər salınır və düşündürücü qənaətlər ifadə edilir. "Baku-Network" mərkəzinin analitikləri Şərqi Avropada davam edən müharibənin və ABŞ ilə Çin arasında rəqabətin daha da güclənməsi, qlobal energetika sisteminin yenidən formalaşması fonunda TDT-nin Qəbələdə keçirilmiş Zirvə Görüşünü geniş məkanı əhatə edən "yeni geosiyasi xəritə"nin əyaniləşməsi rəmzi kimi təqdim edirlər. Onun geosiyasi ifadəsini isə "müstəqil Avrasiya güc mərkəzinin yaranması" kimi göstərirlər. Burada başlıca məqamın TDT-nin nə imperiya, nə hərbi blok, nə ideoloji alyans, "suveren dövlətlər şəbəkəsi" olmasından ibarət olduğu tezisi irəli sürülür. Əsas məqsəd isə "strateji avtonomluğa" nail olmaqdan ibarətdir.

Ekspertlərin vurğulanan qənaətləri Prezident İlham Əliyevin TDT-nin gücləndirilməsi və qlobal geosiyasi mərkəzlərdən biri olması xəttini uğurla həyata keçirməsini və artıq ilkin nəticələrin əhəmiyyətini göstərir. Buradan əldə oluna biləcək mühüm qənaətlər kimi, Azərbaycan Prezidentinin iki mühüm tezisini xüsusi qeyd etmək gərəkdir: TDT "yeni strateji hədəflərə doğru inamla irəliləyir" və bu təşkilat, faktiki olaraq, "yeni ittifaq modelidir".

## TDT: yeni ittifaq modeli

Prezident İlham Əliyev demişdir: "Son zamanlarda yeni strateji hədəflərə doğru inamla irəliləyərək dünya siyasətində yüksələn güc mərkəzinə çevrilən, beynəlxalq nüfuzu və geosiyasi təsir imkanları artmaqda olan Türk Dövlətləri Təşkilatında birləşən ölkələr də analoji çağırışlarla üzləşirlər. Yeni ittifaq modeli kimi dünyanın diqqət mərkəzində olan bu təşkilatda təmsil olunan ölkələrin sıx həmrəylik şəraitində dostluq və qardaşlıq prinsiplərinə, qarşılıqlı anlaşmaya, bərabərhüquqlu tərəfdaşlığa və çoxşaxəli əməkdaşlığa əsaslanan münasibətləri həm milli və regional səviyyədə, həm də qlobal miqyasda sabitliyə, təhlükəsizliyə və inkişafa xidmət edən çox önəmli amildir".

Azərbaycan Prezidentinin TDT-yə üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün iştirakçılarını qəbul edərkən ifadə etdiyi və əvvəllər irəli sürülmüş fikirlərin reallaşması baxımından əhəmiyyətli olan tezisləri geosiyasi cəhətdən böyük önəm kəsb edir və maraq doğurur. Dövlətimizin başçısı vurğulamışdır: "Təbii ki, təşkilatımızın gələcək inkişafı ilə bağlı növbəti addımlar atılacaq. Bu gün Türk Dövlətləri Təşkilatı dünya miqyasında böyük nüfuz qazanmışdır və bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Həm bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır və biz müştərək səylərlə mövqelərimizi möhkəmləndirməliyik. Bu gün bizim təşkilatımız dünyanın aparıcı beynəlxalq təşkilatlarının sırasına daxil edilməlidir. Bu, bizdən asılıdır. Biz nə qədər səylər göstərsək, birlik göstərsək, önəmli layihələrin icrasına nail olsaq və eyni zamanda tərəfdaşlarımız üçün də önəmli imkanlar yaratsaq, bizim beynəlxalq nüfuzumuz da, mövqelərimiz də, imkanlarımız da bir o qədər artacaq".

Yuxarıda gətirilən iki mühüm iqtibasın semantik müqayisəsindən belə nəticəyə gəlmək olar ki, TDT dinamik olaraq inkişaf edir və təşkilat kimi daha da güclənir. Hazırkı mərhələdə onun güclənməsini ifadə edən başlıca əlamətləri Azərbaycan lideri belə ifadə edir: "Təşkilatımızın gələcək inkişafı ilə bağlı növbəti addımlar atılacaq", "Türk Dövlətləri Təşkilatı dünya miqyasında böyük nüfuz qazanmışdır", "Bizim beynəlxalq mövqelərimiz möhkəmlənir", "Bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır", eyni zamanda "Qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır", "Müştərək səylərlə mövqelərimizi möhkəmləndirməliyik".

Bütün bunlardan Azərbaycan Prezidentinin tam haqlı olaraq çıxardığı məntiqi nəticə diqqət çəkir: "Bu gün bizim təşkilatımız dünyanın aparıcı beynəlxalq təşkilatlarının sırasına daxil edilməlidir". Bu o deməkdir ki, artıq TDT-nin geosiyasi güc kimi daha yüksək mövqelərə çıxması zamanıdır. Onun üçün təşkilatın siyasi, iqtisadi, nəqliyyat, enerji və sair baxımından inkişafı ilə onun geosiyasi güc kimi formalaşması arasında harmoniya yeni səviyyəyə yüksəldilməlidir.

Azərbaycanın dövlət başçısı bu istiqamətin də aktuallığını və zəruriliyini xüsusi vurğulamışdır. Azərbaycan lideri ifadə etmişdir: "Dünyada bir çox beynəlxalq təşkilatlar var, ancaq etnik köklər üzərində yaranmış təşkilatların sayı o qədər də çox deyil. Yəni bu, bizim çox böyük üstünlüyümüzdür. Yəni bizi birləşdirən bizim etnik mənsubiyyətimizdir. Bu, birinci amildir. Ondan sonra bizim coğrafiyamızdır, ölkələr arasındakı çox xoş və isti münasibətlərdir, vahid məqsədlərdir. Ona görə bax, bütün bu amilləri nəzərə alaraq biz təşkilatımızı daha da yüksək pilləyə qaldırmalıyıq".

Prezident İlham Əliyev təşkilatın yeni səviyyəyə yüksəlməsində dövlət başçılarının Zirvə görüşlərinin əhəmiyyətli rol oynadığını qeyd etmişdir. Bununla yanaşı, TDT-yə üzv dövlətlərin başçılarının qeyri-rəsmi Zirvə görüşlərinin də xüsusi rolunu vurğulamışdır. Həmin kontekstdə Azərbaycan Prezidentinin ifadə etdiyi fikirlər çox aktualdır və təşkilat daxilində gedən prosesləri dəqiqliklə ifadə edir. Dövlət başçısı demişdir: "Təşkilatımızın inkişafı üçün əlbəttə ki, Zirvə görüşlərinin böyük əhəmiyyəti var. Bu görüşlər müntəzəm olaraq keçirilir və bildiyiniz kimi, Azərbaycanın təşəbbüsü ilə dövlət başçılarının qeyri-rəsmi görüşləri də keçirilməyə başlamışdır. Birinci belə qeyri-rəsmi Zirvə görüşü Qarabağda, Şuşada keçirilmişdir. Artıq bu, ənənə halına çevrilib və hesab edirəm ki, bu da çox gözəl göstəricidir".

Azərbaycan rəhbərinin vurğuladığı bu məqamlar Qazaxıstanın qədim Türküstan şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə təsdiqini tapmışdır. Türküstan Zirvə görüşü Şuşa görüşündən sonra təşkilatın tarixinə düşəcək müzakirələr və razılaşmalar baxımından çox əhəmiyyətlidir.

## Yeni mərhələ: rəqəmsallaşma və süni intellekt

Hazırda rəqəmsal transformasiya və süni intellekt faktorları dövlətlərarası münasibətlərdə mühüm rol oynayır. Bu faktor dövlətlər arasında qarşılıqlı münasibətlərin təməlini təşkil edir. Buna görə də Türküstan Zirvə görüşünün əsas mövzusunun "Süni intellekt və rəqəmsal inkişaf" adlandırılması tamamilə məntiqli və təşkilatın güclənməsi baxımından aktualdır. Bununla bağlı Azərbaycan Prezidenti bəyan etmişdir: "Zirvə görüşünün mövzusu dövrümüzün çağırışlarını və prioritetlərini əks etdirir. Dünya rəqəmsal inkişaf və süni intellektin yaratdığı imkanlar sayəsində yeni inkişaf mərhələsinə qədəm qoyur. Türk dövlətləri bu prosesdə ön sıralarda yer almalıdır".

TDT-nin qlobal geosiyasətdə öz sözü olan gücə çevrilməsində dünyada inkişaf sahəsində yaranan yeni imkanlardan maksimum dərəcədə yararlanmaq xətti xüsusi yer tutmalıdır. Bu anlamda rəqəmsallaşma və süni intellekt məsələləri bütövlükdə müasir inkişafın əsas parametrləri kimi TDT-nin fəaliyyətində yer almalıdır. Türk dövlətlərinin bu prosesdə ön sıralarda olması strateji məna daşıyır.

Məsələ həm də hazırkı mərhələdə TDT-nin qlobal proseslərdə oynadığı rolla əlaqəlidir. Dövlət başçısı bununla bağlı bildirir ki, "Bu gün Türk Dövlətləri Təşkilatının beynəlxalq çəkisi artır, qlobal proseslərdə rolu və mövqeyi güclənir. Keçən ilin oktyabr ayında Qəbələ Zirvə görüşündə sədrliyi qəbul edən Azərbaycan təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsi istiqamətində fəaliyyət göstərir. Buna nümunə kimi Rəqəmsal İnkişaf Şurasının, Milli Süni İntellekt Mərkəzinin və Süni İntellekt Akademiyasının yaradılmasını göstərmək olar. Bu cür qurumlar "rəqəmsal suverenliyin möhkəmləndirilməsi və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi" üçün çox vacibdir.

Bunlarla yanaşı, Azərbaycanda Süni İntellekt Strategiyasının qəbul edilməsi vacib hadisədir. Strategiyada "...süni intellekt sənayesinin inkişafı, ixtisaslı kadrların hazırlanması və süni intellektin dövlət idarəçiliyində geniş tətbiqi yer alır".

Nəhayət, TDT-nin qeyri-rəsmi Zirvə görüşünün yekunları üzrə qəbul edilmiş Türküstan Bəyannaməsində rəqəmsallaşma və süni intellekt məsələləri geniş yer almışdır. Bəyannamədə vurğulanır: "Transsərhəd sənədləşmənin sadələşdirilməsi, inzibati maneələrin azaldılması, yüklərin real vaxt rejimində izlənilməsinin təmin edilməsi və Orta dəhliz üzrə yükdaşımaların səmərəliliyinin və şəffaflığının artırılması məqsədilə "e-Permit" sisteminin tam işə salınmasını alqışlayır və Milli Vahid Pəncərənin, o cümlədən üzv dövlətlərin "e-Permit", "e-CMR" və elektron hökumət sistemlərinin inteqrasiyasını dəstəkləyirik".

TDT-də artıq rəqəmsal suverenliyin möhkəmləndirilməsi və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi istiqamətində konkret addımların atıldığı gətirilən nümunələrdən aydın görünür. Bu prosesin sistemli və davamlı xarakter alacağı da şübhə doğurmur. Ümumilikdə təşkilatın qlobal miqyasda söz sahibi olan güclərdən birinə çevrilməsi üçün liderlərin düşünülmüş və əsaslı fəaliyyət göstərdiklərini demək olar. Bütün bunlardan bir neçə mühüm geosiyasi nəticə hasil olunur.

## TDT-nin perspektivi: əsas nəticələr

Artıq şübhə yoxdur ki, TDT uğurlu ittifaq modellərindən biridir. Təşkilatın tarixi baxımdan qısa müddətdə kifayət qədər səmərəli, praktiki müsbət nəticəverici fəaliyyət göstərdiyi və nüfuz dairəsini davamlı olaraq genişləndirdiyi aydın olur. TDT-nin inkişaf potensialı kifayət qədər genişdir və onun praktiki reallaşması istiqamətində liderlər çox böyük fəallıq nümayiş etdirirlər. Bu kimi dinamikanın nəticəsidir ki, TDT bir sıra istiqamətlərdə inkişafını yeni səviyyəyə yüksəltmişdir. Təşkilatın qlobal geosiyasi gücə çevrilməsi baxımından aktual sayıla biləcək faktorları vurğulamağa ehtiyac vardır.

Hər şeydən öncə, təşkilata daxil olan ölkələrin mənəvi-əxlaqi və mədəni sferalarda daha da yaxınlaşması zərurəti özünü göstərməkdədir. Tarixi olaraq eyni soy-kökə malik olan, lakin artıq müstəqil dövlətə malik cəmiyyətlərin (yəni türk toplumlarının) mənəviyyat, əxlaq və mədəniyyət sferalarında davamlı inteqrasiyasını təmin etməyin optimal modeli tapılmalıdır. Bu istiqamətdə Azərbaycanın fəaliyyəti xüsusi vurğulanmalıdır.

Digər mühüm məqam siyasi institutlaşmanın vahid inteqrativ xarakterli proses halına gətirilməsidir. Bu, çox mühüm faktordur, çünki müasir dünyada ortaq siyasi institutlaşma kursunun dəqiq müəyyən edilməsi asan məsələ deyil. Təcrübə göstərir ki, TDT üzvləri bu istiqamətdə də uğurlu addımlar atırlar. Həmin prosesdə Azərbaycanın təşəbbüsləri diqqət çəkir. Bu təşəbbüslər əsasən infrastruktur diplomatiyası çərçivəsində həyata keçirilir. Azərbaycan TDT-də inteqrasiya prosesinə xüsusi dinamika verə bilən layihələr irəli sürür və onların həyata keçirilməsinə çalışır.

Nəhayət, Azərbaycan nəqliyyat-logistika və enerji sferalarında çox aktiv fəaliyyət göstərməkdədir. Rəqəmsallaşma və süni intellektlə yanaşı, Bakı qlobal əhəmiyyətli enerji layihələrinin müəllifidir. Onların sırasında bərpaolunan enerji layihələri son illərdə daha çox yer tutmağa başlamışdır. Bakı "yaşıl enerji" layihələrinin sayını artırmaqla yanaşı, onların əhatə dairəsini də genişləndirir. Bununla da infrastruktur diplomatiyası daha böyük miqyasda TDT-nin inkişafına xidmət edir.

Deyilənləri ümumiləşdirsək, TDT-nin geosiyasi güc kimi formalaşmasından konkret faktlar üzrə danışmaq olar. Gətirilən nümunələr və aparılan təhlillər göstərir ki, təşkilat həmin aspektdə özünün yeni fəaliyyət səviyyəsinə yüksəlmişdir. Həmin prosesdə Azərbaycanın xüsusi rol oynadığı da faktdır. Bakı xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi TDT-nin gücləndirilməsini seçməklə ciddi addım atmışdır. Hazırda onun həyata keçirilməsi istiqamətində Azərbaycan daha çox fəallıq göstərir. Azərbaycanın TDT-nin aparıcı gücü olduğunu artıq hər kəs etiraf edir.

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

# Ölkəmizin təcrübəsi digər dövlətlər üçün də faydalıdır

**Birləşmiş Millətlər Təşkilatının ən nüfuzlu qlobal urbanizasiya platformalarından biri olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) Bakı şəhərində keçirilməsi ölkəmizin beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə artdığını, qlobal proseslərdə fəal iştirakını, xüsusilə şəhərsalma ilə dayanıqlı inkişaf sahələrində həyata keçirilən siyasətin beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirildiyini göstərir. Forumun regionda ilk dəfə olaraq Azərbaycanda təşkil edilməsi isə ölkəmizin beynəlxalq əməkdaşlıq və müasir şəhərsalma gündəliyində artan rolunun mühüm göstəricisidir.**

**Milli Məclisin deputatı Pərvin KƏRİMZADƏ** qəzetimizə açıqlamasında deyib ki, forumun məqsədi sürətli urbanizasiya proseslərinin şəhərlərin inkişafına təsirini araşdırmaq, dayanıqlı urbanizasiya siyasətinin təşviqinə nail olmaq, bu sahədə ölkələrin uğurlu təcrübələrini bölüşmək, açıq debat və müzakirələr vasitəsilə bilik mübadiləsini genişləndirmək və beynəlxalq əməkdaşlığı gücləndirməkdir. Bu forum dünya üzrə şəhərsalma sahəsində ən nüfuzlu - genişmiqyaslı iştirakçılığa malik platforma hesab olunur. Belə ki, məzmun və əhatə dairəsinə görə WUF BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransından - COP-dan sonra təşkilatın ikinci ən böyük və ən mühüm beynəlxalq tədbiri sayılır.



Pərvin Kərimzadə daha sonra deyib: "Ölkəmizdə şəhərsalma fəaliyyəti Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində dayanıqlı inkişafın əsas strateji istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Hazırda bu istiqamətdə ardıcıl və məqsədyönlü addımlar atılır, şəhərsalma sahəsində müasir standartlar tətbiq edilir, Bakı və respublikanın digər şəhərlərində həyata keçirilən layihələr sosial-iqtisadi inkişafda mühüm rol oynayır. Prezident İlham Əliyevin mayın 18-də "Euronews" televiziyasına müsahibəsində dediyi kimi, WUF13-ə evsahibliyi etmək bizim üçün böyük şərəfdir. Tədbirdə 176 ölkə təmsil olunur. Bu isə Azərbaycana göstərilən hörmətin bariz nümunəsidir. "Təbii ki, bu forum bizim üçün indiyədək görülən işlər, gələcək planlarımız barədə auditoriyaya və beynəlxalq ictimaiyyətə məlumat vermək, eyni zamanda tərəfdaşlarımızın təcrübəsindən yararlanmaq baxımından da bir fürsətdir. Çünki iştirak səviyyəsi, dövlət və hökumət başçılarının sayı göstərir ki, bu gün şəhərsalma məsələləri bir çox dünya liderlərinin diqqət yetirdiyi mövzulardan biridir. Mən çıxışımda da qeyd etdiyim kimi, tarixi və memarlıq irsinin qorunması ilə şəhərlərin müasirləşdirilməsi bir-biri ilə uzlaşmalıdır", - deyə dövlətimizin başçısı vurğulayıb".

Deputat qeyd edib ki, cənab İlham Əliyev müsahibəsində işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurun bərpasında yeni şəhərsalma üsullarının tətbiq edildiyini diqqətə çatdırıb. Prezidentin vurğuladığı kimi, bu günədək şəhər və kəndlərin sıfırdan qurulması ilə bağlı misilsiz təcrübə formalaşdırmışıq. Ölkə rəhbəri qeyd edib ki, dəmir yolları, məktəblər, xəstəxanalar - bütün bu işlər paralel şəkildə həyata keçirilir. Yenidənqurmanın ilk illərində əsas sərmayəni infrastrukturun yaradılmasına yatırmışdıq. Hazırda isə əsas sərmayələr yaşayış sahələrinin tikintisinə yönəldilib - şəhərlərin baş planları, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları üzrə layihələr həyata keçirilir.

P.Kərimzadə dövlət başçısının müsahibədə Avropanın enerji mənbələrini şaxələndirdiyi bir dövrdə Azərbaycanın rolundan da bəhs etdiyini xatırladıb: "Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Ölkəmizin reallaşdırdığı layihələr dünyanın təhlükəsizlik sisteminin daha etibarlı şəkildə təmin olunması istiqamətində yeni imkanlar açır. Prezident İlham Əliyevin enerji siyasəti Azərbaycanın dünyadakı önəmini artıraraq, qlobal enerji təhlükəsizliyində əhəmiyyətli regional oyunçuya çevirib. Azərbaycanın enerji strategiyası qlobal müstəvidə böyük əhəmiyyət daşıyır. "Cənub qaz dəhlizi" vasitəsilə hazırda 16 ölkəyə təbii qaz ixrac olunur. Boru kəmərləri vasitəsilə qaz tədarük etdiyimiz ölkələrin sayına görə dünyada birinci yerdəyik. Bu gün 12 Avropa ölkəsi Azərbaycan qazı alır, onlardan 10-u Avropa İttifaqının üzvüdür".

Deputat qeyd edib ki, dövlətimizin başçısı Hörmüz boğazı ilə bağlı yaranmış böhranın ölkəmizə təsiri ilə bağlı sualı da cavablandırıb. Prezident İlham Əliyev bildirib ki, təchizat zənciri baxımından bu böhran bizə ciddi təsir göstərmir. Çünki enerji təchizatı və marşrutların şaxələndirilməsi siyasəti bizim üçün bu günün məsələsi deyil. Prezident qeyd edib ki, Hörmüz böhranının qlobal iqtisadiyyata təsiri olsa da, öz enerji layihələrimiz baxımından biz təhlükəsiz mövqedəyik. Bu amil isə Prezident İlham Əliyevin düşünülmüş siyasətinin nəticəsidir. Ona görə Azərbaycanın təcrübəsi digər ölkələr üçün də faydalı ola bilər.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# "Ağalı münaqişədən sonrakı ərazilərin bərpası üçün qlobal modelə çevrilə bilər"



"Ağıllı şəhərlər" və "ağıllı kəndlər" artıq beynəlxalq konfranslarda müzakirə olunan, sadəcə, dəbli mövzular deyil. Onlar insanların həyatını dəyişən, icmaları canlandıran və gələcək nəsillər üçün ümid yaradan real həllərə çevriliblər.

Bu yaxınlarda Azərbaycana səfərim zamanı "ağıllı kənd" inkişafının ən ilhamverici nümunələrindən birinə şahid oldum. "Ağıllı" və dayanıqlı icmalar sahəsində uzun illər çalışan mütəxəssis kimi, belə bir layihə ilə yaxından tanış olmaq fürsəti əldə etdiyim üçün böyük məmnunluq hissi keçirdim. Bu səfərin təşkilinə və Qarabağ bölgəsində həyata keçirilən əlamətdar transformasiyanı görmək imkanı yaratdığına görə Azərbaycana minnətdarlığımı bildirirəm".

AZƏRTAC xəbər verir ki, "Communities Connect Cities" (C3) təşkilatının sədri, "ağıllı şəhərlər" və dayanıqlı inkişaf üzrə beynəlxalq ekspert, omanlı mütəxəssis Layla Al Hadrami Qlobal Cənub QHT Platformasının təşkil etdiyi Qarabağ səfərindən sonra təəssüratlarını bölüşüb.

O, Azərbaycanda həyata keçirilən "Ağalı ağıllı kəndi" layihəsini yüksək qiymətləndirərək onu müasir kənd inkişafının ən ilhamverici nümunələrindən biri adlandırıb.

Onun sözlərinə görə, layihə texnologiyanın, dayanıqlı inkişafın və insan mərkəzli planlaşdırmanın münaqişədən sonrakı ərazilərin bərpasına necə töhfə verə biləcəyini, eləcə də yerli icmaların uzunmüddətli dayanıqlılığını necə təmin etdiyini nümayiş etdirir.

Ekspert qeyd edib ki, Azərbaycanda ilk "ağıllı kənd" layihəsi olan Ağalı BMT-nin Davamlı İnkişaf Məqsədlərinə uyğun şəkildə yaradılıb. Layihənin birinci mərhələsi çərçivəsində burada 200 ev inşa edilib. Bu isə "Böyük qayıdış" proqramı çərçivəsində 234 ailədən ibarət 1017 vətəndaşın doğma torpaqlarına qayıtmasına şərait yaradıb.

"Ağalının hekayəsi göstərir ki, "ağıllı icmalar" yalnız texnologiyadan ibarət deyil. Burada söhbət insanların ləyaqətinin bərpasından, onların evlərinə qayıdışından, yeni imkanların yaradılmasından və gələcək nəsillər üçün daha yaxşı həyatın formalaşdırılmasından gedir", - deyə o vurğulayıb.

Ekspert kompakt və yaşayış üçün əlverişli məkan konsepsiyasına xüsusi diqqət çəkib. Onun sözlərinə görə, məktəb, uşaq bağçası, tibb mərkəzi, inzibati və xidmət obyektləri daxil olmaqla bütün əsas infrastruktur piyada məsafəsində yerləşir. Bu yanaşma insan mərkəzli icmaların inkişafına dair müasir qlobal prinsiplərlə tam uzlaşır. Layla Al Hadrami kənddə bərpaolunan enerji mənbələrindən istifadənin də təqdirəlayiq olduğunu bildirib. O qeyd edib ki, evlər günəş kollektorları vasitəsilə isti su ilə təmin olunur, inzibati binalar günəş panelləri ilə təchiz edilib, elektrik enerjisinin bir hissəsi isə Həkəri çayı üzərində fəaliyyət göstərən su-elektrik stansiyalarında istehsal olunur.

Ekspertin fikrincə, layihənin əsas üstünlüklərindən biri əhali üçün iqtisadi fəaliyyət imkanlarının yaradılmasıdır. Həyətyanı torpaq sahələri sakinlərə bağçılıq və kənd təsərrüfatı ilə məşğul olmaq imkanı verir, yerli istehsalın və sahibkarlığın inkişafı isə icmanın özünütəminetmə səviyyəsinin yüksəlməsinə töhfə verir.

O, xüsusilə kəndin turizm infrastrukturunu, o cümlədən süni gölün yaxınlığında yerləşən "Agalı Hotel"i qeyd edib. Ekspertin sözlərinə görə, bu obyekt turizmin inkişafında və bölgəyə investisiyaların cəlb olunmasında mühüm rol oynaya bilər.

"Ağalının əsl uğuru tətbiq edilən rəqəmsal həllərin sayında deyil, texnologiyaların, infrastrukturun və dayanıqlı inkişaf prinsiplərinin insanların doğma yurdlarına qayıdışı naminə necə səmərəli şəkildə birləşdirilməsindədir. Bu təcrübə beynəlxalq ictimaiyyətin diqqətinə layiqdir və münaqişələrin, məcburi köçkünlüyün, eləcə də dayanıqlı inkişaf problemlərinin nəticələri ilə üzləşən digər regionlar üçün nümunə ola bilər.

Qarabağın təcrübəsi beynəlxalq bilik və təcrübə mübadiləsinin mühüm mövzularından birinə çevrilməlidir. Ağalı modeli isə müxtəlif ölkələrdə həyata keçirilən oxşar layihələr üçün uyğunlaşdırıla bilər", - deyə Layla Al Hadrami vurğulayıb.

# Görüş yeri dəyişmədi

## "Bakı-Ekspo" Mərkəzi qlobal enerji şirkətlərinin ənənəvi ünvanıdır

"Bakı-Ekspo" Mərkəzi növbəti dəfə dünyanın enerji sənayesinin diqqət mərkəzinə çevrilərək qapılarını ziyarətçilərin üzünə açıb. İyunun 1-dən fəaliyyətə başlayan 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi ("Caspian Oil and Gas") və 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi ("Caspian Power") keçmişin uğurlarını, bu günün gücünü və sabahın potensialını eyni platformada birləşdirən mühüm beynəlxalq tədbir kimi diqqət çəkir. Dünyanın müxtəlif ölkələrindən gələn nümayəndələri, aparıcı şirkətləri və sahə mütəxəssislərini bir araya gətirən bu mötəbər platformada enerji sektorunun ümdə məsələləri müzakirə olunur, yeni əməkdaşlıqların əsası qoyulur.













Sərginin rəsmi açılışı ilə başlayan bu beynəlxalq enerji platforması öz atmosferi və təqdim etdiyi mənzərəsi ilə xüsusi diqqət çəkir. Burada hər stend, hər təqdimat, hər fikir bir tarix danışır. İllər öncə sərginin ilk addımlarından başlayan yol bu gün enerjinin qloballaşan dilinə çevrilib. Sərgi mərkəzinə ayaq basandan etibarən insanı özünə çəkən bir enerji atmosferi hiss olunur. Sanki burada təkcə cihazlar və texnologiyalar deyil, eyni zamanda ideyalar, məqsədlər və gələcək üçün qurulan ümidlər nümayiş olunur. İşıqlı stendlər, interaktiv ekranlar, canlı təqdimatlar və dünyanın dörd bir yanından gələn iştirakçıların səmimi dialoqları tədbiri adi bir sərgidən fərqləndirir.

44 ölkədən 274 şirkətin iştirak etdiyi tədbir sanki qitələri və mədəniyyətləri eyni məkanda görüşdürən böyük bir enerji körpüsü rolunu oynayır. Almaniyadan Yaponiyaya, ABŞ-dən Səudiyyə Ərəbistanına, Böyük Britaniyadan Çinə qədər uzanan geniş coğrafiya "Bakı-Ekspo" Mərkəzində qlobal enerji dialoqunun rəngarəng mənzərəsini yaradır. Milli pavilyonlarla təmsil olunan Almaniya və Rusiya isə bu beynəlxalq əməkdaşlıq xəritəsinə xüsusi çalar qatır. Ayrı-ayrı pavilyonlarda yalnız şirkətlər deyil, həm də yeni ideyalar, innovativ yanaşmalar və gələcəyə hesablanmış layihələr sərgilənir.

Tədbirin iştirakçıları, eləcə də tərəfdaşları və sponsorları sırasında ABB, "Acwa", "AZEL Systems LLC", "Baku Steel Company", BP, "ExxonMobil", "XRG", "Gap İnşaat", "GL", "Gran Tierra Energy", "Inpex", INTI, KPMG, "Kolin İnşaat", "Masdar", "MOL Group", SLB, "Umid Babek Operating Company (UBOC)", "TotalEnergies" və "Türkiye Petrolleri AO" kimi nüfuzlu şirkətlər yer alır. İştirakçıların 35 faizini təşkil edən yeni iştirakçı şirkətlər enerji sektorunun daim yenilənən və inkişaf edən xarakterini əks etdirir. Xarici şirkətlərin üstünlük təşkil etməsi Azərbaycanın enerji bazarına artan beynəlxalq marağın göstəricisidirsə, yerli müəssisələrin fəal iştirakı ölkənin bu sahədəki güclü potensialının və artan rolunun nümayişidir. Pavilyonlarda təqdim olunan qabaqcıl texnologiyalar regionda və dünyada enerji keçidinin nə qədər sürətlə irəlilədiyini aydın şəkildə əks etdirir.

Sərgidəki texnologiyalar arasında süni intellektlə idarə olunan qazma sistemləri, boru xətlərinin dronlarla monitorinqi və karbon emissiyalarının azaldılmasına yönəlmiş innovasiyalar xüsusi maraq doğurur. Hər guşə, hər stend, hər təqdimat enerji sektorunun gələcəyinə açılan bir pəncərə təsiri bağışlayır. Günəş panelləri, külək turbinləri, rəqəmsal idarəetmə sistemləri və "ağıllı şəbəkə" konsepsiyaları sərginin əsas mövzuları sırasında yer alır. Böyük ekranlarda əks olunan rəqəmlər, qrafiklər və modellər sabahın enerji xəritəsini göz önündə canlandırır. Burada məhsullar və texnologiyalarla yanaşı, ideyalar, baxışlar və gələcəyə dair hədəflər də nümayiş olunur.

Dünyanın müxtəlif ölkələrindən gələn şirkətlərin nümayəndələri öz uğurlarını təqdim etməklə yanaşı, enerji keçidi, dayanıqlılıq və innovasiya ilə bağlı baxışlarını da bölüşürlər. Sərgi salonunda addımladıqca adama elə gəlir ki, burada hər məmulatın, hər detalın öz hekayəsi var. Bu hekayələr insan zəkasının, mühəndis düşüncəsinin, yeniliyə olan marağın və gələcəyə inamın təcəssümüdür. Ziyarətçilər qısa zaman ərzində müxtəlif ölkələrin qabaqcıl texnoloji yenilikləri ilə tanış olur, interaktiv stendlərdə nümayiş etdirilən prosesləri yaxından izləyir, mütəxəssislərlə birbaşa ünsiyyət quraraq təcrübə mübadiləsi aparırlar. Hər görüş, hər söhbət və hər təqdimat yeni ideyaların ortaya çıxmasına zəmin yaradır.

Elə buradaca qeyd edək ki, 14-cü "Caspian Power"in pavilyonunda tamam fərqli bir ab-hava hökm sürür. Pavilyonda nümayiş etdirilən günəş panelləri, elektrik enerjisi ilə çalışan "ağıllı enerji" saxlama sistemləri və yerli startapların təqdim etdiyi innovativ mikroşəbəkə layihələri ziyarətçilərin xüsusi marağına səbəb olur. Buranın özəlliyi ondadır ki, təqdim olunan texnologiyalar yalnız gələcəyin konsepsiyası kimi deyil, artıq bu gündən tətbiq edilən real layihələr kimi nümayiş etdirilir. Ona görə də ziyarətçiləri düşündürən əsas məsələ texnologiyanın özü deyil, onun yaratdığı imkanlardır. Yerli və beynəlxalq şirkətlərin təqdim etdiyi "yaşıl layihə"lər, "ağıllı şəbəkə"lər gələcəyin enerjisinə atılan real və praktiki addımlar kimi təqdim olunur. Daha təmiz hava, daha təhlükəsiz enerji təminatı və daha dayanıqlı gələcək naminə atılan addımlar "Caspian Power" pavilyonunu, sadəcə, sərgi məkanı deyil, gələcəyin enerji modelinin nümayiş olunduğu canlı platformaya çevirir.

Günboyu keçirilən panel sessiyalar isə sərginin intellektual çəkisini artırır. Enerji keçidi, rəqəmsallaşma, yeni bazar modelləri - bütün bu mövzular dünyanın aparıcı enerji beyinləri tərəfindən müzakirə edilir. Sessiyalarda müxtəlif ölkələrdən gələn mütəxəssislər təkcə texnologiya haqqında danışmır, həm də ortaq gələcəyə dair strateji baxışlar səsləndirirlər. Bu da o deməkdir ki, sərgiyə evsahibliyi edən ölkəmiz tədbirdə həm də biliklərin, təcrübələrin və qlobal dialoqun təşəbbüskarı kimi çıxış edir. Çünki enerji təkcə hasil olunan resurs deyil, həm də paylaşılacaq məsuliyyətdir. Gələcək çox da uzaqda deyil, o buradadır - bu zalda, bu baxışlarda, bu təşəbbüslərdə.

Bəlkə də indi sərgi salonunda maraqla ətrafı izləyən gənc mühəndis gördüyü bir yenilikdən ilham alaraq sabah enerji sektorunun aparıcı simalarından birinə çevriləcək. Bəlkə də burada səsləndirilən bir fikir və ya təqdim olunan bir layihə beynəlxalq əməkdaşlığın yeni istiqamətini müəyyənləşdirəcək. Məhz buna görə "Bakı Enerji Həftəsi" təkcə texnologiyaların nümayiş olunduğu platforma deyil, həm də gələcəyin formalaşdığı, ideyaların gerçəyə çevrilməyə başladığı bir məkandır.

*Züleyxa ƏLİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# WUF13 Azərbaycanın uğurlu iqtisadi inkişafını beynəlxalq aləmə təqdim etdi



**Müasir şəhərsalma işinin əsas prioritetləri məxsusi olaraq insanların həyat keyfiyyətinin yüksəldilməsinə, ekoloji davamlılığa, inklüzivliyə və iqtisadi səmərəliliyə xidmət edir. Bu işin ictimai önəmi də, siyasi istiqaməti də məhz insan amilinə əsaslanır. Mövzunun mahiyyətini tam açmaq, insan resurslarını ictimai örnəklər kimi təqdim etmək məqsədilə təşkil olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının növbəti ünvanı isə Bakı oldu.**

Bakının yenə diqqət mərkəzində olduğunu qeyd edən **Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə ƏLİYEVA** qəzetimizə açıqlamasında dedi ki, Ümumdünya Şəhərsalma Forumu dünya miqyasında böyük maraq və diqqətlə qarşılandı. Forumda 176 ölkədən 58 mindən artıq insanın iştirakı tədbirin yüksək beynəlxalq nüfuzunu və Azərbaycanın qlobal platformalarda getdikcə artan rolunu aydın şəkildə nümayiş etdirdi. "Nəzərə alaq ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası COP29-dan sonra ölkəmizin evsahibliyi etdiyi ikinci ən böyük beynəlxalq tədbirdir. Bununla Azərbaycanın beynəlxalq əməkdaşlıq məkanında artan siyasi çəkisi bir qədər aydın göründü və bütün bu uğurların əsasında dövlətimizin iqtisadi inkişafı dayanır. Bu həm də onu ifadə edir ki, ölkəmiz beynəlxalq siyasi, iqtisadi və humanitar platformalarda etibarlı tərəfdaş, mühüm təşəbbüslərin müəllifi və nüfuzlu təşkilatçıdır", - deyə o bildirib.

Ekspert bildirdi ki, Prezident İlham Əliyev forumda çıxışında dünyanı narahat edən bir sıra məsələlərə diqqət çəkdi, müasir şəhərsalma siyasətinin əsas istiqamətlərini, Azərbaycanın urbanizasiya təcrübəsini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı.

K.Əliyeva qeyd etdi ki, Azərbaycan coğrafi və mədəni baxımdan Şərqlə Qərbin qovşağında yerləşir: "Prezident İlham Əliyev də çıxışında bu prosesin böyük önəm kəsb etdiyini xüsusi vurğuladı və fikrini belə açıqladı: "Bu unikal xüsusiyyət ölkəmizin memarlığında və şəhərsalma ənənələrində aydın şəkildə öz əksini tapır. Bakının timsalında qədimliklə müasirliyin harmonik vəhdəti açıq şəkildə müşahidə olunur. İçərişəhər kimi qədim memarlıq məkanları ilə müasir urbanizasiya layihələrinin yanaşı mövcudluğu Azərbaycanın tarixi irsə həssas və məsuliyyətli münasibətinin bariz nümunəsidir. Vaxtilə cəmi üç kilometr uzunluğunda olan Bakı bulvarının bu gün 15 kilometrdən artıq ərazini əhatə etməsi isə paytaxtın müasir inkişaf modelinin və uğurlu şəhərsalma siyasətinin simvoluna çevrilib. Qədim Azərbaycan memarlığı yalnız estetik deyil, eyni zamanda funksional xarakter daşıyır. Lahıc kəndində yüz illər əvvəl yaradılmış kanalizasiya və su sistemlərinin bu gün də işlək vəziyyətdə olması əcdadlarımızın yüksək mühəndislik təfəkkürünün, texniki biliklərinin və uzaqgörən şəhərsalma mədəniyyətinin nadir nümunəsidir. Bu fakt Azərbaycan xalqının qədim dövrlərdən etibarən şəhərsalma və memarlıq sahəsində yüksək inkişaf səviyyəsinə malik olduğunu bir daha təsdiqləyir". Ümumdünya Şəhərsalma Forumu bir daha nümayiş etdirdi ki, Azərbaycan yalnız regionun deyil, bütövlükdə beynəlxalq məkanın mühüm şəhərsalma, urbanizasiya və davamlı inkişaf mərkəzlərindən birinə çevrilib. Elə əvvəlki illərdə - Ümummilli Lider Heydər Əliyevin də başlatdığı qlobal proqramların hamısı məhz bu prosesə yönəldilmişdi. O dövrdə də dahi rəhbərin həyata keçirdiyi bütün layihələr insanların rifahının yüksəldilməsinə, tarixi yaddaşın qorunmasına və gələcək nəsillər üçün sağlam urbanizasiya mühitinin yaradılmasına xidmət edirdi".

Kafedra müdiri bildirdi ki, Bakıdakı sessiyada WUF13-ün əsas müzakirə istiqamətləri mənzil və şəhər inkişafı məsələlərinə görə cavabdehlik, daha inklüziv və iqlimədavamlı şəhər və icmalar yaratmaq cəhdləri, mənzil təminatının əsas prioritet kimi ön plana çəkilməsi, şəhərlərin gələcəyinə dair strateji prioritetləri müəyyənləşdirmək, beynəlxalq əməkdaşlığı gücləndirmək, yeni şəhərsalma gündəliyinə töhfə vermək oldu. Bu istiqamətlərin hamısı 17-22 may tarixlərində Bakıda keçirilən sessiyada hər kəsin diqqətinə çatdırıldı.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" mərkəzinə çevrilir

Azərbaycan son onillikdə enerji siyasətində yeni mərhələyə qədəm qoyub. Ölkəmiz bir tərəfdən neft və qaz ehtiyatlarından səmərəli istifadə etməklə enerji təhlükəsizliyini və iqtisadi inkişafını təmin edir, digər tərəfdən isə bərpaolunan enerji mənbələrinin inkişafını sürətləndirərək qlobal enerji keçidinin fəal iştirakçısına çevrilir. Bu istiqamətdə həyata keçirilən layihələrin bir hissəsi işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında cəmləşib. Təbii resurslarla zəngin olan bu ərazilər Azərbaycanın "yaşıl enerji" strategiyasının əsas dayaqlarından biri kimi formalaşır.

Azərbaycanın enerji sahəsində qazandığı uğurların təməlində uzun illər ərzində formalaşdırılmış strateji yanaşma dayanır. Ölkəmizin iqtisadi inkişafında əsas rol oynayan neft və qaz sektoru bu gün də mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, enerji bazarlarında baş verən dəyişikliklər, iqlim dəyişikliyi ilə bağlı qlobal çağırışlar və karbon emissiyalarının azaldılması istiqamətində beynəlxalq öhdəliklər Azərbaycanın enerji siyasətinə yeni istiqamətlər əlavə edib.

"Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən tədbirlər Azərbaycanın enerji sahəsində keçdiyi yolu və gələcək hədəflərini nümayiş etdirən mühüm platformaya çevrilib. Vaxtilə Xəzər Neft və Qaz Sərgisi kimi fəaliyyətə başlayan bu təşəbbüs illər ərzində genişlənərək qlobal enerji gündəliyinin vacib müzakirə platformalarından birinə çevrilib. Bu gün "Bakı Enerji Həftəsi" təkcə neft və qaz sənayesini deyil, həm də təmiz enerji texnologiyalarını, "yaşıl iqtisadiyyat" layihələrini və beynəlxalq enerji əməkdaşlığını əhatə edən nüfuzlu tədbir kimi tanınır.

İyunun 1-də "Bakı-Ekspo" Mərkəzində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"unun rəsmi açılış mərasimində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin enerji siyasətinin fəlsəfəsini aydın şəkildə ifadə edib. Dövlət başçısı bildirib ki, hər bir ölkə öz təbii sərvətlərindən inkişaf naminə istifadə edir və Azərbaycan üçün də müstəqilliyin ilk illərində neft və qaz ehtiyatları iqtisadi sabitliyin təmin olunmasında mühüm rol oynayıb. Prezident vurğulayıb ki, ölkələrə sahib olduqları resurslara görə deyil, həmin resurslardan əldə olunan gəlirləri necə idarə etdiklərinə görə qiymət verilməlidir. Azərbaycan enerji gəlirlərini infrastrukturun inkişafına, sosial rifahın yüksəldilməsinə və "yaşıl enerji" layihələrinə yönəltməklə bu sahədə uğurlu model formalaşdırıb.

Bu gün Azərbaycanın "yaşıl enerji" siyasətində Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" potensialı xüsusi yer tutur. İşğaldan azad edilmiş torpaqlarda quruculuq işləri ən müasir ekoloji standartlar əsasında həyata keçirilir. Məqsəd yalnız dağıdılmış yaşayış məntəqələrinin bərpası deyil, eyni zamanda gələcəyin "ağıllı" və dayanıqlı yaşayış məkanlarının yaradılmasıdır. Bu ərazilərin "yaşıl enerji" zonası elan edilməsi təsadüfi deyil. Konsepsiyanın ən uğurlu nümunələrindən biri Zəngilan rayonunun Ağalı kəndidir. Burada elektrik enerjisinin istehsalında günəş panelləri, Arximed turbinləri və istilik nasosları kimi müasir texnologiyalardan istifadə olunur. Kəndin enerji təminatında bərpaolunan mənbələrin tətbiqi göstərir ki, Azərbaycan azad edilmiş ərazilərdə ənənəvi yanaşmalardan deyil, innovativ və ekoloji cəhətdən dayanıqlı həllərdən istifadə etməyə üstünlük verir.

Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" potensialı olduqca böyükdür. Aparılmış hesablamalar göstərir ki, region həm günəş, həm külək, həm də hidroenerji ehtiyatları baxımından ölkənin ən perspektivli ərazilərindən biridir. Xüsusilə Cəbrayıl, Qubadlı, Zəngilan və Füzuli rayonları günəş radiasiyasının yüksək olması ilə seçilir. Bu amil irihəcmli günəş-elektrik stansiyalarının qurulması üçün əlverişli şərait yaradır.

Hazırda Cəbrayıl rayonunda ümumi gücü 340 meqavat olan üç günəş-elektrik stansiyasının inşası davam edir. Bunlardan biri 240 meqavat gücündə olmaqla azad edilmiş ərazilərdə həyata keçirilən ilk iri sənaye miqyaslı "yaşıl enerji" layihələrindən hesab olunur. Bu stansiyanın istifadəyə verilməsindən sonra hər il yüz milyonlarla kilovat-saat elektrik enerjisi istehsal ediləcəyi gözlənilir. İstehsal olunacaq enerji həm ölkənin daxili tələbatının ödənilməsinə xidmət edəcək, həm də təbii qazın daxili istehlakdan azad edilərək ixrac imkanlarının genişləndirilməsinə şərait yaradacaq.

Külək enerjisi sahəsində də perspektivlər kifayət qədər genişdir. Laçın və Kəlbəcər rayonlarının yüksək dağlıq əraziləri əlverişli külək şəraiti ilə seçilir. Aparılmış araşdırmalar bu bölgədə təxminən 2000 meqavatlıq külək enerjisi potensialının olduğunu göstərir. Bu imkanların reallaşdırılması istiqamətində beynəlxalq tərəfdaşlarla əməkdaşlıq həyata keçirilir. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə imzalanmış sazişlər çərçivəsində Kəlbəcər-Laçın zonasında 100 meqavat gücündə külək-elektrik stansiyasının tikilməsi planlaşdırılır. Layihə reallaşdıqdan sonra regionun enerji balansında bərpaolunan mənbələrin payı daha da artacaq.

Qarabağ və Şərqi Zəngəzurun ən mühüm üstünlüklərindən biri isə zəngin hidroenerji ehtiyatlarıdır. Dağlıq relyef, çoxsaylı çaylar və su hövzələri bölgədə kiçik və orta güclü su-elektrik stansiyalarının qurulması üçün geniş imkanlar yaradıb. Son illərdə bu istiqamətdə mühüm nailiyyətlər əldə olunub. İşğaldan azad edilmiş ərazilərdə ümumi gücü 300 meqavatdan çox olan su-elektrik stansiyaları istismara verilib.

"Yaşıl enerji" layihələrinin uğuru yalnız istehsal güclərinin artırılması ilə məhdudlaşmır. İstehsal olunan enerjinin səmərəli şəkildə şəbəkəyə inteqrasiyası və ötürülməsi də mühüm əhəmiyyət daşıyır. Bu məqsədlə azad edilmiş ərazilərdə müasir enerji infrastrukturu yaradılır. "Cəbrayıl" qovşaq yarımstansiyası və digər enerji obyektləri regionun həm ölkədaxili enerji sisteminə, həm də beynəlxalq enerji dəhlizlərinə inteqrasiyasını təmin edir. Bu infrastruktur gələcəkdə "yaşıl enerji"nin ixracı üçün də mühüm baza rolunu oynayacaq.

Azərbaycanın "yaşıl enerji" sahəsində qarşıya qoyduğu hədəflər böyükdür. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, gələn ilin sonunadək ölkədə günəş və külək enerjisi üzrə ümumi quraşdırılmış gücün 2 giqavata çatdırılması nəzərdə tutulur. 2032-ci ilin sonunadək isə bu göstəricinin 8 giqavat səviyyəsinə yüksələcəyi gözlənilir.

Bu layihələrin iqtisadi əhəmiyyəti də böyükdür. Təmiz enerji istehsalının artması nəticəsində ölkənin daxili bazarında daha az təbii qaz istifadə olunacaq. Azad edilən qaz həcmləri isə ixraca yönəldilərək əlavə gəlir mənbəyi yaradacaq. Digər tərəfdən "yaşıl enerji" layihələri bölgədə yeni iş yerlərinin açılmasına, yerli iqtisadi fəallığın artmasına və müasir texnologiyaların tətbiqinə şərait yaradır.

Ekoloji baxımdan da əldə ediləcək nəticələr əhəmiyyətlidir. Bərpaolunan enerji mənbələrinin payının artması karbon emissiyalarının azalmasına, iqlim dəyişikliyinin mənfi təsirlərinin məhdudlaşdırılmasına və ətraf mühitin qorunmasına xidmət edir. Bu isə Azərbaycanın beynəlxalq ekoloji öhdəliklərinin yerinə yetirilməsinə və qlobal iqlim təşəbbüslərində daha fəal iştirakına imkan yaradır.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr təkcə regionun bərpası deyil, həm də Azərbaycanın gələcək inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Burada qurulan enerji infrastrukturu, tətbiq edilən innovativ texnologiyalar və reallaşdırılan iri investisiya layihələri ölkənin "yaşıl iqtisadiyyat"a keçid prosesinin əsas elementləridir.

Azərbaycan enerji keçidini tədricən və balanslı şəkildə həyata keçirir. Mövcud karbohidrogen ehtiyatlarından əldə edilən gəlirlər "yaşıl enerji" layihələrinin maliyyələşdirilməsinə yönəldilir, yeni enerji mənbələri isə ölkənin iqtisadi dayanıqlığını daha da gücləndirir. Qarabağ və Şərqi Zəngəzurda aparılan işlər göstərir ki, yaxın illərdə Azərbaycan yalnız neft və qaz ixracatçısı kimi deyil, həm də təmiz enerji istehsalçısı və ixracatçısı kimi regionun aparıcı dövlətinə çevriləcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 2 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Milli Kibertəhlükəsizlik Agentliyinin NİZAMNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində Milli Kibertəhlükəsizlik Agentliyi (bundan sonra - Agentlik) ölkədə kibertəhlükəsizlik sahəsində tənzimləmənin və nəzarətin (kritik informasiya infrastrukturlarına, dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə yalnız məlumat mübadiləsinin) həyata keçirilməsini, həmçinin dayanıqlılığın artırılmasını, o cümlədən informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasını, informasiya infrastrukturlarının kibertəhlükəsizliyinin pozulmasına yönəlmiş hərəkətləri aşkarlamaq, araşdırmaq və qarşısını almaq üçün preventiv tədbirlər görülməsini (dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturları, eləcə də kritik informasiya infrastrukturları istisna olmaqla), mövcud və yarana biləcək kibertəhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanı, əhalinin, dövlət və qeyri-dövlət qurumlarının (bundan sonra - istifadəçilər) kibertəhlükəsizlik sahəsində maarifləndirilməsini və onlara metodiki dəstək göstərilməsini təmin edən (ali kateqoriya dövlət orqanlarına, mühafizə olunan şəxslərə, qorunan və strateji obyektlərə, habelə dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə aidiyyəti səlahiyyətli orqan vasitəsilə, kritik informasiya infrastrukturunun təhlükəsizliyinə münasibətdə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan vasitəsilə), habelə yayılması qadağan edilən informasiyanın internet informasiya ehtiyatlarında yerləşdirilməsinə qarşı tədbirlər görən və fərdi məlumatların mühafizəsi sahəsində (bundan sonra - müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, həmçinin digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentlik ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Agentlik bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Agentliyin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, üzərində öz adı və "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, müvafiq ştampları, loqotipi (emblemi) və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, Agentliyin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Agentlik məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. Agentliyin rəsmi adı aşağıdakı kimidir:

1.7.1. tam halda - "Milli Kibertəhlükəsizlik Agentliyi" publik hüquqi şəxs, qısaldılmış halda - MKA;

1.7.2. ingilis dilində tam halda - National Cybersecurity Agency, qısaldılmış halda - NCA.

1.8. Agentlik Bakı şəhərində yerləşir.

## 2. Agentliyin fəaliyyət istiqamətləri

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.2. müvafiq sahədə fəaliyyətin normativ hüquqi aktlara uyğun olaraq təşkilini, əlaqələndirilməsini, tənzimləməni və qüvvədə olan normativ hüquqi aktlara əməl edilməsinə nəzarəti həyata keçirmək;

2.1.3. kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətini koordinasiya (kritik informasiya infrastrukturlarına, dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə yalnız məlumat mübadiləsini) etmək;

2.1.4. ölkə üzrə informasiya infrastrukturlarının kibertəhlükəsizliyinin pozulmasına yönəldilmiş hərəkətlərin aşkarlanması, araşdırılması və qarşısının alınması üçün aidiyyəti qurumlarla birlikdə preventiv tədbirlər görmək;

2.1.5. informasiya sistemlərinin və şəbəkələrinin, kompüter avadanlıqlarının və onların proqram təminatının, lokal və korporativ informasiya sistemlərinin və ehtiyatlarının təhlükəsizliyinə qarşı yönəldilmiş kiberhücumlar, kibertəhdidlər, baş vermiş kiberinsidentlər, qanunsuz müdaxilələr, ziyanverici proqramlar (bundan sonra -kibertəhlükələr) barədə dövlət orqanlarından (qurumlarından), sahəvi kompüter insidentlərinə qarşı mübarizə mərkəzlərindən, istifadəçilərdən, proqram təminatı və texniki avadanlıqları istehsalçılarından, xarici ölkələrdəki analoji strukturlardan və digər mənbələrdən daxil olan məlumatları toplamaq və təhlil etmək (kritik informasiya infrastrukturunun təhlükəsizliyinə münasibətdə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan vasitəsilə);

2.1.6. mövcud və yarana biləcək kibertəhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanı həyata keçirmək, istifadəçilərin kibertəhlükəsizlik sahəsində maarifləndirilməsini və onlara metodiki dəstək göstərilməsini təmin etmək (ali kateqoriya dövlət orqanlarına, mühafizə olunan şəxslərə, qorunan və strateji obyektlərə, habelə dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə aidiyyəti səlahiyyətli orqan vasitəsilə, kritik informasiya infrastrukturunun təhlükəsizliyinə münasibətdə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan vasitəsilə);

2.1.7. müvafiq sahə üzrə tövsiyələr vermək;

2.1.8. müvafiq sahə üzrə hazırlığı təmin etmək məqsədilə ölkədə və Azərbaycan Respublikasının hüdudlarından kənarda fəaliyyət göstərən digər aidiyyəti qurumlarla əməkdaşlıq etmək;

2.1.9. yayılması qadağan edilən informasiyanın internet informasiya ehtiyatlarında yerləşdirilməsi halları ilə bağlı qanunla müəyyən edilmiş tədbirlər görmək;

2.1.10. fərdi məlumatların qanunsuz toplanılması, işlənilməsi və mühafizəsinin təmin edilməməsi halları ilə bağlı tədbirlər görmək;

2.1.11. müvafiq sahədə fəaliyyətin təkmilləşdirilməsi, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması, habelə innovativ ideya və layihələrin dəstəklənməsi məqsədilə aidiyyəti qurumlarla birlikdə müvafiq tədbirlər görmək;

2.1.12. müvafiq sahə üzrə dövlət-özəl tərəfdaşlığının inkişafı və təşviqi üçün tədbirlər görmək;

2.1.13. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Agentliyin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənən və Agentliyin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.3. "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununda və digər normativ hüquqi aktlarda nəzərdə tutulan hallarda və qaydada hüquqmüəyyənedici sənədlər vermək;

3.1.4. müvafiq sahədə qüvvədə olan normativ hüquqi aktlara əməl edilməsinə öz səlahiyyətləri çərçivəsində nəzarəti həyata keçirmək;

3.1.5. ölkədə ümumi kibertəhlükəsizlik vəziyyətini mütəmadi təhlil etmək, kibertəhlükəsizlik sahəsində ölkədə fəaliyyət göstərən informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasını (kritik informasiya infrastrukturlarına, dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə yalnız məlumat mübadiləsini) həyata keçirmək, istifadəçilərin kibertəhlükəsizlik sahəsində maarifləndirilməsini və onlara metodiki dəstək göstərilməsini təmin etmək (ali kateqoriya dövlət orqanlarına, mühafizə olunan şəxslərə, qorunan və strateji obyektlərə, habelə dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə aidiyyəti səlahiyyətli orqan vasitəsilə, kritik informasiya infrastrukturunun təhlükəsizliyinə münasibətdə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan vasitəsilə);

3.1.6. ölkədə kibertəhlükəsizlik sahəsində koordinasiyanı (kritik informasiya infrastrukturlarına, dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə yalnız məlumat mübadiləsini) və preventiv tədbirlərin görülməsini, habelə kibertəhlükələr barədə məlumatların toplanılmasını və araşdırılmasını, eləcə də ölkə üzrə digər informasiya infrastrukturlarının kibertəhlükəsizliyinin pozulmasına yönəldilmiş hərəkətlərin aşkarlanmasını, araşdırılmasını və qarşısının alınmasını təmin edən milli kompüter insidentlərinə qarşı mübarizə mərkəzinin fəaliyyətini təşkil etmək, milli və sahəvi kompüter insidentlərinə qarşı mübarizə mərkəzləri arasında vahid məlumatlandırma mexanizmlərini müəyyən etmək;

3.1.7. aidiyyəti qurumlardan, digər ölkələrin analoji qurumlarından, beynəlxalq təşkilatlardan, habelə fiziki və hüquqi şəxslərdən baş vermiş kibertəhlükələr və kiberinsidentlər barədə məlumatlar əldə etmək, toplamaq, həmçinin məlumatların tamlığını (dəqiq, səlis, aktual və bütöv olmasını) və əlçatanlığını (müraciətin, əldə etmənin, nəzarətdə saxlamanın mümkün olması) təmin etmək üçün tədbirlər görmək;

3.1.8. ümumi internet trafikində qlobal kiberhücumların qarşısını almaq məqsədilə telekommunikasiya operatoru və provayderi ilə birlikdə Nazirliklə razılaşdırılmış qabaqlayıcı tədbirlər həyata keçirmək;

3.1.9. istifadəçilərdən, proqram təminatı və texniki avadanlıqları istehsalçılarından, yerli və xarici ölkələrin kompüter insidentlərinə qarşı mübarizə mərkəzlərindən, xarici və digər mənbələrdən kibertəhlükələr və onların qarşısının alınması üçün tətbiq edilən proqram, texniki vasitələr haqqında daxil olan məlumatları toplamaq və təhlil etmək;

3.1.10. televiziya və radio yayımlarına, peyk sistemlərinin fəaliyyətinə maneə törətməyə yönəldilmiş kibertəhlükələrin müəyyən edilməsi ilə bağlı daxil olan müraciətləri araşdırmaq və müvafiq tədbirlər görmək;

3.1.11. kibertəhlükəsizliyin təmin edilməsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və təhlili əsasında kibertəhlükələr, kibertəhlükəsizliyin təmin edilməsi üçün yararlı üsul və vasitələr, həmçinin açıq kodlu proqramlar barədə ölkə səviyyəsində məlumatlandırmanı (kritik informasiya infrastrukturunun təhlükəsizliyinə münasibətdə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan vasitəsilə) həyata keçirmək, informasiya sistemlərinə və ehtiyatlarına qanunsuz müdaxilə hallarının qarşısının alınmasını təmin edən səmərəli proqramın, texniki vasitələrin seçilməsinə və tətbiqinə dair bülletenlər, tövsiyələr hazırlamaq;

3.1.12. istifadəçilərə qarşı kibertəhlükələrin qarşısının alınması, baş vermiş kiberhücumların mənbələrinin müəyyən edilməsi və müvafiq tədbirlərin həyata keçirilməsi məqsədilə onlar barədə məlumatlar toplamaq və saxlamaq, həmin məlumatların normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada mühafizəsini təmin etmək;

3.1.13. ölkədə istifadəçilər tərəfindən geniş istifadə olunan proqram təminatlarını və texniki avadanlıqları təhlükəsizlik baxımından təhlil etmək, onlarda aşkar olunmuş zəifliklərin aradan qaldırılması ilə bağlı tövsiyələr vermək;

3.1.14. müvafiq sahədə baş verə biləcək kibertəhlükələrdən qorunmaq üçün tətbiq edilən texnoloji yeniliklər, yeni yaranan kibertəhlükələr və onların reallaşdırılması üsullarını və vasitələrini təhlil etmək;

3.1.15. kibertəhlükəsizlik və fərdi məlumatların mühafizəsi sahələri üzrə illik statistik hesabatlar hazırlamaq və özünün rəsmi internet informasiya ehtiyatında dərc etmək;

3.1.16. baş vermiş kibertəhlükələr barədə məlumatların operativ qəbulunu təşkil etmək və müvafiq tədbirlər görmək;

3.1.17. ölkədə kibertəhlükəsizliyin səviyyəsinin artırılması məqsədilə Nazirliyə təkliflər vermək;

3.1.18. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə yayılması qadağan edilmiş informasiyanın yayılmasının monitorinqini aparmaq, nəticələrinə dair aidiyyəti dövlət orqanlarını (qurumlarını) məlumatlandırmaq;

3.1.19. kiberhücumların qarşısının alınması məqsədilə internet informasiya ehtiyatlarının (dövlət orqanlarının (qurumlarının) internet informasiya ehtiyatları istisna olmaqla) fəaliyyətinin monitorinqini aparmaq;

3.1.20. yayılması qadağan edilən informasiyanın internet informasiya ehtiyatında yerləşdirilməsi hallarını bilavasitə və ya fiziki, hüquqi şəxslərdən, yaxud dövlət orqanlarından (qurumlarından) daxil olmuş məlumatlar əsasında müəyyən etmək, bu barədə internet informasiya ehtiyatının və onun domen adının sahibinə, habelə host provayderə yazılı xəbərdarlıq etmək və onlardan bu cür halların aradan qaldırılması məqsədilə müvafiq tədbirlər görülməsini tələb etmək;

3.1.21. yayılması qadağan edilən informasiyanın yerləşdirildiyi internet informasiya ehtiyatına müraciətin qanunla müəyyən edilmiş qaydada məhdudlaşdırılmasının həyata keçirilməsi ilə bağlı tədbirlər görmək və yayılması qadağan edilən informasiyanın yerləşdirildiyi informasiya ehtiyatlarının siyahısını aparmaq, həmin siyahının host və internet provayderlər tərəfindən əldə edilməsinə və onun tətbiqinə riayət edilməsinə nəzarəti həyata keçirmək;

3.1.22. Azərbaycan Respublikasında lotereya təşkilatçısının və (və ya) idman mərc oyunları operatorunun məlumatı əsasında, telekommunikasiya xidmətləri vasitəsilə qumar oyunlarının təşkilinin və keçirilməsinin, qumar oyunlarında iştirak üçün bilet satışının təşkilinin və (və ya) satışının, həmçinin qumar oyunlarında iştirakın, o cümlədən ölkə ərazisindən xarici lotereya təşkilatçılarının və idman mərc oyunları operatorlarının, habelə onların satıcılarının virtual mühitə çıxışlarının qarşısını almaq üçün qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini təmin etmək;

3.1.23. "Elektron ticarət haqqında" Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsində nəzərdə tutulan məlumatlarla alıcıların (sifarişçilərin) və səlahiyyətli dövlət orqanlarının (qurumlarının) tanış olmasına imkan yaratmadıqda, müvafiq satıcının ölkə ərazisində fəaliyyətinin məhdudlaşdırılmasını təmin etmək;

3.1.24. fərdi məlumatların qanunsuz toplanılması, işlənilməsi və mühafizəsinin təmin edilməməsi nəticəsində hüquqları pozulmuş subyektlərin şikayətlərinə baxmaq və onları araşdırmaq;

3.1.25. fərdi məlumatların informasiya ehtiyatlarının və sistemlərinin (ali kateqoriya dövlət orqanlarının, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanlarının, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin və dövlət sirrinə aid edilən fərdi məlumatların informasiya ehtiyatları və sistemləri istisna olmaqla) dövlət qeydiyyatını və dövlət reyestrini (bundan sonra - dövlət reyestri) aparmaq;

3.1.26. inzibati xəta əlamətləri aşkar etdikdə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, eləcə də cinayət əlamətləri olduqda aidiyyəti üzrə dövlət orqanlarına (qurumlarına) məlumat vermək;

3.1.27. fərdi məlumatların informasiya ehtiyatlarının və sistemlərinin (ali kateqoriya dövlət orqanlarının, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanlarının, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin və dövlət sirrinə aid edilən fərdi məlumatların informasiya ehtiyatları və sistemləri istisna olmaqla), habelə onların layihə sənədlərinin dövlət ekspertizasını təşkil etmək;

3.1.28. fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsi ilə məşğul olan dövlət orqanlarından (qurumlarından), hüquqi və fiziki şəxslərdən "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması hallarının aradan qaldırılmasını tələb etmək;

3.1.29. dövlət reyestrinə daxil edilmiş informasiya ehtiyatlarında və sistemlərində (ali kateqoriya dövlət orqanlarının, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanlarının, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin və dövlət sirrinə aid edilən fərdi məlumatların informasiya ehtiyatları və sistemləri istisna olmaqla) fərdi məlumatların toplanılmasının, işlənilməsinin və mühafizəsinin "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə, habelə məlumatların və onların işlənilmə üsullarının informasiya sisteminin bəyan olunmuş məqsədlərinə uyğunluğunu aidiyyəti dövlət orqanları ilə birlikdə yoxlamaq;

3.1.30. fərdi məlumatların mülkiyyətçi və operatorlarının sifarişlərinə əsasən fərdi məlumatların toplanılmasının, işlənilməsinin və mühafizəsinin təşkilati və texniki cəhətdən normativ hüquqi aktların tələblərinə uyğun aparılmasının auditini həyata keçirmək;

3.1.31. fərdi məlumatların mülkiyyətçi və operatorlarının rəsmi müraciətinə əsasən, fərdi məlumatlar haqqında normativ hüquqi aktların tətbiqi ilə bağlı məsələləri izah etmək;

3.1.32. fərdi məlumatların mühafizəsi sahəsində mülkiyyətçi və operatorların öhdəlikləri ilə bağlı məlumatlılığın artırılması üçün tədbirlər həyata keçirmək;

3.1.33. fərdi məlumatların mühafizəsi sahəsində fərdi məlumat subyektlərinin hüquqları üzrə maarifləndirilməsini həyata keçirmək;

3.1.34. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci və 14.2-ci maddələrinə uyğun olaraq, internet informasiya ehtiyatları vasitəsilə yayımlanan kino, televiziya və videofilmlərin (o cümlədən animasiya filmlərinin), kompüter oyunlarının və digər elektron oyunların işarələnmədiyi, yaxud həmin Qanunun tələblərini pozmaqla işarələndiyi barədə məlumat əldə etdikdə, bu informasiya məhsullarının ekspertizasını təşkil etmək;

3.1.35. dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.36. müvafiq sahədə elektron xidmətləri "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa və "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.37. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.38. müvafiq sahədə dövlət-özəl tərəfdaşlığının inkişafı və təşviqi üçün tədbirlər görmək, habelə normativ hüquqi aktlara uyğun olaraq dövlət-özəl tərəfdaşlığı layihələrinin özəl investisiyaların cəlb edilməsi yolu ilə həyata keçirilməsi məqsədilə tədbirlər görmək;

3.1.39. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Agentlik əməkdaşlarının əlavə təhsilinin və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.40. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin internet informasiya ehtiyatında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.41. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.42. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.43. Agentliyinin formasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.44. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.45. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.46. müvafiq sahədə peşəkar mütəxəssislərin hazırlanması və mövcud kadr potensialının artırılması, bu sahədə tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək;

3.1.47. müvafiq sahədə ixtisaslı kadrlara dair məlumat bazası formalaşdırmaq;

3.1.48. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin hazırlanması, qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə Nazirliyə təkliflər vermək;

3.2.3. müvafiq sahədə proqram təminatı və texniki avadanlıq istehsalçıları ilə, eləcə də beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.4. informasiya sistemlərinə və şəbəkələrinə, kompüter avadanlıqlarına və onların proqram təminatına qarşı yönəldilmiş və ya yönəldilə biləcək kibertəhlükələr barədə sahəvi kompüter insidentlərinə qarşı mübarizə mərkəzlərinə və informasiya infrastrukturu subyektlərinə müraciət etmək;

3.2.5. müvafiq sahədə Azərbaycan Respublikasında fəaliyyət göstərən kompüter insidentlərinə qarşı mübarizə mərkəzlərindən normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun olaraq kibertəhlükələr və onların nəticələri barədə operativ məlumat almaq, o cümlədən real vaxt rejimində məlumat mübadiləsi aparmaq;

3.2.6. müvafiq sahədə fəaliyyət göstərən yerli və xarici ekspertləri cəlb etməklə, mütəxəssislərin hazırlıq səviyyəsinin yüksəldilməsi üçün təlimlər, seminarlar təşkil etmək, həmçinin onların tərtibi ilə bağlı təkliflər vermək və həyata keçirilməsində iştirak etmək;

3.2.7. müvafiq sahədə normativ hüquqi aktlarda nəzərdə tutulmuş hallarda yoxlamalar aparmaq, icrası məcburi olan göstərişlər vermək və bundan irəli gələn digər tədbirlər görmək;

3.2.8. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq,işçi qruplar və komissiyalar yaratmaq;

3.2.9. vəzifələrinin icrası ilə əlaqədar dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, sahəvi kompüter insidentlərinə qarşı mübarizə mərkəzlərinə, hüquqi və fiziki şəxslərə, o cümlədən telekommunikasiya operatorlarına və provayderlərinə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.10. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.11. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.12. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.13. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.14. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.15. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.16. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 4. Agentliyin idarə olunması

4.1. Agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Agentliyin idarəetmə orqanı onun İdarə Heyətidir.

4.3. Agentliyə ümumi rəhbərliyi və nəzarəti İdarə Heyəti həyata keçirir. İdarə Heyətinin tərkibi 4 (dörd) üzvdən - Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədrindən və onun 3 (üç) müavinindən ibarətdir.

4.4. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icrasını İdarə Heyəti sədrinin müəyyən etdiyi müavinlərindən biri həyata keçirir.

4.5. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.5.1. Agentliyin fəaliyyətini təşkil etmək və onun fəaliyyətinə nəzarət etmək;

4.5.2. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Nazirliyə təkliflər vermək və sənədlər (o cümlədən Agentliyin illik maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.5.3. Agentliyin strateji məqsəd və planlarını müəyyən etmək, inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün Nazirliyə təkliflər vermək;

4.5.4. Agentliyin strukturunun, əməyin ödənişi fondunun, işçilərin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin təsdiq edilməsi, o cümlədən Agentliyin əldə etdiyi vəsait hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sisteminin müəyyənləşdirilməsi məqsədilə Nazirliyə təkliflər vermək;

4.5.5. Nazirliyin razılığı ilə Agentliyin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Agentliyin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.5.6. Nazirliyin razılığı ilə Agentliyin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.5.7. Agentliyin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqların toqquşmasının istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini Nazirliklə razılaşdırmaqla təsdiq etmək;

4.5.8. Agentliyin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.5.9. Nazirliyin razılığı ilə Agentliyin kənar auditorunu təyin etmək və onun audit hesabatını qəbul etmək;

4.5.10. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.5.11. Agentliyin daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə Nazirliyin razılığı ilə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.5.12. Nazirliyin razılığı ilə Agentliyin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.5.13. Agentliyin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizi və daha az hissəsi məbləğində olan əqdin, eləcə də aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 (beş) faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.5.14. Agentliyin strateji məqsəd və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.5.15. bu Nizamnamənin 3.1.41-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.5.16. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.5.17. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.5.18. Agentliyin fəaliyyəti ilə əlaqədar İdarə Heyəti sədrinin və ya təsisçinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4.6. İdarə Heyətinin sədri ayda azı 1(bir) dəfə İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.7. İdarə Heyətinin iclasının nəticəsi İdarə Heyəti üzvlərinin və katibinin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir.

4.8. İdarə Heyətinin üzvlərinə, habelə İdarə Heyətinin iclaslarına dəvət olunan şəxslərə İdarə Heyətinin iclaslarının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.9. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.10. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.11. İdarə Heyətinin sədri:

4.11.1. Agentliyin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.11.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclasların gündəliyini müəyyənləşdirir və iclaslara sədrlik edir;

4.11.3. öz təşəbbüsü, İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.11.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.11.5. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.11.6. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.11.7. özünün və Agentliyin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.11.8. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını Nazirliklə razılaşdırmaqla təsdiq edir;

4.11.9. Agentliyin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.11.10. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Agentliyin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

4.11.11. Agentliyin əmlakından onun Nizamnaməsində nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.11.12. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Agentliyin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.11.13. Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.11.14. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.11.15. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.11.16. Agentlikdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.12. İdarə Heyətinin üzvləri:

4.12.1. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.12.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.12.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.12.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.12.5. İdarə Heyətinin qərarları, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.13. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

## 5. Agentliyin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Agentliyin nizamnamə fondunun məbləği 442498,00 (dörd yüz qırx iki min dörd yüz doxsan səkkiz) manatdır.

5.2. Agentliyin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Agentlik öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Agentlik balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Agentlik qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri müəyyən edilmiş qaydada ödədikdən sonra Agentliyin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə olunmuş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir. Agentliyin sərəncamında qalan vəsaitdən Nazirlik əməkdaşlarına əlavə mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.

5.5. Agentliyin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Nazirliyin qərarı ilə dövlət büdcəsinə köçürülür.

5.6. Agentliyin məhsullarının (malların, işlərin və xidmətlərin) qiymətləri dövlət tərəfindən tənzimlənən qiymətlərə (tariflərə) aid deyildir.

## 6. Agentliyin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Agentliyin fəaliyyətinə nəzarəti Nazirlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti həyata keçirirlər.

6.2. Agentliyin fəaliyyətinə dair illik hesabat Nazirliyə təqdim edilir.

## 7. Agentlikdə uçot və hesabat

7.1. Agentlik "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Agentlik "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Agentlik idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Agentlik öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

## 8. Agentliyin yenidən təşkili və ləğvi

Agentliyin yenidən təşkilini və ləğvini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

## MARAQ MƏKTUBLARININ QƏBUL EDİLMƏSİNƏ DAİR ELAN (MƏSLƏHƏT XİDMƏTLƏRİ)

**Azərbaycan Respublikası**
**Məşğulluğa Dəstək Layihəsi**
**Kredit №: 9712-AZ**

**Tapşırığın adı: Səriştələrin qiymətləndirilməsi və inkişafı çərçivəsinin hazırlanması, Karyera Məsləhəti xidmətlərinin təkmilləşdirilməsi və DMA/DOST Agentliyi heyətinin bacarıqlarının artırılması**

**İstinad Nömrəsi (Satınalma Planına əsasən): AZ-MLSPP-550874-CS-QCBS**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Məşğulluğa Dəstək Layihəsini həyata keçirmək məqsədilə Dünya Bankından cəlb edilən maliyyə vəsaitlərinin bir hissəsini məsləhət xidmətlərinin satın alınmasına yönəltmək niyyətindədir.

Məsləhət xidmətləri ("Xidmətlər") səriştələrin qiymətləndirilməsi və inkişafı çərçivəsinin hazırlanması, Karyera Məsləhəti xidmətlərinin təkmilləşdirilməsi və DMA/DOST Agentliyi heyətinin bacarıqlarının artırılmasını əhatə edir. Xidmətlərin icra müddəti 30 ay təşkil edir (təxminən 2026-cı ilin oktyabr-noyabr aylarından başlanması gözlənilir).

Tapşırıq üzrə ətraflı Texniki Tapşırıq (TOR) aşağıdakı linkdə təqdim olunmuşdur: TOR 3-Texniki Tapşırıq AZ- May 15_son.docx

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi indi uyğun tələblərə cavab verən məsləhətçi şirkətləri ("Məsləhətçilər") Xidmətlərin göstərilməsində maraqlarını ifadə etməyə dəvət edir. Maraqlı olan Məsləhətçilər Xidmətləri yerinə yetirmək üçün tələb olunan ixtisas və müvafiq təcrübəyə malik olduqlarını sübut edən məlumatları təqdim etməlidirlər. Qısa siyahıya düşmək üçün meyarlar: oxşar xarakterli və mürəkkəblik səviyyəsinə malik layihələrin icrası üzrə təcrübə (səriştə çərçivələrinin və ya peşə və təhsil standartlarının hazırlanması, karyera məsləhəti sistemlərinin qurulması, eləcə də əmək sektoru üzrə potensialın gücləndirilməsi); təlim proqramlarının hazırlanması və həyata keçirilməsi üzrə təcrübə; səriştələrin qiymətləndirilməsi alətlərinin və ya peşə və təhsil standartlarının hazırlanması sahəsində təcrübə; oxşar mühitlərdə təlimlərin təşkili və keçirilməsi üzrə regional təcrübə (Azərbaycan və ya müqayisə edilə bilən ölkələrdə əldə olunmuş təcrübəyə üstünlük verilir) Qısa siyahı mərhələsində əsas işçi heyəti qiymətləndirilməyəcək.

Maraqlı olan Məsləhətçilərin diqqəti Dünya Bankının noyabr 2017, avqust 2018, noyabr 2020 və sentyabr 2023-cü illərdə yenidən baxılmış ("Satınalma Qaydaları"), iyul 2016-cı il tarixli "İLM üzrə Borcalanlar üçün Satınalma Qaydaları" sənədinin Bölmə III, 3.14, 3.16 və 3.17-ci bəndlərinə yönəldilir ki, bu da Dünya Bankının maraqların toqquşmasına dair siyasətini təyin edir.

Məsləhətçilər öz ixtisas və təcrübələrini gücləndirmək məqsədilə digər şirkətlərlə əməkdaşlıq edə bilərlər, lakin bu əməkdaşlığın birgə müəssisə (joint venture) və/və ya subkonsaltinq formasında olduğunu aydın şəkildə göstərməlidirlər. Birgə müəssisə olduqda, ortaq müəssisədəki bütün tərəfdaşlar seçildiyi təqdirdə müqavilə üzrə ortaq və ayrı-ayrılıqda öhdəlik daşıyırlar.

Məsləhətçilərin seçim prosesi Satınalma Qaydaları ilə müəyyən edilmiş Məsləhətçilərin keyfiyyət və qiymətə əsaslanan seçim (QCBS) metoduna uyğun olaraq keçiriləcəkdir.

Əlavə məlumat aşağıda göstərilən ünvana iş saatları ərzində (bazar ertəsindən cümə gününədək, saat 09:00-dan 17:00-dək) müraciət etməklə əldə edilə bilər.

Maraq ifadələri 23 iyun 2026-cı il tarixədək aşağıda göstərilən ünvana yazılı formada (şəxsən, məktub şəklində, faks və ya e-poçt vasitəsilə) təqdim edilməlidir.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi**
**Kimə: Fəqan Əsgərov, Layihə Koordinatoru**
**AZ1100, Nazim Hikmət küçəsi,**
**Rich Plaza, 1-ci giriş, 2-ci mərtəbə**
**Bakı, Azərbaycan**
**Tel: (994 12) 5253449**
**E-mail: fagan.asgarov@esp.az; aybeniz.hajiyeva@esp.az**

## REQUEST FOR EXPRESSIONS OF INTEREST (CONSULTING SERVICES - FIRMS SELECTION)

**The Republic of Azerbaijan**
**Employment Support Project**
**Loan No.: 9712-AZ**

**Assignment Title: Development of competency assessment and development framework, enhancement of career counselling services and capacity building of SEA/DOST agency staff**

**Reference No. (as per Procurement Plan): AZ-MLSPP-550874-CS-QCBS**

The Ministry of Labor and Social Protection of Population has received financing from the World Bank toward the cost of the Employment Support Project and intends to apply part of the proceeds for consulting services.

The consulting services ("the Services") include development of competency assessment and development framework, enhancement of career counselling services and capacity building of SEA/DOST agency staffs, with 30 months of implementation period (expected to start about October-November 2026).

The detailed Terms of Reference (TOR) for the assignment can be found at the following link:

ToR3-Terms of Reference Eng-May 15_fin.docx

The Ministry of Labor and Social Protection of Population / Employment Support Project now invites eligible consulting firms ("Consultants") to indicate their interest in providing the Services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services. The shortlisting criteria are: experience in implementation of projects of similar nature and complexity (development of competency frameworks or occupational and education standards, career counseling systems, and capacity building for labor sector); experience in designing and delivering training programs; experience in developing competency assessment tools or occupational and education standards; regional experience in similar contexts in provision of trainings, preferably in Azerbaijan or comparable countries. Key Experts will not be evaluated at the shortlisting stage.

The attention of interested Consultants is drawn to Section III, paragraphs, 3.14, 3.16, and 3.17 of the World Bank's "Procurement Regulations for IPF Borrowers" July 2016, revised November 2017, August 2018, November 2020 and September 2023 ("Procurement Regulations"), setting forth the World Bank's policy on conflict of interest.

Consultants may associate with other firms to enhance their qualifications but should indicate clearly whether the association is in the form of a joint venture and/or a sub-consultancy. In the case of a joint venture, all the partners in the joint venture shall be jointly and severally liable for the entire contract, if selected.

A Consultant will be selected in accordance with the Consultants Quality and Cost-based Selection method set out in the Procurement Regulations.

Further information can be obtained at the address below during office hours (Monday to Friday 09:00 to 17:00 hours).

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by June 23, 2026.

**Ministry of Labor and Social Protection of Population / Employment Support Project**
**Attn: Mr. Fagan Asgarov, Project Coordinator**
**27, Nazim Hikmet str.,**
**Rich Plaza, 1st entrance, 2nd floor**
**AZ1100, Baku, Azerbaijan**
**Tel: (99412) 5253449**
**E-mail: fagan.asgarov@esp.az; aybeniz.hajiyeva@esp.az**

# Azərbaycan və Gürcüstan arasında enerji əməkdaşlığının inkişaf perspektivləri nəzərdən keçirilib

**"Azərenerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayevlə Gürcüstanın İqtisadiyyat və davamlı inkişaf nazirinin müavini İnqa Pxaladzenin görüşü olub.**

"Gürcüstan Dövlət Elektrik Sistemi" ASC-nin direktoru Vano Zardiaşvilinin də iştirak etdiyi görüşdə iki ölkə arasında enerji əməkdaşlığının mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Görüşdə müasir rəqəmsal texnologiyalar, bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyası, enerjisistemlər arasında əlaqələr və digər mövzularla bağlı fikir mübadiləsi aparılıb.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*



# Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında enerji əməkdaşlığı ilə bağlı müzakirələr aparılıb

"Azərenerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev, "Qazaxıstan Elektrik Şəbəkəsini İdarəetmə Şirkəti" SC-nin İdarə Heyətinin sədri Nəbi Aytjanov və Özbəkistan Milli Enerji Şəbəkəsinin İdarə Heyəti sədrinin müavini Feruz Kurbanovun rəhbərlik etdiyi nümayəndə heyətləri arasında görüş keçirilib.

Görüşdə Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında enerji əməkdaşlığının mövcud vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Eyni zamanda yeni texnologiyaların tətbiqi, bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyası ətrafında müzakirələr aparılan görüşdə, Azərbaycanda yeni işə salınan 250 gücündə / 500 MVt saat tutumu olan Batareya Enerji Saxlanc Mərkəzləri ilə bağlı təcrübə mübadiləsi edilib. Görüşdə əməkdaşlığın gələcək inkişafının intensivləşdirilməsi və qarşılıqlı səfərlərin vacibliyi vurğulanıb.



*Bəhmən MİRZƏYEV,*
*"Azərbaycan"*

# Ermənistan növbəti siyasi sınaq qarşısındadır

## Seçkiyə qədər baş verəcək daxili və xarici hadisələr yekun nəticəyə təsir göstərəcək

Ermənistanda növbəti parlament seçkilərinə doğru gedən proses həm ölkənin daxili siyasi həyatında, həm də regionun geosiyasi dinamikasında mühüm əhəmiyyət kəsb edir. Son illərdə Ermənistanın siyasi sistemi ciddi transformasiyalara məruz qalıb. Xüsusilə Azərbaycanın 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbə və 2023-cü ilin sentyabrında həyata keçirilmiş birgünlük antiterror əməliyyatı nəticəsində bölgədə yaranmış yeni reallıqlar və xarici siyasətdə müşahidə olunan dəyişikliklər Ermənistan cəmiyyətində və siyasi elitasında dərin fikir ayrılıqları yaradıb. Bu baxımdan qarşıdan gələn parlament seçkiləri sadəcə hakimiyyət uğrunda mübarizə deyil, həm də Ermənistanın gələcək inkişaf modeli, regionda sülhün rəsmi olaraq formalaşması baxımından xüsusi əhəmiyyət daşıyır.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Fuad ABDULLAYEV** qəzetimizə açıqlamasında deyib ki, hazırda İrəvanda proseslərin əsas mərkəzində Nikol Paşinyan və ona rəqib olan Samvel Karapetyanın "Güclü Ermənistan", R.Koçaryanın Ermənistan İttifaqı və Qagik Tsarukyan "Çiçəklənən Ermənistan" partiyaları dayanır.

Siyasi şərhçi qeyd edib ki, bugünkü vəziyyət 2021-ci ilin parlament seçkiləri ilə müqayisədə daha mürəkkəbdir: "Belə ki, erməni ictimaiyyətində kəskin qütbləşmə müşahidə edilir, eyni zamanda müxalif qüvvələr müəyyən qədər iri siyasi bloklar ətrafında konsolidasiya oluna biliblər. Müqayisə üçün bildirək ki, əvvəlki seçkidə 26 siyasi qüvvə, yəni 4 blok, 22 siyasi partiya iştirak edib. Lakin bu seçkilərdə cəmi 2 blok, 16 partiya iştirak edəcək. Ümumilikdə Ermənistanda seçkiqabağı mübarizə kəskin formada davam edir. Xüsusilə hakimiyyətin inzibati resurslardan fəal şəkildə istifadə etdiyi müşahidə olunur".

Ekspert diqqətə çatdırıb ki, hakim partiyanın seçki kampaniyası regionda davamlı sülhün təmin edilməsi, qonşu dövlətlərlə münasibətlərin normallaşdırılması, Ermənistanın regional nəqliyyat və iqtisadi layihələrə inteqrasiyası, blokadadan çıxması və iqtisadi inkişaf perspektivləri üzərində qurulub. F.Abdullayevin fikrincə, erməni cəmiyyətinin əhəmiyyətli hissəsi bu praqmatik yanaşmanı dəstəkləyir və ölkənin gələcəyini regional əməkdaşlıq və iqtisadi inkişafda görür. Müxalif qüvvələrin seçki kampaniyası isə əsasən hakimiyyəti ölkənin təhlükəsizliyi siyasətində uğursuzluqda, Qarabağ məsələsində yanlış qərarlar qəbul etmək, Ermənistanın milli maraqlarını zəiflətməklə bağlı ittihamlar üzərində qurulub. Seçki prosesində hakimiyyətin əsas rəqibləri hesab olunan Karapetyan və Koçaryan Qarabağ ermənilərinin geri qayıdışı məsələsini seçki gündəminə çıxarmağa çalışırlar. "Bu mövzunun qabardılması həmin siyasi qüvvələrin regionda formalaşmaqda olan sülhün gündəliyinə fərqli yanaşmanı nümayiş etdirir. Bu, revanşist ritorikanın hələ də Ermənistan siyasətində müəyyən yer tutduğunu göstərir. Bununla belə müxalifətin əsas problemi vahid lider, vahid siyasi platforma, alternativ inkişaf proqramı ətrafında birləşə bilməməsidir. Müxalif qüvvələr müəyyən seçici bazasına malik olsalar da, onların əvvəlki hakimiyyət dövrləri ilə bağlı formalaşmış ictimai rəy hələ də öz təsirini qoruyub saxlayır. Məhz bu amil onların daha geniş elektorat cəlb etməsini çətinləşdirir", - deyə o əlavə edib.

Siyasi şərhçi qeyd edib ki, Ermənistan cəmiyyətində hələ də radikal, revanşist baxışlara malik təbəqə mövcuddur və bu qrup ölkənin üzləşdiyi yeni regional reallıqları qəbul etməkdə çətinlik çəkir, keçmişdə mövcud olmuş maksimalist siyasi yanaşmaların tərəfdarı kimi çıxış edirlər. Digər mühüm amillərdən biri Ermənistan cəmiyyətində müşahidə olunan ideoloji parçalanmadır. Bir qrup seçiçi hesab edir ki, ölkənin gələcəyi Qərbə inteqrasiyadan keçir və Ermənistan təhlükəsizlik sistemini yenidən qurmalıdır. Digər qrup isə Rusiyadan uzaqlaşmağın ciddi risklər yaratdığını düşünür və Moskva ilə tərəfdaşlığın qorunmasını vurğulayır. Bu fikir ayrılıqları seçki kampaniyasında siyasi qüvvələrin əsas mübarizə xəttidir.

F.Abdullayev bildirib ki, mövcud şəraitdə hakim partiya müəyyən üstünlüklərə malikdir: "İlk növbədə dövlət idarəetmə resursları və təşkilati imkanlar hakimiyyətin əlindədir. İkincisi, müxalifətin parçalanmış vəziyyətdə olması, milliyyətçilik və radikal yanaşmadan başqa ciddi yenilik təklif edə bilməməsi hakim partiyanın mövqelərini gücləndirir. Üçüncüsü, Ermənistan cəmiyyətinin bir hissəsi keçmiş hakimiyyət nümayəndələrinin yenidən iqtidara qayıtmasını arzulamır. Buna görə alternativ olmadığı halda Paşinyana səs verməyə meyillidirlər. Lakin bu üstünlük Paşinyanın rahat qələbəsini təmin edən amillər kimi qiymətləndirilməməlidir. Seçki prosesinə xarici faktorların təsiri məsələsi diqqətdənkənar qalmamalıdır. Bu ilin may ayında Ermənistanda Avropa İttifaqı ilə bağlı keçirilən yüksəksəviyyəli tədbirlər, eləcə də ABŞ Dövlət katibi Marko Rubionun İrəvana səfəri siyasi baxımdan mühüm mesajlar verir. Ermənistan hakimiyyəti bu təmasları öz xarici siyasət kursuna və beynəlxalq legitimliyinə verilən dəstək kimi təqdim etməyə çalışır. Bu fonda belə bir təsəvvür formalaşır ki, Qərb dairələri hazırkı hakimiyyətlə əməkdaşlığı davam etdirməkdə qərarlıdır. Eyni zamanda bu hadisələr müxalif qüvvələr tərəfindən də diqqətlə izlənilir. Siyasi baxımdan həmin təmaslar müxalifətə verilmiş mesajlar kimi də qiymətləndirilə bilər".

Ekspert deyib ki, seçkiqabağı dövrdə dərc olunan ictimai rəy sorğuları müxtəlif nəticələr verir. Bu cür sorğuların bir hissəsi, xüsusilə seçkiqabağı prosesdə siyasi məqsədlərlə sifariş oluna bilər. Bundan ictimai rəyə təsir vasitəsi kimi istifadə edilir. Belə hallarda sorğuların nəticələrinin sifarişçinin siyasi maraqlarına uyğun şəkildə təqdim olunması və prosesin siyasiləşməsi ehtimalı kifayət qədər yüksəkdir. Buna görə də seçkiöncəsi sorğular seçicilərin real əhvali-ruhiyyəsini tam əks etdirən göstərici deyil, daha çox seçki kampaniyasının tərkib hissəsi kimi qiymətləndirilməlidir. Ermənistan kimi yüksək siyasi qütbləşmə müşahidə olunduğu ölkələrdə seçicilərin son qərarı seçki gününə yaxın formalaşır və bu səbəbdən sorğuların nəticələri ilə yekun seçki nəticələri arasında ciddi fərqlər yaranır. Ümumiyyətlə, keçirilən sorğuların ortaq nöqtəsi ondan ibarətdir ki, seçicilərin bir çoxu hələ də qərarsızdır və ya seçkiyə getməmək kimi fikir bildirirlər. Bu da onu deməyə əsas verir ki, nəticədə ciddi fərqlər yarana bilər. Buna baxmayaraq, parlament seçkilərinin nəticələri ilə bağlı bir neçə ssenarini nəzərdən keçirmək mümkündür. "Birinci və ən real görünən ssenari hakim partiyanın yenidən birinci siyasi qüvvə olmasıdır. Bu halda partiya təkbaşına hökumət formalaşdıra biləcək. Hazırkı siyasi mənzərəni nəzərə aldıqda bu ehtimal kifayət qədər yüksək görünür. İkinci ssenari hakim partiyanın səsləri az alması, amma yenə parlamentdə ən böyük fraksiya olaraq qalmasıdır. Bu halda Paşinyan koalisiya hökuməti yaratmaq məcburiyyətində də qala bilər. Belə vəziyyət Ermənistanın siyasi sistemində yeni balansların formalaşmasına gətirib çıxara və hökumətin qərar qəbuletmə imkanını müəyyən qədər məhdudlaşdıra bilər. Üçüncü ssenari isə müxalifətin konsolidasiya olunaraq hakimiyyətin ciddi rəqibinə çevrilməsidir. Hazırkı şəraitdə bu ehtimal zəif görünsə də, mümkündür, çünki müxalif qüvvələr arasında ideoloji və şəxsi ziddiyyətlər dərin olaraq qalsa da, hakimiyyətin dəyişməsi ilə bağlı həmrəylik müşahidə edilir", - deyə o bildirib.

Siyasi şərhçi vurğulayıb ki, Azərbaycan-Ermənistan münasibətləri kontekstində də bu seçkilər diqqətlə izlənilir. Çünki sülh sazişi, sərhədlərin delimitasiyası, regional kommunikasiyaların açılması və gələcək əməkdaşlıq perspektivləri İrəvanda formalaşacaq siyasi iradədən böyük ölçüdə asılı olacaq. Hakimiyyətin qorunması halında Paşinyanın son illərdə irəli sürdüyü daha praqmatik yanaşmanın davam etməsi ehtimalı mövcuddur. Müxalifətin güclənməsi isə bəzi məsələlər üzrə daha sərt və maksimalist ritorikanın yenidən gündəmə gəlməsinə səbəb ola bilər.

F.Abdullayev qeyd edib ki, ümumilikdə qiymətləndirildikdə Ermənistanda qarşıdan gələn parlament seçkiləri ölkənin postmüharibə dövründə keçəcəyi növbəti mühüm siyasi sınaq olacaq: "Seçkilərin əsas diqqətçəkən məsələsi hər hansı siyasi qüvvənin qalib gələcəyi ilə bağlı deyil, Ermənistan cəmiyyətinin hansı inkişaf modelinə üstünlük verəcəyidir. Hazırda hakim partiya müəyyən üstünlüklərə malik olsa da, seçkiyə qədər baş verəcək daxili və xarici hadisələr yekun nəticəyə ciddi təsir göstərə bilər. Buna görə də qarşıdakı aylar Ermənistanın siyasi gələcəyi və regionun geosiyasi mənzərəsi baxımından xüsusi əhəmiyyət daşıyacaq. Seçkidən sonra müxalif qüvvələr tərəfindən seçkinin saxtalaşdırılması adı altında etiraz aksiyalarının təşkil olunacağı da istisna edilmir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında Avropa çempionu Mədinə Sadıqova ilə görüş keçirilib





**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Karate üzrə Avropa çempionatında 55 kiloqram çəki dərəcəsində qızıl medal qazanan Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasının (AHİİTA) məşqçi-müəllimi Mədinə Sadıqova ilə görüş keçirilib.**



Görüşdə konfederasiya sədri Sahib Məmmədov ölkəmizdə idmanın inkişafının, sağlam həyat tərzinin təşviqinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindən biri olduğunu vurğulayıb.

Görüşdə bildirilib ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası da bu sosial siyasətə dəstək göstərərək idmanın kütləviliyinin artması istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Qeyd edilib ki, 2025-ci ildə AHİİTA-nın idmançıları müxtəlif yarışlarda ümumilikdə 306 medal qazanıblar. Mədinə Sadıqovanın qazandığı qızıl medal Azərbaycan idmanının növbəti böyük uğurlarından biridir və idmançımız böyüklər arasında Avropa çempionu olan ilk azərbaycanlı qadın karateçidir. AHİİTA-nın karate üzrə məşqçi-müəlliminin bu nailiyyəti həm Azərbaycan idmanının, həm də həmkarlar ittifaqları ailəsinin uğurudur.

Avropa çempionu Mədinə Sadıqova qazandığı qələbənin sevincini bölüşərək özünün idman həyatından danışıb, Azərbaycanda idmançılar üçün dövlət tərəfindən yaradılan geniş imkanların, eləcə də AHİİTA tərəfindən göstərilən dəstəyin onun peşəkar inkişafında mühüm rol oynadığını bildirib.

Mədinə Sadıqova göstərilən diqqət və qayğıya görə təşəkkür edib, gələcək yarışlarda da Azərbaycan bayrağını yüksəklərdə dalğalandırmaq üçün əzmlə çalışacağını deyib.

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***

# Sülh nə vaxt olacaq?

## Donald Tramp İsrail və "Hizbullah"ın hərbi əməliyyatları dayandırmaq barədə razılığa gəldiklərini və İranla danışıqların davam etdiyini açıqlayıb

ABŞ Prezidenti Donald Tramp İsrailin Baş naziri Binyamin Netanyahu və "Hizbullah" nümayəndələri ilə danışıqlar apardığını və hər iki tərəfi gərginliyin azaldılmasının vacibliyinə inandırdığını bildirib. O, İsrail hökuməti başçısının Beyrutun cənubuna qoşun göndərməməyə razı olduğunu, habelə Livandakı qruplaşmanın hücumları dayandıracağına söz verdiyini söyləyib.



Amerika lideri özünün sosial media hesabı "Truth Social"da yazıb: "İsrail Baş naziri Bibi Netanyahu ilə çox məhsuldar bir söhbətim oldu: Beyruta qoşun göndərilməyəcək və artıq yolda olanlar geri dönüb. Həmçinin "Hizbullah"la yüksəkvəzifəli rəsmilər vasitəsilə çox konstruktiv bir söhbətim oldu və onlar bütün hərbi əməliyyatların dayandırılacağına razılaşdılar - İsrail onlara hücum etməyəcək və onlar da İsrailə hücum etməyəcəklər".

Qısa müddət sonra Livanın ABŞ-dəki səfirliyi də İsrailin Livanla danışıqların dördüncü raundu ərəfəsində Beyrutun cənubuna əlavə hücumlar edəcəyi ilə hədələməsindən sonra "Hizbullah"ın ABŞ-nin "hücumların qarşılıqlı dayandırılması" təklifini qəbul etdiyini açıqlayıb. Səfirlik Livan Prezidenti Cozef Aunun ofisi tərəfindən yayımlanan açıqlamada bildirib ki, Livan hakimiyyəti "Hizbullah"ın ABŞ-nin hücumların qarşılıqlı dayandırılması təklifini qəbul etdiyinə dair təsdiq alıb. Bildirilir ki, təsdiq Aunun ABŞ dövlət katibi Marko Rubio ilə telefon danışığından sonra gəlib. Bu arada İsrail Baş naziri Binyamin Netanyahu Donald Trampa "Hizbullah" hücumlarını dayandırmasa, İsrailin Beyruta hücum edəcəyi barədə məlumat verdiyini bildirib: "Bu axşam Prezident Trampla danışdım və ona dedim ki, əgər "Hizbullah" şəhərlərimizə və vətəndaşlarımıza hücumu dayandırmasa, İsrail Beyrutdakı terrorçu hədəflərə zərbə endirəcək". Baş nazir əlavə edib ki, bu məsələ ilə bağlı mövqeyimiz dəyişməz olaraq qalır.

Xəbər verildiyi kimi, bazar ertəsi Binyamin Netanyahu İranın dəstəklədiyi "Hizbullah" qruplaşması ilə artan münaqişə fonunda Livanın paytaxtı Beyrutun cənub ətraflarına hava hücumları əmri verib. O, qruplaşmanın qalası olan Dahiyedəki "terror hədəfləri"nin İsrail mülki əhalisinə qarşı raket və pilotsuz təyyarə hücumlarına, eləcə də aprel ayında elan edilmiş və döyüşlərə son qoymayan atəşkəsin digər pozuntularına cavab olaraq hədəfə alınacağını bildirib.

Livan müharibəyə martın 2-də "Hizbullah"ın İranın ali liderinin öldürülməsinə cavab olaraq İsrailə raket hücumu etməsi ilə cəlb olunub. İsrail buna ölkə boyunca hava hücumları və cənubda quru hücumu ilə cavab verib. Livan Səhiyyə Nazirliyinin məlumatına görə, müharibə başlayandan bəri ölkədə ən azı 3412 nəfər həlak olub. Bu rəqəmlərə həm əsgərlər, həm də mülki şəxslər daxildir. İsrail isə iddia edir ki, eyni dövrdə sərhədin hər iki tərəfində 24 əsgəri və dörd mülki vətəndaşı öldürülüb.

Dünən başqa bir paylaşımda Donald Tramp İranla danışıqların intensiv templə davam etdiyini bildirib. İranın yarı-rəsmi "Tasnim" Xəbər Agentliyi Tehranın danışıqlar qrupunun Livana hücumlar səbəbindən ABŞ ilə bütün təmasları dayandırdığını bildirib. Bu xəbəri şərh edən Tramp "NBC News" telekanalına açıqlayıb ki, İran qərarı barədə Vaşinqtona məlumat verməyib. O, qısa şərhində deyib: "Bu, tamamilə uyğun bir açıqlamadır, çünki onlar döyüşməkdənsə, danışıqlar aparmaqda daha yaxşıdırlar. Amma onlar bu barədə bizə məlumat verməyiblər. Düzünü desəm, düşünürəm ki, biz çox danışmışıq. Fikrimcə, sadəcə, susmaq çox yaxşı olardı". Onun sözlərinə görə, bu, ABŞ-nin "onları bombalamağa başlayacağı" anlamına gəlmir: "Biz dəniz blokadasını davam etdirəcəyik".

İranın xarici işlər naziri Abbas Əraqçi isə daha əvvəl sosial mediada yazmışdı: "İran və ABŞ arasında atəşkəs qeyd-şərtsiz bütün cəbhələrə, o cümlədən Livana şamil edilir. Bir cəbhədə atəşkəsin pozulması bütün cəbhələrdə atəşkəsin pozulması deməkdir".

"Tasnim" Xəbər Agentliyinin verdiyi məlumata görə, İran regional müttəfiqləri ilə birlikdə Hörmüz boğazını tamamilə bağlamaq, eləcə də Bab əl-Məndəb boğazı da daxil olmaqla digər cəbhələrdə hərəkətləri gücləndirmək planı hazırlayıb.

# Ayovada atışmada 6 nəfər həlak olub

## Polis atışmanın məişət münaqişəsi zəminində baş verdiyini bildirir

ABŞ-nin Ayova ştatının Maskatin şəhərində baş verən atışma zamanı 6 nəfər həlak olub. Bu barədə "ABC News" telekanalı yerli polisə istinadən məlumat yayıb.



Müstəntiqlərin sözlərinə görə, şübhəli Rayan Uillis Makfarland Missisipi çayı boyunca piyada yoluna getməzdən əvvəl yaşayış binasında 4 nəfəri güllələyib. İstintaq zamanı polis daha 2 qurbanın cəsədini aşkar edib - biri ayrı evdə, biri isə yaxınlıqdakı ofisdə. Maskatin Polis Departamentinin verdiyi ilkin məlumata görə, qətllər məişət münaqişəsi zəminində baş verib. Bütün qurbanların şübhəlinin qohumları olduğu güman edilir.

İstintaq davam edir. Şübhəli şəxs çayın sahilində intihar edib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Nadir Ebola ştamı yayılır



Konqo Demokratik Respublikası (KDR) və Uqandada yayılan Ebola epidemiyası beynəlxalq ictimaiyyəti ciddi narahat etməyə başlayıb. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) mövcud vəziyyəti "beynəlxalq narahatlıq doğuran ictimai səhiyyə fövqəladə vəziyyəti" elan edib. Epidemiya bu dəfə Ebola virusunun nadir və az öyrənilmiş variantlarından biri olan Bundibugyo ştamı ilə əlaqələndirilir. Hazırda bu ştama qarşı təsdiqlənmiş peyvənd və ya xüsusi müalicə vasitəsinin olmaması xəstəliyə qarşı mübarizəni daha da çətinləşdirir.

Afrika Xəstəliklərə Nəzarət və Profilaktika mərkəzlərinin məlumatına görə, Konqo və Uqandada yüzlərlə təsdiqlənmiş yoluxma halı qeydə alınıb. Minlərlə şübhəli yoluxma hadisəsi isə araşdırılır. Rəqəmlər hər gün dəyişsə də, vəziyyətin nəzarət altına alınmadığı və yeni yoluxmaların davam etdiyi bildirilir. Mütəxəssislər yaxın həftələrdə yoluxma hallarının daha da arta biləcəyini istisna etmirlər.

Epidemiyanın əsas mərkəzi KDR-nin şərqində yerləşən İturi və Şimali Kivu əyalətləridir. Bu bölgələr uzun illərdir silahlı münaqişələr, yoxsulluq və zəif səhiyyə infrastrukturu ilə üzləşdiyindən xəstəliyin yayılmasının qarşısının alınması xüsusilə çətinləşir. Səhiyyə işçilərinin bəzi ərazilərə təhlükəsizlik səbəbindən daxil olmaqda çətinlik çəkməsi xəstələrin aşkarlanması və təmasların izlənilməsi prosesini ləngidir.

ÜST-ün baş direktoru Tedros Adhanom Gebreyesus KDR əhalisinə müraciətində vəziyyətin ciddiliyini vurğulayıb. O bildirib ki, Bundibugyo ştamına qarşı spesifik müalicə mövcud olmasa da, virusun yayılmasının qarşısını almaq və insanların həyatını xilas etmək üçün effektiv tədbirlər görülə bilər. Gebreyesusun sözlərinə görə, yoluxma zəncirinin qırılması, xəstələrin erkən aşkarlanması və təmasda olmuş şəxslərin müəyyən edilməsi epidemiyaya qarşı mübarizənin əsas elementləridir.

Sözügedən ştam ilk dəfə 2007-ci ildə Uqandanın Bundibugyo bölgəsində aşkarlanıb və adı da həmin ərazidən götürülüb. Sonrakı illərdə yalnız bir neçə epidemiya ilə əlaqələndirildiyi üçün digər Ebola variantları ilə müqayisədə daha az öyrənilib. Mövcud virus KDR-də qeydə alınmış 17-ci Ebola epidemiyasıdır. Təxminən yarım əsr əvvəl aşkar edilən virus bu ölkədə dəfələrlə kütləvi yoluxmalara səbəb olub. Hazırkı epidemiya isə miqyasına görə ölkə tarixində ən böyük hadisələrdən biri hesab olunur. Məhz bu səbəbdən diqqətlə izlənilir. KDR ilə sərhədləri olan bir sıra ölkələrdə risk səviyyəsi artıb. Uqanda ilə yanaşı, Cənubi Sudan, Ruanda, Keniya, Zambiya, Mərkəzi Afrika Respublikası, Tanzaniya, Efiopiya, Anqola, Konqo Respublikası, Burundi və Somalinin yüksək risk altında olduğu bildirilir.

Xəstəliyin inkubasiya dövrü 2 gündən 21 günə qədər davam edə bilər. ÜST bildirir ki, insanlar adətən simptomlar ortaya çıxana qədər yoluxucu hesab edilmir. Lakin ilkin əlamətlərin qeyri-spesifik olması diaqnostikanı çətinləşdirir. Yoluxmuş şəxslərdə ilkin mərhələdə qızdırma, yorğunluq, əzələ ağrıları, baş ağrısı və boğaz ağrısı müşahidə olunur. Bu simptomlar qrip və ya digər infeksion xəstəliklərlə oxşarlıq təşkil etdiyindən bir çox halda xəstələr vaxtında müəyyən edilmir.

Xəstəlik inkişaf etdikcə vəziyyət ağırlaşır. Ebola hemorragik qızdırma yaratdığı üçün daxili və xarici qanaxmalar baş verə bilər. Müalicənin gecikməsi isə ölüm riskini artırır. Səhiyyə mütəxəssisləri məhz erkən diaqnostikanın həyat qurtaran əsas amillərdən biri olduğunu bildirirlər. Virus xəstə və ya vəfat etmiş şəxslərin bədən mayeləri ilə birbaşa təmas nəticəsində yayılır. Tər, qan, qusma kimi bioloji mayelər əsas yoluxma mənbəyi hesab olunur. Bu səbəbdən səhiyyə işçiləri, xəstə baxıcıları və dəfn mərasimlərində iştirak edən şəxslər daha yüksək risk qrupuna daxildirlər. Yoluxmuş şəxslərlə təmasda olan insanların müəyyənləşdirilməsi və nəzarət altında saxlanılması epidemiya ilə mübarizədə mühüm rol oynayır.

Mövcud epidemiya ilə bağlı ən böyük problemlərdən biri Bundibuqyoya qarşı təsdiqlənmiş peyvəndin və xüsusi müalicənin olmamasıdır. Son illərdə Ebola virusunun bəzi variantlarına qarşı effektiv peyvəndlər hazırlanıb və tətbiq olunub. Lakin həmin preparatlar bu ştama qarşı eyni səviyyədə təsir göstərmir. Buna görə də ÜST potensial müalicə vasitələrinin qiymətləndirilməsi üçün beynəlxalq ekspertləri bir araya gətirib. Mütəxəssislər klinik sınaqlarda istifadə olunması məqsədilə bir sıra namizəd preparatları prioritet hesab ediblər. Bunların arasında "Mapp Biopharmaceutical" və "Regeneron" şirkətlərinin hazırladıqları antikor terapiyaları, eləcə də "Gilead Sciences" şirkətinin antiviral preparatı yer alır.

Regional əməkdaşlığın gücləndirilməsi məqsədilə KDR, Uqanda və Cənubi Sudan səhiyyə nazirləri birgə cavab tədbirləri planını təsdiqləyiblər. Ümumi dəyəri 319 milyon ABŞ dolları olan proqram epidemiya ilə mübarizə, laboratoriya imkanlarının genişləndirilməsi, səhiyyə işçilərinin hazırlanması və sərhəd nəzarətinin gücləndirilməsini nəzərdə tutur.

Epidemiyanın təsirləri artıq Afrika qitəsindən kənarda da hiss olunmağa başlayıb. Avropa ölkələri vəziyyəti yaxından izləyir.

Hazırda əsas ümid beynəlxalq koordinasiyanın gücləndirilməsi, yoluxma zəncirlərinin vaxtında müəyyən edilməsi və perspektivli müalicə vasitələrinin sürətlə sınaqdan keçirilməsidir. Bununla yanaşı, mütəxəssislər əhalinin maarifləndirilməsinin və səhiyyə sistemlərinə davamlı investisiyaların gələcək epidemiyaların qarşısının alınmasında həlledici rol oynayacağını vurğulayırlar.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***


## "Sabunçu Tikinti-Quraşdırma"
## Qapalı Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə!

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-1.7-107-1.8-ci maddələrini rəhbər tutaraq "Sabunçu Tikinti-Quraşdırma" Qapalı Səhmdar Cəmiyyəti səhmdarlarını ümumi yığıncağa dəvət edir.

Səhmdarların ümumi yığıncağı 30 iyun 2026-cı il saat 17:30-da Bakı şəhəri Sabunçu rayonu, Bakıxanov ŞTQ, Bünyadov qəsəbəsi (Bakıxanov q.), ev 11 ünvanında keçiriləcəkdir.

***Yığıncaqda aşağıdakı məsələlərə baxılacaq:***

1. 2025-ci ilin maliyyə nəticələri.
2. Cəmiyyətin cari ildə əldə etdiyi xalis mənfəət bölüşdürülməsi.
3. Digər məsələlər.
4. Azərbaycan Respublikası Auditorlar Palatasının 22 dekabr 2021-ci il tarixli SA/065 saylı İcazə qeydiyyatı ilə fəaliyyət göstərən sərbəst auditor Vəli Oruc oğlu Bayramov Müstəqil auditor rəyini 20 aprel 2026-cı il tarixində, 2025-ci ilin maliyyə hesabatlarını tərtib etmişdir.

***İdarə Heyəti***


# Hava əsasən yağmursuz olacaq

Azərbaycanda iyunun 3-nə gözlənilən hava şəraiti açıqlanıb.



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi səhər mülayim cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 14-17, gündüz 21-26 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 767 millimetr civə sütunundan 763 millimetr civə sütununa enəcək. Nisbi rütubət 50-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gecə və səhər bəzi yerlərdə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 15-18, gündüz 23-28, dağlarda gecə 5-10, gündüz 13-18, bəzi yerlərdə 20-25 dərəcə isti olacağı bildirilir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3791
Sifariş 691

Qiyməti 60 qəpik